RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 159 (9614) 30 iyul 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hidayət Heydərovu təbrik ediblər

**İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında parlaq qələbə ilə Olimpiya çempionu adını qazanan cüdoçu Hidayət Heydərova zəng ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Olimpiadanın cüdo yarışlarında parlaq qələbə qazanması münasibətilə Hidayət Heydərova təbriklərini çatdırıb, ona gələcək idman fəaliyyətində yeni qələbələr arzulayıblar.

Hidayət Heydərov telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma təşəkkürünü bildirib, Olimpiadada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmaqdan və Dövlət Himnimizin səsləndirilməsindən qürur duyduğunu vurğulayıb. O, yeni uğurlar əldə etmək üçün bundan sonra da səylə fəaliyyət göstərəcəyini deyib.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əhsən! Əhsən! Əhsən, Hidayət! Təbrik edirəm! Yaşasın Azərbaycan!"







## İLHAM ƏLİYEVİN UĞUR FORMULU

*Düşünülmüş strategiya, düzgün taktika*

# Biz çox nikbinik

## I cəbhədə fasilədir, II və III cəbhədə isə mübarizə davam edir

**Azərbaycan Prezidenti İlham Əliyevin təkbaşına dünya mediasının qarşısına çıxaraq ən müxtəlif və bütün sahələri əhatə edən sualları cavablandırması, qeyd etdiyimiz kimi, artıq ənənə şəklini almışdır.**

*Bu formatın yaşarlılığı, gələnlərin sayının isə ilbəil artması cənab İlham Əliyevin jurnalistlərlə uğurlu canlı təmasqurma məharəti, yüksək intellekti, verilən suallara obyektiv yanaşması, onları faktlar əsasında inandırıcı cavablandırması, habelə verdiyi proqnozların yüksək faizlə özünü doğrultmasıdır.*

Maraqlı suallardan biri baş problemini həll edən Azərbaycanın gələcək inkişafı ilə bağlı oldu.

Məsələ bundadır ki, Azərbaycanı sevənlər, onun yaratdığı imkanlardan bəhrələnənlər, dostluq və əməkdaşlıq edənlərlə yanaşı, ölkəmizi gözü götürməyənlər, bizə "xox" gələnlər, hətta hərdən "sanksiya qoyacaqları" ilə hədələyənlər də tapılır.

Azərbaycan isə ağıryüklü karvan olaraq yoluna davam edir...

**Ən mühüm məsələ odur ki, Azərbaycan otuz ilədək müddətdə çalışdı, vuruşdu, hazırlaşdı, ordu qurdu, torpaqlarını döyüş meydanında azad edərək başlıca milli ideyasını gerçəkləşdirdi.**

İnaqurasiya mərasimindəki çıxışında cənab İlham Əliyev yeni milli ideyanın müəyyənləşdirilməsini və bununla bağlı müzakirələr aparılmasını tövsiyə etdi.

Əsas milli ideyaya nail olunması hər bir xalqın fəxridir!

Lakin...

İlham Əliyevin qoyduğu tələblər isə daha uzaqgörəndir:

*Sözsüz ki, biz heç bir zaman nə işğalı, nə fəsadları, nə verdiyimiz qurbanları, nə böyük qələbəmizi unudacağıq. Biz və bizim gələcək nəsillərimiz bu qələbə ilə fəxr edəcək. Lakin biz buna fokuslanmamalıyıq, biz bu mövzunu daimi istismar etməməliyik və onu daimi bir rəmzə çevirməməliyik, biz irəli getməliyik".*

**Azərbaycan Prezidenti ən mühüm məsələlərdən biri olaraq Cənubi Qafqazda sülhün, əməkdaşlığın yaradılmasını vacib sayır.**

Azərbaycan tərəfi buna nail olmaqdan ötrü üzərinə düşən hər şeyi etməyə hazırdır:

*"Hamı deyəcək ki, biz sülh içində yaşayan, münaqişəsiz, müharibəsiz, ərazi iddiası olmayan, hamının bir-birini sevdiyi, əməkdaşlıq etdiyi Cənubi Qafqaz istəyirik. Lakin bu, badə qaldıranda gözəl kəlamlardır, real siyasət üçün belə deyil. Odur ki, həm Gürcüstanda, həm də Ermənistanda yeni xarici siyasət gündəliyi formalaşan dövrdə onu dərindən düşünməli, təhlil etməli və bundan sonra, - Azərbaycanda bu dəyişməyib və əminəm ki, dəyişməyəcək, - biz müəyyən tədbirlər görməliyik ki, inteqrasiya olmasa da, ən azından müəyyən əməkdaşlıq mövcud olsun".*

**Bəli, Azərbaycan Cənubi Qafqazda sülh istəyir, əmin-amanlıq istəyir, əməkdaşlıq istəyir.**

Və bunun üçün əlindən gələni edir!

Ancaq başqa yol tutanlar da var!

**Azərbaycan Prezidenti isə həmişə istəyinə nail olub!**

**Ya xoşluqla, ya da "dəmir yumruq"la!**

→ 4-5




# Fransa Azərbaycan bayrağının kölgəsində qaldı

## İlk qızıl medal

**Parisdə təşkil olunan Olimpiya Oyunlarında günlər ötdükcə hər bir idman növündə yarışlar gərgin və maraqlı xarakter almağa başlayıb. Şübhəsiz ki, Azərbaycan Fransada yarışan atletlərimizdən medallar gözləyir.**

Hər gün milyonlarla tamaşaçıların nəbzi Parisdə idmançılarımızla vurur. Sevindirici haldır ki, artıq dünən ölkəmizin aktivinə medal yazılıb. Özü də əyarı qızıldır. Belə ki, cüdoçumuz Hidayət Heydərov medal həsrətinə son qoydu.

Dünya çempionumuz kolleksiyasına daha bir medal əlavə etdi.

Özü də finalda fransalı həmkarını məğlub etməklə. Necə deyərlər, Fransa Azərbaycan bayrağının kölgəsində qaldı.

Onu da vurğulayaq ki, idman yarışları hər zaman siyasət meydanına çevrilməyib. Amma Fransanın son 4 ildə Azərbaycana qarşı hücumları, qarayaxma kampaniyaları Olimpiya Oyunlarında da özünü bir daha biruzə verdi. Belə ki, Parisdə keçirilən Olimpiya Oyunlarının açılış mərasimində Fransanın "France 2" telekanalının canlı yayımında şərhçilər Azərbaycanla bağlı təxribat xarakterli açıqlamalar verdilər. "Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan Ordusunun əlinə keçməsi ilə nəticələnib", - deyə kanal şərhçiləri qeyd etdilər. Azərbaycanın "Ermənistanla ərazi münaqişəsində olan Qafqaz respublikası" kimi təqdim edilməsi fonunda şərhçi bildirdi ki, Ermənistan tarixən fransızların qəlbinə yaxın ölkədir".

Bu, açıq-aşkar Fransanın Azərbaycana qarşı təxribatının barız təcəssümüdür. Amma Hidayət bu zəfəri ilə fransız təxribatına layiqli cavab verdi.

73 kq çəkidə mübarizə aparan dünya reytinqinin birincisi Hidayət Heydərov mübarizəyə 1/8 finaldan başlayıb. Onun rəqibi 1/16 finalın Tohar Butbul (İsrail) - Reduan Masud Dris (Əlcəzair) cütündə müəyyənləşməli idi. Lakin afrikalı bu qarşılaşmaya çıxmaqdan imtina edib. Hidayət Olimpiadaya Butbulla görüşlə start verib. O, rəqibini məğlub edərək, mərhələ adlayıb.

H.Heydərov 1/4 finalda Artur Marqelidon (Kanada) ilə qarşılaşıb. Gərgin keçən qarşılaşma həmyerlimizin qələbəsi ilə bitib. İpponla qalib gələn Hidayət yarımfinalda kosovalı Akil Qyakova ilə üz-üzə gəlib. Bu mərhələdə də rəqibini üstələyən cüdoçumuz adını finala yazdırıb.

→ 9



## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1.4-cü, 3.1.24-cü, 3.1.38-3.1.40-cı, 3.1.43-3.1.45-ci, 3.1.51-ci, 3.1.53-cü, 3.1.54-cü və 3.1.57-ci yarımbəndlərdən "tabeliyindəki qurum vasitəsilə" sözləri çıxarılsın.

2._3.1.42-ci, 3.1.48-ci, 3.1.49-cu, 3.1.52-ci və 3.1.55-ci yarımbəndlərdən "strukturuna daxil olan qurum vasitəsilə" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2024-cü il*

## "İcbari tibbi sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2427 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2024-cü il büdcəsinin gəlirlərini və xərclərini dürüstləşdirmək məqsədilə **qərara alıram:**

"İcbari tibbi sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2427 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1688 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə hər iki halda "2 811 428 292,00" rəqəmləri "2 850 308 292,00" rəqəmləri ilə əvəz edilsin.

2. 2-ci hissə üzrə:

2.1. 2.1-ci bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "1 375 987 690,00" rəqəmləri "1 367 987 690,00" rəqəmləri ilə əvəz edilsin;

2.2. 2.1.1-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "1 236 410 000,00" rəqəmləri "1 228 410 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.3. 2.2-ci bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "815 053 804,00" rəqəmləri "827 933 804,00" rəqəmləri ilə əvəz edilsin;

2.4. 2.2.2-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "218 100 000,00" rəqəmləri "218 380 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.5. 2.2.2.1-ci və 2.2.2.2-ci abzasların "Məbləğ (manatla)" sütununda "109 050 000,00" rəqəmləri "109 190 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.6. 2.2.3-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "303 800 000,00" rəqəmləri "316 400 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.7. 2.2.3.1-ci və 2.2.3.2-ci abzasların "Məbləğ (manatla)" sütununda "151 900 000,00" rəqəmləri "158 200 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.8. 2.5-ci bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "32 600 000,00" rəqəmləri "66 600 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.9. 2.5.1-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "31 000 000,00" rəqəmləri "65 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

3. 3-cü hissə üzrə:

3.1. 3.2-ci bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "79 280 236,00" rəqəmləri "78 934 142,00" rəqəmləri ilə əvəz edilsin;

3.2. 3.2.1-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "53 280 236,00" rəqəmləri "52 934 142,00" rəqəmləri ilə əvəz edilsin;

3.3. 3.4-cü bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "2 503 074 032,0" rəqəmləri "2 565 744 926,00" rəqəmləri ilə əvəz edilsin;

3.4. 3.4.1-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "1 717 996 342,00" rəqəmləri "1 678 167 236,00" rəqəmləri ilə əvəz edilsin;

3.5. 3.4.2-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "497 077 690,0" rəqəmləri "479 577 690,0" rəqəmləri ilə əvəz edilsin;

3.6. 3.4.2.3-cü abzasın "Məbləğ (manatla)" sütununda "27 500 000,00" rəqəmləri "23 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.7. 3.4.2.4-cü abzasın "Məbləğ (manatla)" sütununda "50 000 000,00" rəqəmləri "40 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.8. 3.4.2.5-ci abzasın "Məbləğ (manatla)" sütununda "57 000 000,00" rəqəmləri "55 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.9. 3.4.2.7-ci abzasın "Məbləğ (manatla)" sütununda "1 000 000,00" rəqəmləri "3 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.10. 3.4.2.9-cu abzasın "Məbləğ (manatla)" sütununda "24 000 000,00" rəqəmləri "21 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.11. 3.4.2.9.2-ci abzasın "Məbləğ (manatla)" sütununda "5 000 000,00" rəqəmləri "2.000.000,00" rəqəmləri ilə əvəz edilsin;

3.12. 3.4.3-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "260 000 000,00" rəqəmləri "393 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.13. 3.4.4-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "28 000 000,00" rəqəmləri "15 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.14. 3.5-ci bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "55 000 000,00" rəqəmləri "30 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

3.15. 3.6-cı bəndin birinci abzasının "Məbləğ (manatla)" sütununda "88 874 024,00" rəqəmləri "90 429 224,00" rəqəmləri ilə əvəz edilsin;

3.16. 3.6.1-ci yarımbəndin "Məbləğ (manatla)" sütununda "3 303 343,00" rəqəmləri "3 288 923,00" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2024-cü il*

## "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2024-cü il*

## V.M.Vəliyevin Azərbaycan Texniki Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Vilayət Məmməd oğlu Vəliyev Azərbaycan Texniki Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2024-cü il*

***Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti (bundan sonra - Xidmət) Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra - Agentlik) fəaliyyət istiqamətlərinə uyğun olaraq, su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikası su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə (bundan sonra - müvafiq sahə) dövlət nəzarətini, su və su təsərrüfatı obyektlərinin monitorinqini həyata keçirən, Agentliyin strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Agentliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Agentliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Bakı şəhərində yerləşir.

### 2. Xidmətin fəaliyyət istiqamətləri

2.1. Xidmətin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Agentliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

2.1.3. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

2.1.4. Azərbaycan Respublikasının ərazisində yerüstü və yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparmaq və monitorinqin nəticələrinə əsasən tədbirlər görmək;

2.1.5. müvafiq sahənin inkişafı üçün tədbirlər görmək.

### 3. Xidmətin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikası su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini həyata keçirmək;

3.1.3. Azərbaycan Respublikasının ərazisində yerləşən su və su təsərrüfatı obyektlərində, hidrotexniki qurğularda, su təchizatı sistemlərində monitorinqlər, dövlət su kadastrını, yerüstü və yeraltı suların dövlət uçotunu aparmaq;

3.1.4. suların vəziyyətinə zərərli təsir edən texniki qurğuların, avadanlığın, müəssisələrin (və ya onların bir hissəsinin) və digər obyektlərin istismara buraxılmasının qadağan edilməsi barədə, habelə onların istismarının məhdudlaşdırılması, dayandırılması və fəaliyyətinin qadağan edilməsi ilə bağlı Agentliyə təkliflər vermək;

3.1.5. su obyektlərinin, o cümlədən içməli su təchizatı mənbələrinin sanitariya-mühafizə zonaları və dairələrinin rejiminin təyin edilməsində iştirak etmək;

3.1.6.su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və onlardan istifadə qaydasının müəyyən edilməsində iştirak etmək;

3.1.7. yeraltı və yerüstü suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün tədbirlər planının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.8. təbii fəlakət və texnogen qəzalar nəticəsində zədələnmiş və ya sıradan çıxmış su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.9. su ehtiyatlarından kompleks istifadə və həmin obyektlərin mühafizəsi baş sxeminin, hövzə və ərazi sxemlərinin hazırlanmasında iştirak etmək;

3.1.10. sudan qənaətlə istifadə olunması, o cümlədən itkilərin qarşısının alınması ilə bağlı tədbirlər görmək;

3.1.11. qanunla müəyyən edilmiş qaydada istifadəyə verilmiş su mühafizə zonalarının torpaqlarında fəaliyyətə nəzarəti həyata keçirmək;

3.1.12. hidrotexniki qurğuların təhlükəsizliyinə təsir edən tikinti fəaliyyətini və konservasiya işlərini dayandırmaq barədə Agentliyə təkliflər vermək;

3.1.13. su obyektlərinin, hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün Agentliyə təkliflər vermək;

3.1.14. dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısının tərtib edilməsində iştirak etmək;

3.1.15. su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunun aparılmasına nəzarətin həyata keçirilməsini, bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə dair aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə monitorinq aparılmasını təmin etmək;

3.1.16. su obyektlərindən təyinatına görə istifadə edilməsi ilə bağlı monitorinq aparmaq və qanunvericiliyə uyğun tədbirlər görmək;

3.1.17. su ehtiyatlarından istifadə sahəsində proqnoz və layihələrin hazırlanmasında iştirak etmək;

3.1.18. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumat toplanılmasını həyata keçirmək;

3.1.19. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində baş vermiş qəzaların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində iştirak etmək;

3.1.20. ərazi planlaşdırılması sənədlərinə dair Agentliyə təkliflər vermək;

3.1.21. qanunla nəzərdə tutulmuş qaydada su obyektlərindən balıqçılıq üçün istifadəyə razılıq verilməsi, sututarlar və ya onların müəyyən hissəsinin idman və həvəskar balıq və digər su bioresurslarının ovu üçün ayrılması barədə Agentliyə rəy vermək;

3.1.22. ölkə, su hövzələri və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarının hazırlanmasında iştirak etmək;

3.1.23. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.24. sulardan istifadə və onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş tələbləri pozan şəxslərə qarşı qanunla müəyyən edilmiş tədbirlər görmək;

3.1.25. su və su təsərrüfatı obyektlərindən götürülən suların bölüşdürülməsini və sudan istifadəyə nəzarətin həyata keçirilməsini təmin etmək;

3.1.26. tərkibində çirkləndirici maddələrin miqdarı normadan artıq olan tullantı sularının su obyektlərinə axıdılmasının məhdudlaşdırılmasını, dayandırılmasını və ya qadağan olunmasını təmin etmək;

3.1.27. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin, göllərdən və limanlardan su buraxılmasının qarşısının alınması üçün tədbirlər görülməsini təmin etmək;

3.1.28. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrinin təsdiqini və hidrotexniki qurğuların dövlət reyestrinin aparılmasını təmin etmək;

3.1.29. Agentlik tərəfindən verilmiş su ehtiyatlarından istifadəyə icazələrin şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.30. müvafiq sahədə dövlət proqramlarının, inkişaf konsepsiyalarının layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.31. qanunda nəzərdə tutulmuş hallarda "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama aparmaq;

3.1.32. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini fəaliyyət istiqamətləri üzrə təmin etmək;

3.1.33. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.34. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə Azərbaycan Respublikasının "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.35. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun olaraq təhlükəsizlik tədbirləri görmək;

3.1.36. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Agentliyə təkliflər vermək;

3.1.37. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə kadr hazırlığını təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.38. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.39. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.40. müvafiq sahədə "Coğrafi İnformasiya Sistemi"nin (GİS) formalaşdırılması, aparılması və təkmilləşdirilməsi üçün Agentliyə təkliflər vermək;

3.1.41. meliorasiya və irriqasiya sistemlərinin kadastrını aparmaq;

3.1.42. fəaliyyətinin nəticələri barədə Agentliyə hesabat təqdim etmək;

3.1.43. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 4. Xidmətin hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Agentliyə təkliflər vermək;

4.1.2. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Agentliyə təkliflər vermək;

4.1.3. müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, monitorinqlər və tədqiqatlar aparmaq, rəy və təkliflərini Agentliyə təqdim etmək;

4.1.4. Agentliklə razılaşdırmaqla beynəlxalq tədbirlərdə iştirak etmək və müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.1.5. Agentliklə razılaşdırmaqla beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, onların müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.1.6. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi şirkətləri və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.8. Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmədə öz adından çıxış etmək;

4.1.9. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Xidmətin fəaliyyətinin təşkili

5.1.Xidmətin strukturu, ştat cədvəli, gəlir və xərclər smetası Agentliyin sədri tərəfindən təsdiq edilir.

5.2. Xidmətə Agentliyin sədri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyalarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmət rəisinin Agentliyin sədri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən iki müavini vardır. Xidmət rəisinin müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Xidmətin rəisi:

5.5.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.5.3. Xidmət rəisinin müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Xidmətin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.4. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Agentliyə təqdim edir;

5.5.5. Agentliyin sədri tərəfindən təyin edilən Xidmət işçiləri istisna olmaqla, Xidmətin digər işçilərini Agentliyin sədri ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentliyin sədri tərəfindən təyin edilən Xidmət işçiləri istisna olmaqla, Xidmətin digər dövlət qulluqçularına qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.7. Xidmətin fəaliyyətinə dair əmr və sərəncamlar verir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;

5.5.8. Xidmətin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.9. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Agentliyə təkliflər verir;

5.5.10. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.5.11. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.12. Xidmətin fəaliyyəti barədə Agentliyə hesabat verir;

5.5.13. dövlət büdcəsindən ayrılan vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Xidmət işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir.

# Azərbaycan-Venesuela münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur

## Venesuela Bolivar Respublikasının Prezidenti zati-aliləri cənab Nikolas Maduro Morosa

Hörmətli cənab Prezident!

Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Venesuela münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələrinin, həm ikitərəfli, həm də çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi və ən xoş arzularımı çatdırır, dost Venesuela xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2024-cü il*

# Azərbaycan-Peru münasibətlərinin inkişafı naminə birgə səylər göstəriləcək

## Peru Respublikasının Prezidenti zati-aliləri xanım Dina Ersilia Boluarte Zeqarraya

Hörmətli xanım Prezident!

Peru Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Peru münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, həm ikitərəfli qaydada, həm də çoxtərəfli təsisatlar çərçivəsində əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Peru xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2024-cü il*

# Baş nazir Əli Əsədov İranın yeni təyin olunmuş Birinci vitse-prezidentini təbrik edib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Məhəmməd Reza Arefə İran İslam Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda vurğulanıb ki, Azərbaycan Respublikası İran İslam Respublikası ilə ortaq dini-mədəni köklər, qarşılıqlı hörmət və mehriban qonşuluq kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərə böyük əhəmiyyət verir. Azərbaycan-İran əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə addımların atılmasına hazırlıq ifadə olunub.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 361** **QƏRAR** **Bakı şəhəri, 26 iyul 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 oktyabr tarixli 337 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli 17 nömrəli Fərmanının 11.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 oktyabr tarixli 337 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1408 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 may tarixli 290 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"nın 3.1.4-cü yarımbəndinə "Nazirliyinə" sözündən sonra "və Ədliyyə Nazirliyinə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 364** **QƏRAR** **Bakı şəhəri, 29 iyul 2024-cü il**

## “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1224 (Cild I); 2024, № 2, maddə 237, № 3, maddə 301) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"na aşağıdakı məzmunda 4.1-1-ci bənd əlavə edilsin:

"4.1-1. Müsahibədə iştirak etmək üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar namizəddən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 457 (Cild I) ilə təsdiq edilmiş "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2-ci bənd üzrə:

2.1.1. birinci cümləyə "əlavə edilir" sözlərindən sonra "(bu Qaydanın 3.4-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.1.2. ikinci cümləyə "təqdim edilir" sözlərindən sonra "(bu Qaydanın 3.4-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.2. 3.3-cü bəndə "əlavə edir" sözlərindən sonra "(bu Qaydanın 3.4-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

"3.4-1. Bu Qaydanın 3.4-cü və 3.6-3.8-ci bəndlərində nəzərdə tutulan (bu Qaydanın 3.2-ci bəndinin ikinci cümləsi nəzərə alınmaqla) sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edən şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi bu Qaydanın 3.3-cü bəndinə münasibətdə müraciət edən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən şəxs tərəfindən təmin edilir.";

2.4. 3.5-ci bəndə "tutuşdurulması" sözündən sonra "(bu Qaydanın 3.4-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 avqust tarixli 279 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 965 (Cild I); 2024, № 2, maddə 237) ilə təsdiq edilmiş "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 2.2-ci bənd əlavə edilsin:

"2.2. Akkreditə olunma üçün bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar media subyektindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi media subyektinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya media subyekti tərəfindən təmin edilir.";

3.2. 4.5-ci bəndin birinci cümləsinə "aradan qaldırılması" sözlərindən sonra "(bu Qaydanın 2.2-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 oktyabr tarixli 451 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2165) ilə təsdiq edilmiş "Gənclər siyasəti ilə bağlı proqram və layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 4.3-1-ci bənd əlavə edilsin:

"4.3-1. Müsabiqədə iştirak etmək üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 2.11-1-ci bənd əlavə edilsin:

"2.11-1. Bu Qaydanın 2.10-cu və 2.11-ci bəndlərində göstərilən sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar əlilliyi olan şəxslərdən və ya onların qanuni nümayəndəsindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi əlilliyi olan şəxslərin və ya onların qanuni nümayəndəsinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya əlilliyi olan şəxslər və ya onların qanuni nümayəndəsi tərəfindən təmin edilir.";

5.2. 3.2-ci bəndin birinci cümləsinə "təqdim olunur" sözlərindən sonra "(bu Qaydanın 2.11-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 dekabr tarixli 434 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1538 (Cild I) ilə təsdiq edilmiş "Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"nın 3.5-ci bəndin birinci cümləsinə "təqdim olunmadıqda" sözlərindən sonra "(İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 dekabr tarixli 436 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1540 (Cild I) ilə təsdiq edilmiş "Enerji idarəçisinə (menecerinə) dair tələblər, habelə onların attestasiyadan keçirilməsi Qaydası"nın 5.3-cü bəndinin birinci cümləsinə "aradan qaldırılması" sözündən sonra "(İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-ci il 14 sentyabr tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1348 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. aşağıdakı məzmunda 7.5-1-ci bənd əlavə edilsin:

"7.5-1. Bu Qaydanın 7.5-ci bəndində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

8.2. 7.10-cu bəndin birinci cümləsinə "çatışmazlıqlar" sözündən sonra "(bu Qaydanın 7.5-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 362** **QƏRAR** **Bakı şəhəri, 29 iyul 2024-cü il**

## “Araşdırmanın nəticələrinə dair aktın forması”nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Araşdırmanın nəticələrinə dair aktın forması" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 363** **QƏRAR** **Bakı şəhəri, 29 iyul 2024-cü il**

## “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 30.1-ci maddəsində nəzərdə tutulan ərizənin forması”nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 30.1-ci maddəsində nəzərdə tutulan ərizənin forması" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Ceyhun Bayramov BMT-nin regional direktoru ilə COP29-a hazırlıq işlərini müzakirə edib

**İyulun 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İnkişaf üzrə Əlaqələndirici Ofisinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Qvi-Yeop Son ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və BMT-nin müxtəlif ixtisaslaşmış qurumları arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın uzun illər BMT, xüsusilə onun ixtisaslaşmış qurumları ilə faydalı əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) əməkdaşlıq gündəliyində xüsusi yer tutduğu, Azərbaycanın az sayda ölkələrdən biri kimi dayanıqlı inkişaf gündəliyinin icrası istiqamətində könüllü şəkildə mütəmadi hesabatlar təqdim etməsinin bu istiqamətə verdiyimiz əhəmiyyətin göstəricisi olduğu qeyd olunub. Postmünaqişə dövründə üzləşdiyimiz ən mühüm təhlükəsizlik çağırışlarından biri olan mina təhdidi ilə mübarizədə humanitar minatəmizləmənin 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan olunduğu, eyni problemin bir çox ölkə üçün aktuallığını nəzərə alaraq, bu təşəbbüsün BMT çərçivəsində davamlı olaraq təşviq edildiyi bildirilib.

Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə, habelə ətraf mühitin qorunması istiqamətini uzun illərdir təşviq etdiyi, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işlərində yaşıl texnologiyaların, o cümlədən "ağılı kənd", "ağıllı şəhər" konsepsiyalarının tətbiqinin bunun göstəricisi olduğu qeyd edilib.

Cari ilin ölkəmizin COP29 sədrliyi ilə əlamətdar olduğunu bildirən nazir Ceyhun Bayramov, bu istiqamətdə BMT ilə əməkdaşlığımızın daha da genişlənməsinin sevindirici hal olduğunu qeyd edib. Qlobal təhdidlərlə mübarizədə göstərdiyimiz bütün səylər kimi COP29 sədrliyimizin də inklüziv və nəticəyönümlü proses olmasına əhəmiyyət verdiyimiz diqqətə çatdırılıb. Ölkəmizin həmçinin 2026-cı ildə Ümumdünya Şəhər Forumu və Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi edəcəyi qeyd olunub.

Qarşı tərəf Azərbaycanın COP29 sədrliyinə hazırlıq üçün məhdud vaxtının olmasına baxmayaraq, indiyədək əldə olunan nəticələrin təqdirəlayiq olduğunu vurğulayıb. BMT-nin Azərbaycanın möhkəm çoxtərəfliliyin təşviqində aktiv iştirakını, habelə innovativ və yaradıcı yanaşma sərgiləməsini alqışladığı diqqətə çatdırılıb. Proses çərçivəsində iqlim dəyişikliyinin regional nəticələri, xüsusilə su ehtiyatları ilə bağlı risklərin diqqət mərkəzində saxlanılmasının vacibliyi qeyd olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

# Biz çox nikbinik

**Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində üç cəbhədə vuruşdu:**

- *Hərb meydanında.*
- *Diplomatiya sahəsində.*
- *İnformasiya müharibəsində.*

✦ Hər üç cəbhədə ləyaqətli çarpışma getdi!

✦ Hər üç cəbhədə möhtəşəm qələbə təmin olundu!

✦ Hər üç cəbhədəki savaşda qalib Baş Sərkərdəmiz, Milli Ordumuz və Azərbaycan xalqı oldu!

**İlham Əliyev bizi qalib xalqa, qalib dövlətə çevirdi, üstəlik, ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoydu!**

Hərb meydanında gedən döyüşləri, düşmənin hərbi hədəflərinin PUA-lar və mərmilərlə dəqiq vurulmasını müharibə davam edən müddətdə evimizdə rahat kreslolarımızda oturaraq ləzzətlə seyr etdik.

*Prezident İlham Əliyevin dünya KİV-nə, televiziya kanallarına və informasiya agentliklərinə müsahibələrinin, jurnalistlərin suallarını məharətlə, dəqiqliklə cavablandırdığının, qərəzli və bəzən jurnalist etikasını pozaraq müsahibəni mübahisəyə çevirmək istəyənləri necə faktların dili ilə yerində oturtduğunun şahidi olduq!*

Prezidentimizin xalqa müraciətlərində söylədiklərini acgözlüklə dinlədik, diplomatiya savaşından xəbərdar olduq, ən nəhayət, heç bir təsir, təhdid və hədəyə baxmayaraq yalnız Ermənistan işğalçı qoşunlarının ərazimizdən rəddolma qrafikini verdikdən sonra hərbi əməliyyatların dayandırıldığını, üçtərəfli Bəyanatın Rusiya Prezidenti V.Putin və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalandığını mavi ekranda seyr etdik!

Ermənistanın isə kapitulyasiya aktına gizlində qol çəkdiyini eşitdik!

**Bəli, Azərbaycan otuz ildə dünyanın - BMT-nin, ATƏT-in, beynəlxalq hüququn, həmsədr dövlətlərin edə bilmədiyini 44 gündə "dəmir yumruq"la həll etdi.**

**Torpaqlarını murdar ləpirlilərdən təmizlədi.**

*Sonralar daha bir neçə dəfə qısamüddətli hərbi əməliyyatlar keçirilərək ərazi bütövlüyümüz, dövlət suverenliyimiz və Konstitusiya əsaslarımız bərpa olundu!*

**Bütövlükdə hərbi əməliyyatlar başa çatsa da, diplomatiya sahəsində və informasiya meydanında çarpışmalar davam edir.**

Biz çox nikbinik!

Çünki güclüyük və ədalətliyik!

Döyüşdüyümüz bütün meydanlarda qalib gəlməyi bacarırıq!

*Bu gün diplomatiya və informasiya sahəsində mübarizəmiz davam etsə də, şübhə yoxdur ki, burada da son qələbə bizimlə olacaqdır!*

**II Şuşa Qlobal Media Forumunda dövlət başçısı İlham Əliyevin dedikləri, görülən və görüləcək işlər barədə dünyaya verdiyi mesajlar bunu bir daha təsdiqləyir!**

❖ ❖ ❖

Jurnalistlər üçün ən qiymətli informasiya dövlət başçılarının onların suallarına verdikləri cavab sayılır.

**Azərbaycan Prezidenti İlham Əliyev daim jurnalistlərə açıq olan dövlət başçılarındandır.**

*İstənilən sualları cavablandırır, bu məqamda ən son və dəyərli faktları açıqlayır, heç bir sualdan hər hansı formada yayınmır.*

Hətta məqsədli şəkildə verilən "xətakar" sualları belə diplomatik məharətlə "dəf" edir, mövqe bildirməməsinin səbəbini səmimi şəkildə auditoriyaya çatdırır...

**Vətən müharibəsi dövründə cənab İlham Əliyev otuzdan çox media qurumunun suallarını cavablandırdı.**

*26 fevral 2021-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xətti ilə onlayn şəkildə mətbuat konfransı keçirərək, əcnəbi iştirakçılardan birinin qeyd etdiyi kimi, dörd dildə beş saatadək davam edən tədbirdə "Ginnesin rekordlar kitabı"na düşəcək yeniliyə imza atmış oldu!*

Azərbaycan Prezidenti İlham Əliyevin hər il ADA Universitetində beynəlxalq beyin mərkəzlərinin nümayəndələrinin dünyada gedən proseslərlə bağlı suallarını cavablandırması da ənənəyə çevrilmişdir.



## I cəbhədə fasilədir, II və III cəbhədə isə mübarizə davam edir

Daha bir ənənə isə ilin sonuna yaxın ərəfədə yerli jurnalistlərlə təmas quraraq onların suallarına aydınlıq gətirməsidir.

Şuşada Qlobal Media Forumunun keçirilməsi də son illərin xoş ənənələrindəndir.

*Dünyanın əksər ölkələrini təmsil edən media mənsubları, siyasi şərhçilər Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya həvəslə gələrək burada görülən möhtəşəm quruculuq işləri ilə yaxından tanış olur, dünyada baş verən mürəkkəb və ziddiyyətli proseslər, müharibələr və iqtisadi gözləntilər barədə onları düşündürən sualları müasir dövrün məşhur siyasi liderlərindən biri sayılan cənab İlham Əliyevə ünvanlayırlar.*

İştirakçılarının sayının getdikcə artması Şuşa Qlobal Media Forumunun uğurundan, buradakı müzakirələrin effektivliyindən xəbər verir.

**İyulun 20-də Prezident İlham Əliyevin iştirakı ilə "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumu uğurla keçirildi.**

❖ ❖ ❖

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə start verilən ilk günlərdən ölkəmiz medianın haqsız hücumlarına, dezinformasiyaya məruz qalıb!*

*Məşhur ifadə ilə desək, yanan da biz olmuşuq, yaman da!*

İlkin vaxtlarda keçmiş SSRİ-nin birinci və axırıncı prezidenti olan M.Qorbaçovun dəstəyindən istifadə edən ermənilər Moskvanın yaratdığı imkanlardan fəal şəkildə bəhrələnirdilər.

*Sovet dövründə müttəfiq respublikaların informasiya sahəsində də beynəlxalq aləmə müstəqil şəkildə çıxış imkanları yox idi.*

Bu, yalnız SİTA-nın, XMA-nın vasitəsilə mümkün idi.

**İttifaq qəzetləri və mərkəzi televiziya da indi olduğu kimi, ermənilər tərəfindən inhisara alınmışdı və onların maraqlarını təmin edirdi.**

*Əvvəlcə "DQMV sosial-iqtisadi cəhətdən Azərbaycanın digər bölgələrindən çox geridədir" tezisini işə saldılar.*

Halbuki tam əksi idi və bu yalan konkret rəqəmlərlə ifşa edildikdən sonra növbəti yalana rəvac verildi:

*"Ermənilər "zavallı", "məzlum" xalqdır, azərbaycanlılar tərəfindən sıxışdırılır, təzyiqlərə məruz qalırlar".*

Bu "zavallı xalq" isə həqiqətdə Ermənistandan gəlmiş silahlı "saqqallı"ların və yaraqlıların (o zaman bunları "fədai"lər də adlandırırdılar) əli ilə silahsız azərbaycanlıları doğma yurd-yuvalarından qovub çıxarırdı.

**Bir qədər keçmiş bu "məzlum və zavallı xalq" əsl simasını, vəhşiliyini göstərdi, Xocalı, Qaradağlı, Başlıbel, Bağanıs Ayrım soyqırımlarını törətdi!**

*Hətta Azərbaycanın Dağlıq Qarabağ ərazisi və ona bitişik 7 rayonu işğal edildikdən sonra da ermənilər beynəlxalq mediada "mələk qiyafəsi"ndə təqdim edilirdilər!*

*Erməni diasporu dünya mediasını (hər diaspor məxsus olduğu ölkədəki KİV-i) pulla ələ aldığından yalan ayaq tutub yeriyir, əsl həqiqətlər isə bir kənara qoyulurdu...*

- Nə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsindən və onun mahiyyətindən xəbər verilirdi.
- Nə ermənilərin törətdikləri vəhşiliklərdən və soyqırımlarından bəhs edilirdi.
- Nə ermənilərin işğal etdikləri ərazilərdə törətdikləri vandallıqlardan danışılırdı.
- Nə də bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünlərin taleyindən, acınacaqlı vəziyyətlərindən informasiyalar verilirdi.

**İkili standartlar münaqişənin ilk günlərindən dünya mediasında da tətbiq olunurdu.**

*Ermənilər pulla vicdansız jurnalistləri satın aldığından yalan, saxta informasiyalar sürətlə tirajlanır, satılmış media qurumları erməni işğalına başqa don geyindirərək özgə torpaqlarının zorla ələ keçirilməsinə bəraət qazandırmaq üçün dəridən-qabıqdan çıxırdı.*

İndi, COP29 ərəfəsində isə ermənisifət media qurumları mənfur fəaliyyətlərini bir qədər də gücləndirmişlər.

❖ ❖ ❖

50-dən artıq dövlətdən gəlmiş 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin təmsil olunduğu Şuşa forumu yenə də olduqca maraqlı və səmimi atmosferdə keçdi.

*Budəfəki forum dünyanı və bütün media platformalarını bürüyən yalan məlumatların ifşasına, dezinformasiyaya qarşı mübarizəyə həsr edilmişdi.*

**Azərbaycan bu cəbhədə də vuruşmaq məcburiyyətindədir!**

*Çünki bir sıra dövlətlər və qurumlar, Azərbaycanın zəfər müharibəsindəki qələbəsini, torpaqlarını öz gücü ilə işğaldan azad etməsini həzm edə bilməyənlər dezinformasiya ilə manipulyasiya etməklə feyk informasiyanı ölkəmizə qarşı çirkin mübarizə vasitəsinə çevirmişlər.*

Gülməli bir məqam da var!

Ermənipərəst qurumlar, dövlətlər və siyasətçilər Azərbaycanla bağlı dövriyyəyə buraxılan "informasiyalar"ın "feyk xəbər" olduğunu bilsələr də, özlərini yenə o yerə qoymur, ondan yararlanmağa can atır, ermənilərin gözündə xal qazanmaqdan ötrü əldən-ayaqdan gedirlər.

**Tədbirin təşkilatçısı "Euronews" televiziya kanalı idi, moderatorluğu isə kanalın prodüseri xanım Rebekka Maklaflin - İstham edirdi.**

Şuşa II Qlobal Media Forumunu təkcə Azərbaycanda çıxan qəzetlər, televiziya kanalları və elektron saytlar deyil, bütün dünya mediası geniş və ətraflı şəkildə işıqlandırdı.

Biz yalnız vacib hesab etdiyimiz bir sıra məqamlara yenidən diqqət çəkmək istəyirik.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyevin təkbaşına dünya mediasının qarşısına çıxaraq ən müxtəlif və bütün sahələri əhatə edən sualları cavablandırması, qeyd etdiyimiz kimi, artıq ənənə şəklini almışdır.**

*Bu formatın yaşarlılığı, gələnlərin sayının isə ilbəil artması cənab İlham Əliyevin jurnalistlərlə uğurlu canlı təmasqurma məharəti, yüksək intellekti, verilən suallara obyektiv yanaşması, onları faktlar əsasında inandırıcı cavablandırması, habelə verdiyi proqnozların yüksək faizlə özünü doğrultmasıdır.*

Maraqlı suallardan biri baş problemini həll edən Azərbaycanın gələcək inkişafı ilə bağlı oldu.

Məsələ bundadır ki, Azərbaycanı sevənlər, onun yaratdığı imkanlardan bəhrələnənlər, dostluq və əməkdaşlıq edənlərlə yanaşı, ölkəmizi gözü götürməyənlər, bizə "xox" gələnlər, hətta hərdən "sanksiya qoyacaqları" ilə hədələyənlər də tapılır.

Azərbaycan isə ağıryüklü karvan olaraq yoluna davam edir...

**Ən mühüm məsələ odur ki, Azərbaycan otuz ilədək müddətdə çalışdı, vuruşdu, hazırlaşdı, ordu qurdu, torpaqlarını döyüş meydanında azad edərək başlıca milli ideyasını gerçəkləşdirdi.**

İnaqurasiya mərasimindəki çıxışında cənab İlham Əliyev yeni milli ideyanın müəyyənləşdirilməsini və bununla bağlı müzakirələr aparılmasını tövsiyə etdi.

Əsas milli ideyaya nail olunması hər bir xalqın fəxridir!

Lakin...

İlham Əliyevin qoyduğu tələblər isə daha uzaqgörəndir:

*"Sözsüz ki, biz heç bir zaman nə işğalı, nə fəsadları, nə verdiyimiz qurbanları, nə böyük qələbəmizi unudacağıq. Biz və bizim gələcək nəsillərimiz bu qələbə ilə fəxr edəcək. Lakin biz buna fokuslanmamalıyıq, biz bu mövzunu daimi istismar etməməliyik və onu daimi bir rəmzə çevirməməliyik, biz irəli getməliyik".*

**Azərbaycan Prezidenti ən mühüm məsələlərdən biri olaraq Cənubi Qafqazda sülhün, əməkdaşlığın yaradılmasını vacib sayır.**

Azərbaycan tərəfi buna nail olmaqdan ötrü üzərinə düşən hər şeyi etməyə hazırdır:

*"Hamı deyəcək ki, biz sülh içində yaşayan, münaqişəsiz, müharibəsiz, ərazi iddiası olmayan, hamının bir-birini sevdiyi, əməkdaşlıq etdiyi Cənubi Qafqaz istəyirik. Lakin bu, badə qaldıranda gözəl kəlamlardır, real siyasət üçün belə deyil. Odur ki, həm Gürcüstanda, həm də Ermənistanda yeni xarici siyasət gündəliyi formalaşan dövrdə onu dərindən düşünməli, təhlil etməli və bundan sonra, - Azərbaycanda bu dəyişməyib və əminəm ki, dəyişməyəcək, - biz müəyyən tədbirlər görməliyik ki, inteqrasiya olmasa da, ən azından müəyyən əməkdaşlıq mövcud olsun".*

**Bəli, Azərbaycan Cənubi Qafqazda sülh istəyir, əmin-amanlıq istəyir, əməkdaşlıq istəyir.**

Və bunun üçün əlindən gələni edir!

Ancaq başqa yol tutanlar da var!

**Azərbaycan Prezidenti isə həmişə istəyinə nail olub!**

**Ya xoşluqla, ya da "dəmir yumruq"la!**

❖ ❖ ❖

Azərbaycan çox mühüm və qlobalmiqyaslı bir tədbirə - COP29-a evsahibliyi edəcəkdir!

Tədbirin ölkəmizdə keçirilməsi həm də bizə olan etibar və etimadın göstəricisidir.

*Lakin bu, bədxahlarımızın, bizi gözü götürməyənlərin əlinə düşən fürsətdir: ölkəmizə qarşı hücumlara keçmək, qarayaxma, gözdənsalma kampaniyasına başlamaq, narrativ düzəldərək dezinformasiyalar yaymaq fürsəti!*

Qərb mediası ilk günlərdən "ənənə"sinə sadiq qaldı: bizə qarşı hücumlara başladı.

**"İttiham"lardan biri Azərbaycanın neft-qazla zəngin ölkə olmasıdır.**

Baxın, neft və qazı alıb işlədərək atmosferə tullantılar atanlar yox, onu ən müasir üsullarla, ekologiyaya ziyan gətirmədən çıxarıb satanlar günahkar sayılırlar!

Qəribədir ki, COP tədbirlərinin biri Qlazqoda - Böyük Britaniyanın neft hasil etdiyi bölgəsində keçiriləndə heç kəs onları ittiham etmirdi...

Ardı 5-ci səh.



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika

Əvvəli 4-cü səh.

# Biz çox nikbinik

*COP29 beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir.*

*Azərbaycan bunu özü üçün misilsiz bir şans sayır, təşkilati baxımdan fəal iş aparır, müəyyən təşəbbüslər irəli sürür, əslində, həm də Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qurur.*

**İlham Əliyev COP-un dünyaya faydalı olması üçün sözlə kifayətlənmənin yanlış olduğunu göstərdi.**

Danışmaq, müxtəlif narrativlər düzəltmək əvəzinə, konkret və səmərəli işlə məşğul olmaq vacibdir - Azərbaycan Prezidenti İlham Əliyev belə hesab edir:

*"COP, sadəcə, bir və ya iki həftə davam edən tədbir deyil. Bu, davamlı bir prosesdir. Əgər bir ölkə hər hansı miras qoymaq istəyirsə, bu, tutarlı və konkret töhfə olmalıdır. Sözlər, bəyanatlar kifayət deyil. Burada real addımlar atılmalıdır və koordinasiya həyata keçirilməlidir".*

❖ ❖ ❖

II Qlobal Media Forumunda Fransanın neokolonializm siyasəti barədə də suallar səsləndirildi.

**Kimsəyə sirr deyil ki, Ermənistanın "böyük bacı"sı Fransa Azərbaycana qarşı soyuq müharibə aparır, işğalçı dövləti revanşizmə sürükləyərək silahlandırır, Cənubi Qafqaza soxulmağa, burada ikinci Ukrayna yaratmağa çalışır.**

Öz gözündə tiri görməyən Makron özgə gözündə tük axtarır...

*Azərbaycan isə Qoşulmama Hərəkatına rəhbərliyi dövründən başlayaraq insanlığa iyrənc münasibət sayılan kolonializmə qarşı fəal mübarizə aparır.*

*Fransa prezidenti Makronun xoşuna gəlsə də, gəlməsə də!*

Fransadan minlərlə kilometr uzaqda yerləşən ada dövlətlərində iyrənc, qəbuledilməz siyasət yürüdülür, yerli əhali təhqirlərə məruz qalır, onları assimilyasiya etməyə çalışırlar.

Yeni Kaledoniyada, Mayot adası və Qəmər adalarında baş verənlər iyrənclikdir, qəbuledilməzdir.

**Azərbaycanın Qoşulmama Hərəkatına rəhbərliyi dövründə yaradılan Bakı Təşəbbüs Qrupu bu hallara qarşı etiraz səsini ucaldır, kəskin mövqe nümayiş etdirir.**

Fransa prezidenti Makronun BMT-dəki anti-Azərbaycan mövqeyinə, Ermənistan vasitəsilə ölkəmizə qarşı apardığı düşmənçilik hərəkətlərinə baxmayaraq, Azərbaycan heç zaman öz mövqeyindən geri çəkilən deyil!

**Bununla bağlı sualı cavablandırarkən cənab İlham Əliyev açıq mövqe nümayiş etdirdi:**

*"Biz sizi hər zaman dəstəkləyəcəyik. Əlimizdən gələni edəcəyik ki, siz və sizin kimi milyonlarla insan öz torpağında azad yaşaya bilsin. Siz öz gələcəyinizi planlaşdırmalısınız. Siz öz irsinizi və ləyaqətinizi, dilinizi qorumalısınız, hansı ki, bu gün sizi ondan məhrum etməyə çalışırlar. Biz sizin yanınızda olacağıq".*

❖ ❖ ❖

**Təbii ki, Şuşa forumunda sülh mövzusuna da toxunuldu.**

Bu bir faktdır ki, indiyədək sülh müqaviləsi imzalanmayıb!

Mediada bu barədə çox deyilib, çox yazılıb, çoxsaylı görüşlər keçirilərək qapalı və açıq müzakirələr aparılıb.

**Qalib dövlətin rəhbəri İlham Əliyev bütün baş verənlər, habelə Azərbaycanın qəti mövqeyi barədə açıq danışdı.**

**Onun söylədiklərindən bir neçə vacib məqamı bir daha xatırladırıq:**

- *"Mənim fikrim ondan ibarətdir ki, Qarabağ münaqişəsi həll edilib. Biz nə etməliyik ki, iki ölkə münasibətləri normallaşsın".*
- *"Ermənistan həmin sülh sazişinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi. Biz bunun qəti əleyhinə idik".*
- *"...Hazırda iki məsələ var. Birincisi, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir ki, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Çünki artıq uzun müddətdir bu qrup fəaliyyətsizdir, bəlkə də bir-iki ildir. Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur".*
- *"Ermənistan Minsk qrupunu hələ də fəaliyyətdə saxlamaq istəyirsə, bu o deməkdir ki, Ermənistanın hələ də Azərbaycana qarşı ərazi iddiası var və bu, çox ciddi bir faktordur. Bu, bir testdir, bu, bir göstəricidir".*
- *"Növbəti şərt odur ki, Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Bizim onların daxili işlərinə hər hansı bir müdaxilə etmək niyyətimiz yoxdur. Ermənistan konstitusiyasında müstəqillik barədə müddəa var və orada Azərbaycanın ərazi bütövlüyünə qarşı təhlükə var, təhdid var. Orada Ermənistanın və dırnaqarası "Dağlıq Qarabağ"ın birləşməsindən söhbət gedir. Yəni bu müddəa o konstitusiyada olduğu müddətdə sülh sazişi mümkün deyil".*

**Böyük Britaniyanın Baş nazirinin ikitərəfli görüşü təşkil etmək təşəbbüsünü iflasa uğradan Paşinyanın bu hərəkətinə kəskin münasibətini bildirən İlham Əliyev açıq şəkildə bəyan etdi:**

- *"O, (Ermənistanın baş naziri Paşinyan - red.) mənimlə danışmaq istəmirsə, hansı sülh sazişindən söhbət gedə bilər. O, Britaniyanın Baş naziri ilə danışmaq istəmirsə, Londona və Oksforda niyə səfər edirdi?"*

**Qalib ölkə sülh müqaviləsinin imzalanmasında israrlıdır!**




## I cəbhədə fasilədir, II və III cəbhədə isə mübarizə davam edir

**Kapitulyasiya aktına qol çəkən məğlub tərəf isə yeni ağa, yeni silah, maliyyə vəsaiti axtarışına çıxaraq revanşizm hissilə yaşayır.**

İnanmaq çətindir ki, 44 günlük müharibədə baş verənləri, "dəmir yumruğ"un zərbələrini unudub!

Yaddaşı təzələmək o qədər də çətin olmayacaqdır!

❖ ❖ ❖

Forumda ABŞ-Azərbaycan münasibətlərinə dair suallar da səsləndirildi.

**Cənab İlham Əliyev bu sualları səmimiyyətlə, konkret faktları sadalamaqla cavablandırdı.**

ABŞ super dövlətdir, böyük hərbi və maliyyə imkanları, dünyada gedən proseslərə, dünyadakı dövlətlərə müxtəlif təsir rıçaqları mövcuddur.

ABŞ hətta Qərbi Avropanı idarə edən, ona öz istəklərinə uyğun qərarlar qəbul etdirməyi bacaran dövlətdir.

ABŞ həm də ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olub.

Bütün bunları bilən və nəzərə alan Azərbaycan ABŞ ilə daim sabit, səmimi və mehriban əməkdaşlıq qurmağa çalışıb, hətta müəyyən məsələlərdə ona dəstək də verib.

**Lakin ABŞ-nin təqsiri üzündən qarşılıqlı hörmət və əməkdaşlıq ruhunda qurulan münasibətlərin enişli-yoxuşlu dövrləri də olub.**

*Hətta bizim siyasi həyatımıza müdaxiləyə cəhdlər göstərilib, QHT-lər vasitəsilə radikal müxalifətə maliyyə yardımları ötürülüb, Azərbaycanda da "rəngli inqilab" törətmək niyyəti mövcud olub.*

Yeri gəlmişkən, Azərbaycan Soros Fondunu öz ərazisindən çıxaran azsaylı dövlətlər sırasındadır.

**Amma Azərbaycan xoşniyyətli əməkdaşlığa can atıb.**

Məsələn, Azərbaycan ilk qeyri-NATO ölkəsi idi ki, Əfqanıstanda hərbi əməliyyatlara sülhməramlı qüvvələrinin iştirakı ilə qoşuldu və oranı sonuncu tərk edənlərdən oldu.

Bu o zaman idi ki, ABŞ-nin Əfqanıstanla bağlı Azərbaycanın dəstəyinə ehtiyac vardı.

Azərbaycan Əfqanıstana hərbi yüklərin daşınması üçün öz hava məkanını ABŞ-nin üzünə açdı.

Əvəzində nə gördük?!

**ABŞ-nin Əfqanıstandakı missiyası başa çatandan sonra onlar bir zamanlar erməni diasporunun təsiri ilə bizə qarşı tətbiq etdikləri ədalətsizliyə yenidən qayıtdılar.**

**"Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişi bərpa edərək birbaşa yardımları qadağan edən sanksiya tətbiq etdilər!**

*Beləliklə, uzun illər boyu onlara etdiyimiz yaxşılıqların "əvəzi"ni qaytardılar...*

Nədənsə ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməmiz ABŞ-nin xoşuna gəlmir!

Hətta "Azərbaycanla bundan sonra əlaqələr əvvəlki kimi ola bilməz" məzmunlu bəyanat da verdilər...

Sonra nə oldu?

Yenidən adi qaydada əlaqələr quruldu.

Lakin yenə də birtərəfli yanaşma mövcuddur!

- Cənubi Qafqazda ayırıcı xətlərin çəkilməsi qəbuledilməzdir!
- Ermənistanın silahlandırılması, revanşist niyyətini gerçəkləşdirməsindən ötrü Avropa Sülh Fondundan məğlub ölkəyə 10 milyon avro ayrılması qəbuledilməzdir!
- Birgə təlimlər keçirilməsi, Cənubi Qafqazda ikinci Ukrayna yaradılması cəhdi qəbuledilməzdir!

**Bunun bir səbəbi ABŞ-nin dövlət siyasətinə oradakı erməni diasporunun təsir etmək, yönləndirmək imkanında olmasıdır.**

Hər dəfə prezident seçkiləri zamanı ABŞ-dəki prezidentliyə namizədin "erməni səsi"nə ehtiyacı olur!

**Beləliklə, dövlət başçısı seçilənlər fəaliyyətə başlamazdan əvvəl erməni diasporuna borclu düşürlər və həmin borcu qaytarmaqdan ötrü öz dövləti maraqlarını deyil, erməni maraqlarını üstün tutmağa məcbur olurlar.**

*Bayden "borcu"nu qaytarmaq üçün "24 aprel" çıxışlarından birində "erməni soyqırımı" ifadəsini işlətdi.*

*Amma dünya dağılmadı, qeyri-adi heç nə baş vermədi!*

*Çünki dağılmayan dünyada hamı bilir ki, "erməni soyqırımı" olmayıb, bu, yalnız narrativdir!*

Odur ki, ermənilər öz arxivlərinin qapısını bərk-bərk bağlayıblar, kimsəni ora buraxmırlar.

Yalanlarının üstünün açılmasından qorxurlar...

Azərbaycan doğru bildiyi yolla gedir.

**Dövlət başçısı İlham Əliyev forumda sualları cavablandırarkən sağlam düşüncənin və mövqenin üstün gələcəyinə inandığını bildirdi:**

*"Ümid edirəm ki, seçkidən sonra ABŞ-də, Avropada Azərbaycan haqqında, bizim potensialımız, rolumuz haqqında daha yaxşı anlayış olsun".*

Onsuz da Azərbaycan heç zaman öz maraqlarından, öz mövqeyindən geri duran deyil!

❖ ❖ ❖

Sovet dövründə kapitalizmi ideoloji cəhətdən ifşa edən bir ifadə vardı: "Burjua mətbuatı kapitalistin pul kisəsindən asılıdır!"

Dövr, zaman dəyişsə də, bu bağlılıq və asılılıq dəyişməyib!

Bəşəriyyət uzun zaman mübarizə apardı ki, azad sözə, azad fikrə nail olsun!

Ancaq güclülərin və pulluların niyyətləri buna imkan vermir!

**Beynəlxalq hüquqa dönmədən əməl edən, dünyanın qarşılaşdığı çətinlik və problemlərin həllinə daim şəxsi töhfələrini verən, öz gücü ilə işğal altındakı torpaqlarını azad edərək bu gün imkanlarını sülh və əməkdaşlıq uğrunda savaşanlara təqdim edən Azərbaycana qarşı riyakar hücumlar ara vermir.**

Prezident İlham Əliyev bunu forumda açıq şəkildə söylədi:

*"Azərbaycana gəldikdə, bu, koordinasiya edilmiş media hücumlarıdır. Bunlar, adətən, mühüm geosiyasi hadisələrə təsadüf edir. O, idarəedilən bir media hücumu olanda onlar istəklərinə nail olmurlar. Çünki onların istəkləri, hədəfləri bizim maraqlarımıza ziddir".*

Media qurumları və sosial şəbəkələrdə informasiya axını güclü olduğundan dünyanın müxtəlif yerlərində yaşayan insanlar nəyin doğru, nəyin yalan olduğunu dərhal ayırd edə bilmirlər.

**Feyk informasiyanı yayanlar isə insanların bu bilgisizliklərindən - regiondakı əsl vəziyyətdən və real həqiqətlər barədəki məlumatsızlıqlarından istifadə edərək onları aldadır, yalan xəbərlər sırıyırlar.**

Ötən əsrin sonlarında istifadə olunan metodlara yenidən qayıdılır: bu dəfə bir qədər də geniş formada, sosial şəbəkədən də istifadə olunmaqla.

- Ermənilər və onlara dəstək verən media qurumları Qarabağda törədilən vəhşiliklər, vandallıqlar, dağıntılar barədə susurlar.
- Ermənilərin könüllü şəkildə Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyərək ərazilərimizi tərk etmələrini isə "etnik təmizləmə" kimi qələmə verirlər.
- Ən gülməlisi isə budur ki, azərbaycanlıların doğma torpaqlara qayıdışlarına "işğal" donu geyindirilir.

**Lakin bugünkü Azərbaycan ötən əsrdəki zəif və imkansız dövlət deyil!**

Güclü rəhbəri, güclü ordusu, geniş imkanları və həqiqətlərin yayılmasına dəstək verən vicdanlı dostları vardır.

Dəyirman öz işindədir, çax-çax baş ağrıdır!

❖ ❖ ❖

**Mediadan silah kimi istifadə edilməsi yetər!**

II Şuşa Qlobal Media Forumunun yekdil rəylərindən biri də bu oldu!

- Media siyasətə yox, həqiqətə xidmət etməlidir!
- Media qarşıdurma yaradılmasına, zəiflərin, azlıqların hüquqlarının pozulmasına yox, ədalətə xidmət etməlidir!
- Media güclülərin əlində alətə çevrilməli deyil, obyektiv, qərəzsiz olmalıdır!
- Media siyasi asılılıqlardan xilas olaraq özünə qayıtmalı, doğru yolla getməlidir!

II Şuşa Qlobal Media Forumu dünya mediasını həm də buna səslədi!

**Bəxtiyar SADIQOV**

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Şirvanda Milli Məclisə seçkilərdə polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə keçirilib





Bu il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi (DİN) ilə birgə layihəsi çərçivəsində Şirvanda seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisə seçkilərdə polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə Şirvan Şəhər Gənclər Mərkəzində keçirilib. Tədbir Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimov və Şirvan Şəhər Polis Şöbəsinin rəisi Füzuli Əhmədovun açılış nitqləri ilə reallaşıb.

Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, region üzrə 25 seçki dairəsi dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin nümayəndələri iştirak ediblər. Tədbirdə Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrindən danışılıb.

Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov tədbirdə seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi mövzusunda çıxış edib.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsində idarə rəisi Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin, digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi barədə məlumat verib.

Sonda suallar cavablandırılıb.

## Seçkilərdə fəallığın daha da yüksəldilməsi üçün tədbirlər görülür

Ölkəmiz müstəqillik tarixində ilk dəfə olaraq ərazi bütövlüyü və suverenliyi tam bərpa edildiyi şəraitdə Milli Məclisə seçkilər keçirəcək. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin yüksək səviyyədə təşkili, azad, ədalətli və şəffaf keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə genişmiqyaslı tədbirlər reallaşdırılır.



Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə layihəsi çərçivəsində iyulun 24-də "dəyirmi masa" təşkil olundu. Mərkəzi Seçki Komissiyasının müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən genişmiqyaslı maarifləndirmə proqramı əsasında reallaşdırılan layihə cəmiyyətdəki aktiv mövqeyi, məqsədyönlü fəaliyyətləri günbəgün güclənən Azərbaycan qadınlarının qarşıdan gələn seçkilərdə fəallıqlarının daha da yüksəldilməsi üçün yaradılan geniş və hərtərəfli imkanları müzakirə edildi. Tədbirdə çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov qurumlararası sıx əməkdaşlıq sayəsində ərsəyə gələn müxtəlif layihələrin qadınların seçkilərdə azad və sərbəst fəaliyyətinin təkmilləşdirilməsi, məlumatlılığının artırılması, həmçinin fəallığı baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı. O, ölkəmizdə keçirilən seçkilərdə qadınların rolunun çox böyük olduğunu bildirdi. Qeyd etdi ki, seçicilərimizin çoxu qadınlardır: "Seçkilərdə fəallığı baxımından ən gözə görünməyən, amma effektli olanlar da qadınlardır".

Mərkəzi Seçki Komissiyasının sədri qeyd etdi ki, Azərbaycan 2020-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə bu xalqın, ordunun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi: "Azərbaycan yüz illərdir arzu etdiyi, həsrətində olduğu halların reallaşdığını görür. Ona görə çalışmalıyıq ki, bizə aid olan sahələrdə öz fəaliyyətimizi həmin standartlar üzərində quraq. Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra artıq ikinci dəfə seçki keçirəcək. Birincisi fevral ayında keçirilən prezident seçkiləri idi. Biz onu "Zəfər seçkisi" adlandırırdıq. Mən hesab edirəm ki, o, prezident seçkiləri ilə bağlı Zəfər seçkiləri idi, bu isə Milli Məclisə seçkilər baxımından Zəfər seçkisi olmalıdır".

"Dəyirmi masa"da qadın məsələlərinə dair təşkilatlar, vətəndaş cəmiyyəti institutları və ictimai birliklərin nümayəndələri iştirak edirdilər. Tədbirdə qadınların seçkilərdə iştirakı ilə bağlı müxtəlif mövzular ətrafında geniş müzakirələr aparıldı, meydana çıxan suallar cavablandırıldı.

İyulun 24-də Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsinə də start verildi. Birgə layihə çərçivəsində regional seminar-müşavirələrə başlanıldı. İlk tədbir həmin gün Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyi təmsilçilərinin də iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində keçirildi.

Qeyd edək ki, Milli Məclisə seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirələrdə ölkə üzrə bütün dairə seçki komissiyalarının sədrləri və polis orqanları nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Tədbirlərdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Komissiya Katibliyinin əməkdaşları və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının nümayəndələri tərəfindən Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə təqdimatlar keçirilir, çıxışlar dinlənilir, müzakirələr aparılır.

İyulun 25-də Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi (DİN) ilə birgə layihəsi çərçivəsində seminar-müşavirə Gəncədə təşkil olundu. Gəncə 2-ci polis şöbəsində keçirilən seminar-müşavirədə Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrindən danışıldı.

Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində növbəti regional seminar-müşavirə iyulun 26-da Şəki şəhərində keçirildi. Tədbirdə Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, ölkəmizin şimal-qərb bölgəsində, eləcə də ətraf şəhər və rayonlarda fəaliyyət göstərən 17 seçki dairəsi üzrə dairə seçki komissiyalarının sədrləri, şəhər və rayon polis şöbələrinin məsul əməkdaşları iştirak etdilər. Seminar-müşavirədə seçkilərdə polisin xidməti fəaliyyətinə dair məsələlər ətraflı müzakirə olundu.

Mərkəzi Seçki Komissiyasının növbəti iclası Məzahir Pənahovun sədrliyi ilə iyulun 27-də baş tutdu. Komissiyanın iyulun 24-də keçirilən iclasının protokolu təsdiqləndi. Sonra Milli Məclisə növbədənkənar seçkilərdə seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası komissiya üzvləri tərəfindən müzakirə edilərək təsdiq olundu. Qərar verildi ki, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 6 milyon 516 min 567 seçki bülleteninin komissiyanın təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında hazırlanacaq.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Milli Məclisə növbədənkənar seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün ümumilikdə indiyədək 2794 nəfərin akkreditasiyadan keçdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, müşahidəçilərdən 2562 nəfəri Mərkəzi Seçki Komissiyasında qeydiyyat keçiblər. Onların 126-sı Yeni Azərbaycan Partiyasının, 569-u QHT-lər xətti, 1867 nəfəri isə öz təşəbbüsü ilə müraciət edib.

Qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş vəzifə və səlahiyyətlərə malik qurumlarla sıx əməkdaşlıq çərçivəsində intensiv şəkildə davam etdirilən ümumrespublika miqyaslı maarifləndirmə tədbirləri barədə də iclasda ətraflı məlumat verildi, deputatlığa namizədlərin irəli sürülməsi və qeydə alınması, həmçinin müşahidəçilərin akkreditasiyası ilə bağlı statistik göstəricilər diqqətə çatdırıldı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## "Times of Oman" portalında II Şuşa Qlobal Media Forumu barədə məqalələr dərc olunub

"Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilmiş II Şuşa Qlobal Media Forumu hələ də dünya mediasının diqqət mərkəzindədir. Forumun iştirakçıları olan media nümayəndələri bu mötəbər tədbirdə müzakirə olunan aktual məsələlər, xüsusən Prezident İlham Əliyevin dünyada və bölgədə baş verən proseslər, ölkəmizlə bağlı həqiqətlər, hazırda medianın qarşısında duran əsas çağırışlarla bağlı fikirlərinə geniş yer ayırırlar.

AZƏRTAC xəbər verir ki, Omanın "Times of Oman" nəşri II Şuşa Qlobal Media Forumu və dövlətimizin başçısının tədbirin açılışında iştirakçıların suallarını cavablandırarkən səsləndirdiyi fikirlərə geniş yer ayırıb.

"Times of Oman" nəşrində yayımlanan məqalədə artıq ikinci ildir təşkil olunan və geniş beynəlxalq auditoriyanı əhatə edən forumun, həmçinin COP29 sədrliyinin rəsmiləri ilə görüşmək, COP29-a hazırlıq məsələləri, iqlim dəyişikliyinə qarşı mübarizənin dəstəklənməsi və bir sıra aktual mövzularda ətraflı müzakirələr aparmaq imkanı yaratdığı vurğulanıb.

Qeyd olunub ki, 50-dən çox ölkədən media nümayəndələrinin qatıldıqları tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev media mütəxəssislərinin və ekspertlərin suallarını cavablandırıb, ötənilki forumdan keçən müddətdə regionda və dünyada baş verən hadisələr barədə fikirlərini bölüşüb.

Məqalədə Prezident İlham Əliyevin regionda təhlükəsizlik məsələləri, işğaldan azad edilən ərazilərdə həyata keçirilən bərpa-yenidənqurma işləri barədə fikirlərindən sitat gətirilib: "Yəni, biz - bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Buna əminəm, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb. Füzuli hava limanından buraya səfər edərkən siz gördünüz ki, biz nəhəng yenidənqurma proqramı həyata keçiririk və sizin gördükləriniz, bəlkə bu işlərin heç beş faizi deyil. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı biz çox nikbinik və Azərbaycan cəmiyyəti də olduqca nikbindir və bu işlərə çox həvəslə yanaşır. Bu, hər bir ölkənin müvəffəqiyyətə nail olması üçün əsas amildir. Burada rahatlıq və təhlükəsizlik vacib amildir. Eyni zamanda gözləntilər vacibdir. Cəmiyyət görür ki, uzun illər can atdığı məqsədlər artıq reallığa çevrilibdir".

Yazıda dövlətimizin başçısının Azərbaycanın bərpaolunan enerji sahəsində atılan addımlar, ölkəmizin zəngin "yaşıl enerji" potensialı barədə fikirlərinə də geniş yer verilib: "Biz ən böyük günəş-elektrik stansiyasını - 230 meqavat gücündə stansiyanı istifadəyə verdik. İndi isə 240 meqavatlıq külək-elektrik enerjisi stansiyası ilə bağlı işlər yekunlaşır və tezliklə biz 240 meqavatlıq günəş-elektrik stansiyasının açılışını edəcəyik. Birinci layihə "Masdar" şirkəti, ikinci layihə isə "Acwa Power" şirkəti tərəfindən həyata keçirilir. Üçüncüsü isə BP tərəfindən inşa ediləcək. Yəni bunlar dünyanın aparıcı enerji şirkətləridir. Bununla yanaşı, ötən ay Bakıda biz üç günəş və külək-elektrik stansiyasının təməlini qoyduq, ümumi həcm bir qiqavatdır. Biz bu sahədə çox böyük işlər görürük. Böyük potensialımız var, həm texniki, həm də iqtisadi potensialımız. Texniki baxımdan dənizdə külək enerjisi potensialı 157 qiqavatdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına görə, iqtisadi baxımdan quruda Günəş və külək stansiyalarının potensialı, göstərir ki, biz 27 qiqavat həcm istehsal edə bilərik, yəni həcm böyükdür".




Məqalədə Prezident İlham Əliyevin media sənayesinin gələcəyi, bu sahədə süni intellektin rolu, o cümlədən süni intellektlə bir sıra manipulyasiyalara, ciddi təhlükələrə yol aça biləcəyi barədə fikirlərinin böyük maraqla qarşılandığı qeyd olunub. "Zənnimcə, beynəlxalq səviyyədə belə bir mexanizm işlənib hazırlana bilər. Bu, heç bir halda söz azadlığının məhdudlaşdırılması kimi qəbul olunmayacaq. Beynəlxalq səviyyədə, BMT səviyyəsində, yaxud da "Böyük 20"lik tərəfindən təşəbbüslər irəli sürülə bilər ki, buna son qoyulsun. Bu, çox ciddi bir təhdiddir və təşəkkür edirəm ki, siz bu mövzuya toxunursunuz", - deyə dövlətimizin başçısının fikri oxucuların diqqətinə çatdırılıb.

Həmçinin qeyd olunub ki, forum çərçivəsində iki gün ərzində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında müzakirələr aparılıb.

Bildirilib ki, 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır.

Qeyd edək ki, "Times of Oman" portalında dərc olunan "COP29 nədir" sərlövhəli məqalədə isə Azərbaycan bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyi vurğulanıb. Qeyd edilib ki, beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində güclü təcrübəyə malik Azərbaycan COP29-un keçiriləcəyi məkan kimi Bakı Stadionunu seçib. COP29 sədrliyi şəffaf, qərəzsiz və inklüziv bir prosesi həyata keçirmək məqsədilə ambisiyaları artırmaq və fəaliyyətə imkan vermək üçün bir-birini gücləndirən iki sütuna əsaslanan plan hazırlayıb.

Bildirilib ki, COP29 sədrliyi tərəfindən yaradılan və idarə olunan Yaşıl Zona iştirakçılara perspektivə dair planlarını bildirmək üçün dinamik forum təqdim edir. Bu, həm cari yenilikləri, həm də iqlim dəyişikliyi ilə mübarizə üçün potensial həlləri nümayiş etdirən müzakirələr, panellər və nümayişlər üçün mərkəzdir. Burada maraqlı tərəflər innovativ həllərini və iqlim problemlərinin həllinə töhfələrini təqdim etmək imkanı əldə edirlər. Onların ixtiraları, həll yolları və sahibkarlıq ruhu Azərbaycanın evsahibliyi etdiyi COP29-un uğuru üçün çox vacibdir.

# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur

## Makronun Olimpiya rüsvayçılığı

### Fransanın dövlət televiziyasının təxribat planının mətni Yelisey sarayında yazılıb

"Hər kəsə məlumdur ki, Olimpiya Oyunları təkcə idman yarışı deyil, həm də xalqlar arasında münasibətlərin yaxşılaşdırılması üçün bir fürsətdir. Oyunlar müxtəlif millətlərin və mədəniyyətlərin nümayəndələrini bir araya gətirir, sülh, dostluq və həmrəylik ideallarını təbliğ edir, diplomatiya və beynəlxalq əməkdaşlıq üçün mühüm platformaya çevrilir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, Olimpiya Oyunları, həmçinin ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə ideyalarını təbliğ edir. Bu oyunlarda irqi, milli, dini və ya cinsi ayrı-seçkiliyin hər hansı forması qadağandır. Beləliklə, bu yarış təkcə idman tədbiri kimi deyil, həm də sülh və tolerantlığın təbliği platforması kimi çıxış edir. Parisdəki Olimpiya Oyunlarının məqsədi də sülh və dostluq simvolunu təmsil etmək, siyasi və mədəni maneələri aşmaq, dünyanı idman və insan ruhunun bayramında birləşdirməkdir: "Lakin Paris Olimpiya Oyunlarının açılış mərasimi göstərdi ki, tədbirin keçirildiyi ölkə bu sülh, dostluq, həmrəylik və ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə prinsiplərindən uzaqdır. Belə ki, Fransanın "France 2" telekanalının canlı yayımında şərhçilər Azərbaycanla bağlı təxribat xarakterli açıqlamalar verdilər. "Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan Ordusunun əlinə keçməsi ilə nəticələnib", - deyə kanal şərhçiləri deyiblər. Azərbaycanın "Ermənistanla ərazi münaqişəsində olan Qafqaz respublikası" kimi təqdim edilməsi fonunda şərhçi bildirib ki, Ermənistan tarixən fransızların qəlbinə yaxın ölkədir".

Müsahibimiz bildirib ki, Fransa ermənilərə öz sevgisini ənənəvi və ya qeyri-ənənəvi formada sübut etmək hüququna malikdir, amma Olimpiya Oyunlarının açılış mərasiminin canlı yayımında Azərbaycana qarşı təxribatçı və yalanlarla dolu bəyanatlarla deyil. Bu təxribatçı bəyanatlardan məlum oldu ki, fransız televiziya jurnalistləri üçün mətnlər məhz Yelisey sarayında yazılıb. Fransa prezidenti Emmanuel Makronun Azərbaycanın erməni separatizmi üzərində qazandığı tarixi qələbələrə acığı Fransa televiziya kanallarının efirində səsləndirilir. Maraqlıdır, Makron öz şəxsi rüsvayçılığının həddini aşmaq üçün daha hansı alçaqlığa əl ata bilər?!

K.Bayramov xatırladıb ki, bu, Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olub. Bir çox təşkilatlar, o cümlədən də Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsi Paris Olimpiadasında Azərbaycana qarşı təxribatla bağlı bəyanat yayıb və Beynəlxalq Olimpiya Komitəsinə rəsmi etiraz məktubu göndərib. Məktubda qeyd olunub ki, dövlət telekanalının Azərbaycana qarşı bu cür hörmətsiz münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi xahiş edilib. "O da qeyd edilməlidir ki, açılış mərasimi zamanı Olimpiya bayrağının bayraq dirəyinə tərsinə asılması rəmzi məna daşıdı. Təşkilatçılar ilk günlərdən karton çarpayılar, paralon döşəklər, yararsız mebellər, qeyri-kafi qidalanma, şəxsi əşyaların oğurlanması ilə idmançılara hörmətsizlik nümayiş etdirərək Olimpiya prinsipləri ilə bağlı bütün təsəvvürləri alt-üst etdilər.

Olimpiadanın açılış mərasimində tamaşaçılar tərəfindən Emmanuel Makronun fitə basılması isə idmançıların, qonaqların və tamaşaçıların ona münasibətinin zirvə nöqtəsi oldu", - deyə o əlavə edib.

Hələ Olimpiada başlamazdan əvvəl ekspertlərin Fransa hakimiyyətinin bu irimiqyaslı tədbirə hazırlığına şübhə ilə yanaşdıqlarını xatırladan deputat vurğulayıb ki, ümumiyyətlə, Paris Olimpiya Oyunlarına evsahibliyi etməyə hazır deyildi və tədbirin açılış mərasimi bunu açıq şəkildə göstərdi. Makronun Olimpiya rüsvayçılığı bütün çılpaqlığı ilə özünü büruzə verdi. Çətin ki, onun Ermənistana olan sevgisi Parisi bu rüsvayçılıqdan xilas edə bilsin.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Fransa Olimpiya Oyunlarını rəzil siyasətinin alətinə çevirib

**Fransa Prezidenti Emmanuel Makron və onun rəhbərlik etdiyi hökumət hazırda ölkəsində keçirilən Paris-2024 Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi təqdim etsə də, baş verən hadisələr tamamilə bunun əksini deyir. Prezident Emmanuel Makron yarıtmaz siyasəti ilə Fransanı Azərbaycana qarşı düşmən dövlətə çevirib. Təəssüflər olsun ki, bu, özünü Olimpiya Oyunlarının rəsmi açılış mərasimində də açıq şəkildə göstərib. Olimpiya Oyunlarının açılışının canlı yayımı zamanı Fransanın "Fr2" telekanalının efirində azərbaycanlı və erməni idmançıların keçidi anında təxribatçı ifadələr səsləndirilib.**



Açılışdan canlı yayım nümayiş etdirən "France 2" kanalının aparıcısı Ermənistan oyunçuları keçəndə bunları deyib: "Ermənistan, bizim erməni dostlarımız; tarixən fransızların qəlbinə yaxın olan ölkə… Erməni xalqı üçün Dağlıq Qarabağın Azərbaycan Ordusu tərəfindən süqutu ilə ağır bir il oldu…" Azərbaycanın milli olimpiada komandası keçəndə isə aparıcı Azərbaycanı "ərazi məsələsində Ermənistanla toqquşan Qafqaz respublikası" kimi təqdim edib. Bu, Fransa hakimiyyətinin siyasətinin eybəcər şəkildə Olimpiya kimi humanist, barışcıl hərəkata da köçürməsinin açıq-aydın göstəricisidir.

Dünya praktikasında idmanı siyasətə bulaşdırmaq cəhdləri qətiyyən qəbul edilmir. Ona görə ki, idman dağıdıcı deyil, birləşdiricidir, o, sülhə, əmin-amanlığa xidmət edir. Əsrlər boyu idman millətləri və dövlətləri bir-birinə tanıdan, yaxınlaşdıran ən yaxşı vasitə hesab olunub. Amma hazırda özünü "demokratiyanın, söz azdlığının beşiyi" hesab edən, Azərbaycanın beynəlxalaq aləmdə qazandığı uğurları həzm edə bilməyən, Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyə çalışan, bölgəni özünün biabırçı neokolonial təcrübələr meydanına çevirməyə can atan, bu niyyətlə erməni işğalçılarını müasir silahlarla silahlandırmaqda davam edən Makron Fransası bu adi həqiqəti hələ də ya dərk etmir, ya da dərk etmək istəmir.

Olimpiya Oyunlarının tarixinə nəzər salanda görürük ki, bu mühüm tədbirin açılışlarında sülhə, müharibə və münaqişələrə son qoyulmasına çağırışlar edilir. Yəni, olimpizmin əsas idealları həmişə Yer üzünün bütün sakinlərinin dinc yanaşı yaşaması, xalqlar arasında hörmət və qarşılıqlı anlaşma, dinc cəmiyyətin yaradılması, insan ləyaqətinin qorunması, şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafı uğrunda mübarizə olub. Paris isə Olimpiadada bu tarixi ənənələrə məhəl qoymadı, ona arxa çevirdi. Doğrudur, Fransa bütün siyasi dairələrdə İrəvanı dəstəkləyir, daim onun təəssübünü çəkir, qayğısına qalır. Bu, Fransanın öz işidir, bunu ona kimsə qadağan etmir. Amma Parisin Olimpiya hərəkatının humanizm prinsiplərinə zidd gedərək onun ümumbəşəri prinsip və dəyərlərinə əks addımlar atmağa heç bir mənəvi haqqı yoxdur.

Parisin ikrah doğuran bu addımı diqqətlərdən kənarda qalmayıb. Amerikalı politoloq və beynəlxalq münasibətlər sahəsində ekspert Piter Teys bildirib ki, Parisdə Yay Olimpiya Oyunlarının açılış mərasiminin canlı yayımı zamanı Azərbaycan komandasının ünvanına təxribat xarakterli ifadələr işlətdiyi üçün Fransanın müvafiq orqanları tərəfindən "France 2" telekanalına sanksiya tətbiq edilməlidir. O, həmçinin bildirib ki, Parisdə təxribat xarakterli bəyanatlar müasir Avropa sivilizasiyasında yolverilməz olan dəhşətli presedentdir: "Azərbaycan bütün Avropa ölkələri ilə tərəfdaşlıq edir və Parisdəki Olimpiadada Bakıya qarşı bu cür qızışdırıcı bəyanatlar bizi Avropanın orta əsrlər tarixinin ən qaranlıq günlərinə qaytarır". Politoloq onu da vurğulayıb ki, bu cür bəyanatlarla Fransa onsuz da sarsılmış imicini itirir.

Bakı Təşəbbüs Qrupu da Olimpiya Oyunları prinsiplərinin Paris-2024-də pozulmasına dair bəyanat yayıb. Bəyanatda deyilir: "Olimpiya Xartiyasında qeyd edilir ki, Olimpiya hərəkatının məqsədi insan ləyaqətinin qorunmasına xidmət edən dinc bir cəmiyyəti təşviq etmək üçün idmanı bəşəriyyətin harmonik inkişafına yönəltməkdir. Polineziya, Korsika, Melaneziya, Karib və Antil adalar qrupundan olan müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkat nümayəndələrindən əldə edilmiş məlumatlara əsasən, məşğulluq sektorunda və mənzillərin əldə edilməsinə çıxışda ayrı-seçkilik, eləcə də təbii sərvətlərin istismarı və ya məsələn, Fransa hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya halları qeydə alınmışdır".

Azərbaycan Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsi Fransanın "France 2" telekanalında Olimpiya Oyunlarının açılış mərasiminin canlı yayımı zamanı Bakının ünvanına səsləndirilən fikirlərlə bağlı bəyanat yayıb və Beynəlxalq Olimpiya Komitəsinə şikayət edib. Bəyanatda deyilir: "Bu, faktiki olaraq Olimpiya Xartiyasının əsas prinsiplərinin pozulmasıdır. Həmin prinsiplər son illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının bir neçə qətnaməsi ilə, o cümlədən açıq şəkildə "Olimpiya Xartiyasının əsas prinsiplərinin etirafı" ilə tanınıb və dəstəklənib. Xartiyada açıq şəkildə qeyd edilib ki, "BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır".

Qərbi Azərbaycan İcması da Fransanın bu qərəzli hərəkətləri ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, Olimpiadanın açılışı mərasimində milyardlarla insanın heysiyyətinə toxunan rəzalət nümayişlərini də nəzərə alsaq, Fransa tərəfinin rasionallığı tamamilə şübhə altındadır: "Qərbi Azərbaycan İcması 2024-cü il Paris Olimpiadasında Azərbaycana qarşı yol verilmiş təxribatı sərt şəkildə qınayır və Fransadan bu əməllərinə son verməyi tələb edir".

Ümumiyyətlə, müşahidəçilər qeyd edirlər ki, Paris Olimpiadasının açılış mərasimində millətləri və dövlətləri bir-birinə tanıdan, yaxınlaşdıran məqam olmayıb. Bütün bunlarla da Makron Fransası XXXIII Yay Olimpiya Oyunlarını məkrli siyasətinə alət edib. İdmanı da siyasətə bulaşdırıb. Bununla da özünü beynəlxalq aləmdə bir daha biabır edib. Buna görə də Yay Olimpiya Oyunları bu gün haqlı olaraq dünyanın tənqid hədəfinə çevrilib.

Lakin bütün bu xoşagəlməz hallar idmançılarımızın əzmkarlığına, mübarizələrinə mənfi təsir göstərməyəcək. Azərbaycan idmançıları həmişə olduğu kimi, bu dəfə də parlaq çıxışları ilə yadda qalacaqlar. Çünki idmançılarımızın hədəfi Parisi fəth etmək, yarışlarda rəqiblərinə qalib gələrək üçrəngli bayrağımızı dalğalandırıb, himnimizi səsləndirməkdir! İnanırıq ki, Olumpiadada iştirak edən idmançılarımız ölkəmizin şərəfini layiqincə qoruyacaq, qələbələri ilə Azərbaycan xalqını sevindirəcəklər.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

## Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsi Paris Olimpiadasında Azərbaycana qarşı təxribatla bağlı bəyanat yayıb

İyulun 26-da Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimində Fransanın dövlətə məxsus milli televiziyası olan France2 telekanalının müxbiri Azərbaycan və Ermənistan idmançılarının paraddan keçidi zamanı ayrı-seçkilik nümayiş etdirərək Azərbaycanı Ermənistanla toqquşmalarda ittiham edib.

Eyni zamanda Ermənistanı Fransanın dostu adlandırıb və qeyd edib ki, bu il erməni xalqı üçün "Dağlıq Qarabağ"ın Azərbaycan Ordusu tərəfindən süqutu kimi yadda qalıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsinin Paris Olimpiadasında Azərbaycana qarşı təxribatla bağlı bəyanatında bildirilib.

Bəyanatda həmçinin deyilir: "Bu, faktiki olaraq Olimpiya Xartiyasının Əsas Prinsiplərinin pozulmasıdır. Həmin prinsiplər son illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının bir neçə qətnaməsi ilə, o cümlədən açıq şəkildə "Olimpiya Xartiyasının əsas prinsiplərinin etirafı" (A/RES/78/10) ilə tanınıb və dəstəklənib. Xartiyada açıq şəkildə qeyd edilib ki, "BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya Hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır".

Baş vermiş məsələ ilə bağlı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə rəsmi olaraq etiraz məktubu göndərilib. Məktubda qeyd olunub ki, dövlət telekanalının Azərbaycana qarşı bu cür hörmətsiz münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi xahiş edilib".

## Qərbi Azərbaycan İcmasının bəyanatı

"2024-cü il Paris Olimpiadasının açılışı vaxtı Fransanın "France 2" ictimai televiziya kanalının aparıcısı Ermənistanın və Azərbaycanın komandalarını təqdim edərkən, ayrı-seçkilik xarakteri daşıyan, olimpiya dəyərlərinə və beynəlxalq hüquqa zidd siyasi bəyanatlar səsləndirilmişdir. Fransa hökumətinin sifarişi ilə atılması şübhə doğurmayan bu addımla Azərbaycanın ərazi bütövlüyünə xələl gətirilməyə və bölgədə gərginliyi qızışdırmağa cəhd edilmişdir".

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilir.

Bəyanatda həmçinin deyilir: "Olimpiadanın açılışı mərasimində milyardlarla insanın heysiyyətinə toxunan rəzalət nümayişlərini də nəzərə alsaq, Fransa tərəfinin rasionallığı tamamilə şübhə altındadır".

Qərbi Azərbaycan İcması 2024-cü il Paris Olimpiadasında Azərbaycana qarşı yol verilmiş təxribatı sərt şəkildə qınayır və Fransadan bu əməllərinə son verməyi tələb edir".

## Fransanın biabırçılığı

"Olimpiya Oyunları tarixində "Paris 2024" qədər pis təşkil olunmuş, insana, insanlığa və ümumilikdə bəşəri dəyərlərə hörmətsizlik ehtiva edən, idmanı son plana keçirən ikinci nümunə müşahidə olunmayıb. Belə əhəmiyyətli bir tədbirin terroru dövlət siyasətinə çevirmiş, etnik, milli və dini zəmində nifaq, kin, nifrət dili təbliğ edən, dünyada ayırıcı xətləri dərinləşdirən Fransa kimi əliqanlı caniyə həvalə olunması özlüyündə böyük qəbahət və tarixi səhvdir".



Bu sözləri qəzetimizə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, bu günə qədər Olimpiya Oyunlarının keçirildiyi ölkələrdə bir qayda olaraq idman mahiyyəti ilə yanaşı, tədbirə evsahibliyi edən dövlətlər ümumbəşəri dəyərlər naminə Olimpiya platformasından istifadə edərək müxtəlif xoşməramlı çağırışlar edir, oyunları daha təhlükəsiz və dinc dünya naminə fürsətə çevirməyə çalışırlar. Hətta tarixdə Olimpiya Oyunları zamanı müharibələrin dayanması, hərbi əməliyyatlara oyunların gedişi zamanı fasilə verilməsi kimi çox mütərəqqi bir təcrübə mövcuddur. "Olimpiya Oyunlarına faşist Almaniyası evsahibliyi edərkən belə, mümkün qədər bu prinsiplərə riayət olunması istiqamətində müəyyən addımlar atılmışdı. Lakin Fransa göstərdi ki, XXI əsrin əsas imperialist və neokolonialist dövləti olaraq özünün cinayətkar mahiyyətində israrlıdır. Habelə Makron komandası oyunlarda və evsahibliyinin texniki detallarında bir daha açıq formada ifadə etdi ki, işğalçı, təcavüzkar mahiyyətindən əl çəkmək, neokolonialist ideologiyasından geri dönmək niyyətində deyil. Oyunların açılışı zamanı bəşəri dəyərlərin, o cümlədən inancların təhqir olunması Fransada illərdir hökm sürən etnik və dini zəmində nifrət dili təfəkkürünün nəinki hələ də davam etdiyini, üstəlik, artıq dövlətin milli ideoloji siyasətinə çevrildiyini göstərir. Olimpiya platformasının sülh çağırışları naminə istifadə perspektivləri qala-qala, Makron komandasının və fransız ideoloqların nəzarətində olan "azad" medianın, bütün digər resursların işğalçı və təcavüzkar niyyətlər naminə səfərbər olunması onsuz da XXI əsrin müstəmləkəçi dövləti olaraq tanınan Fransa üçün növbəti qara ləkə kimi tarixə düşdü", - deyə o bildirib.

Müsahibimiz vurğulayıb ki, Fransa hökuməti Cənubi Qafqazdakı ardıcıl məğlubiyyətlərinin əvəzini Olimpiya platformasında çıxmağa və Azərbaycana münasibətdə informasiya müharibəsində ciddi həmlə etməyə cəhd göstərib. Fransanın "France 2" kanalında Azərbaycan nümayəndə heyətinin rəsmi keçidi zamanı səslənən absurd fikirlər, o cümlədən dövlətimizin ünvanına çirkin iddialar bir daha göstərir ki, Fransa bütün platformalarda məğlubiyyətini qəbul edərək Olimpiya marafonuna Azərbaycan əleyhinə fəaliyyət üçün özünün sonuncu imkanlarından biri kimi baxır. Fransa ötən dövr ərzində Cənubi Qafqazda münaqişələrin davamlılığına özünün maraqlarının təmini üsulu kimi baxmış, işğal və təcavüzün, o cümlədən separatizmin dayanıqlılığı üçün bütün güc və imkanlarını səfərbər etmişdir. Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində özünün ərazi bütövlüyü və suveren haqlarını tam bərqərar etməsinin ardınca isə əvvəllər "vasitəçi" adı altında pərdələnmiş rəsmi Paris Azərbaycana münasibətdə açıq düşmənçilik siyasətinə start verib.

Deputat qeyd edib ki, Fransa Ermənistanın işğal və təcavüz siyasətinə bütün platformalarda siyasi-iqtisadi dəstək verməklə yanaşı, həm də bu ölkəni təcavüzkar niyyətlər naminə davamlı olaraq silahlandırıb: "Hətta Cənubi Qafqazda tamamilə yeni, təhlükəsizlik üçün unikal imkanın yarandığı bir zamanda belə, Ermənistan Fransa tərəfindən silahlandırılmaqdadır. Habelə Fransa Cənubi Qafqazda özünün çirkin niyyətlərini realizə edə bilmək üçün Şərqi Avropadan Yaxın Şərqə, Orta Asiyadan Kiçik Asiyaya qədər uzanan geniş bir arealda dövriyyədə olan kəşfiyyat şəbəkəsinin mühüm bir istiqamətini Azərbaycana yönəltmişdi. Lakin cənab İlham Əliyevin müzəffər Ali Baş Komandanlığında cəbhədə, o cümlədən diplomatik və informasiya cəbhəsində qazanılan zəfərlərin ardınca ötən ilin dekabrında Fransanın Cənubi Qafqazdakı kəşfiyyat infrastrukturunun da çökdürülməsi faktiki olaraq Makronun Cənubi Qafqaz erasına son qoydu".

B.Məhərrəmov bildirdi ki, Fransanın Azərbaycanın "məsələsi"ni dəfələrlə dünyanın ayrı-ayrı təsisatlarında, o cümlədən Frankofoniya Təşkilatı, Avropa İttifaqı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası kimi ayrı-ayrı təsisatların gündəliyinə çıxarması, hətta BMT Təhlükəsizlik Şurasında ölkəmizə dair sanksiyaları nəzərdə tutan qətnamə layihələrini qəbul etdirmək cəhdləri fonunda Bakının həyata keçirdiyi əks-həmlələr rəsmi Parisin bu səylərini də fiaskoya məhkum edib. Üstəlik, Azərbaycan yalnız müdafiə mövqeyində qalmayıb, Qoşulmama Hərəkatına sədrliyimiz dönəmində Prezident İlham Əliyevin rəhbərliyi altında Fransanın həyata keçirdiyi təcavüzkar mahiyyət, o cümlədən müstəmləkələrində törətdiyi cinayətkar əməllər qlobal miqyasda ifşa edilib, Fransadan neokolonializm siyasətindən imtina etməsi tələb olunub. Azərbaycanın dəstəyi ilə formalaşan Bakı Təşəbbüs Qrupu Fransanın on illərdir istila etdiyi və minimum haqlardan məhrum etdiyi bir çox xalqların, o cümlədən dənizaşırı ərazilərinin sakinləri üçün ümid yerinə çevrilib. Özünün çirkin niyyətləri naminə fəaliyyətlərdən və əsassız hücumlardan əl çəkməyən Fransa bu gün nəticə etibarilə ağır duruma düşüb. Bütün bunların fonunda Fransanın Olimpiya keçid mərasimini özünün siyasi məqsədlərinə alətə çevirməsi bu ölkənin çarəsizliyinin və tükənmişliyinin, o cümlədən siyasi sisteminin çürüməsinin göstəricisi kimi yadda qalacaq.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur

# "Paris-2024"də rəzilliklər davam edir

## Media təmsilçilərinə qarşı qanunsuz hərəkətlər də səngimir

Parisdə Olimpiya yarışları sürətlənir, bəzi idmançılar artıq medal qazanıblar, lakin bir çox azarkeş qalmaqallı açılış mərasimindəki təəssüratlardan hələ də uzaqlaşmayıb.






Təşkilatçılar isə xüsusi bir şey olmamış kimi davranmağa çalışaraq bir müddət fasilə verib və nəhayət, dünən yöndəmsiz bir üzrxahlıq ediblər. Amma heç kim təşkilat komitəsinin peşmançılığının səmimiliyinə inanmır.

2024-cü il Olimpiya Oyunlarının açılış mərasimi bütün dünyada son dərəcə mənfi reaksiyaya səbəb olub. Əcaib tamaşa ən yaxşı halda absurd adlandırılıb, halbuki, "eybəcərlər sirki" ifadəsindən daha çox istifadə olunub. Əslində bunu Olimpiadanın açılış mərasimi deyil, transgender və transvestitlərin paradı adlandırmaq daha düzgün olardı...

Güclü tənqiddən sonra Beynəlxalq Olimpiya Komitəsi (BOK) açılış mərasiminin müəyyən anlarını sosial şəbəkələrdəki rəsmi səhifəsindən silib və 2024-cü il Oyunlarının təşkilat komitəsi tamaşanı bəyənməyən hər kəsdən bir növ üzr istəyib. Olimpiadanın ictimaiyyətlə əlaqələr üzrə direktoru Ann Deşam mətbuat konfransında deyib: "Heç bir dini qrupa qarşı hörmətsizlik nümayiş etdirmək niyyəti yox idi. Biz birliyi və tolerantlığı qeyd etmək istəyirdik. Sorğunun nəticələrini nəzərə alaraq, bu məqsədə nail olunduğuna inanırıq. Əgər insanlar nədənsə inciyiblərsə, o zaman biz əlbəttə ki, üzr istəyirik".

Yəqin ki, təşkilatçılar universal postmodern barədə izahın növbəti dəfə yarayacağına inanaraq, bu qədər güclü mənfi reaksiya gözləmirdilər. Amma nə tamaşa, nə də üzrxahlıq alındı, çünki 2,5 milyard xristianın "hansısa dini qruplar" adlandırıldığı və anlaşılmaz açılış mərasiminin tolerantlıq bayramı kimi səciyyələndirildiyi "üzrxahlığı" ictimaiyyət qəbul etməyib.

Bu arada məlum olub ki, qalmaqallı Paris-2024 Olimpiya Oyunları həm də şübhəli reputasiyası olan idmançılar üçün sığınacağa çevrilib. Özü də cinayətkar keçmişi olan pedofil çimərlik voleybolçusu Fransaya yollanmaq üçün yalnız lisenziya deyil, həm də xüsusi şəraitlə təmin olunub.

Əslində, hollandiyalı voleybolçu Stiven van de Veldenin hekayəsi son vaxtlar dünya idmanında nələrin baş verdiyini bariz şəkildə göstərir. Beynəlxalq Olimpiya Komitəsinin rəsmiləri 12 yaşlı qıza cinsi təcavüzdə təqsirli bilinən idmançının Olimpiadaya gedəcəyinə göz yumublar.

2016-cı ildə Stiven dörd il həbs cəzasına məhkum edilib və bu müddətdən yalnız bir ilini çəkərək əfv edilib. Van de Velde üçün Fransada xüsusi şərait yaradılıb. Buna baxmayaraq, o, yarış zamanı ictimaiyyət qarşısında alçaldılıb. Bununla bağlı BOK-un yaydığı bəyanatda deyilir: "Niderlandın Olimpiya Komitəsi çoxlarının Stiven van de Veldenin keçmişinə yenidən diqqət yetirməsinin təsirinə məruz qalmasından təəssüflənir. Biz Parisdə keçiriləcək oyunlarda iştirak zamanı dostluq mühitinin yaradılması üçün tədbirlər görürük. Van de Velde öz istəyi ilə alternativ mənzildə yaşamaq istəyib və Olimpiadada olduğu müddətdə mətbuatla ünsiyyətdən təcrid ediləcək".

Eyni zamanda BOK prezidenti Tomas Bax belə qalmaqallı keçmişi olan idmançının Olimpiya Oyunlarına buraxılması ilə bağlı məsuliyyəti Hollandiyanın üzərinə ataraq ictimaiyyət qarşısında cavab verməkdən çəkinib: "Bu, Niderland MOK-una aid bir sualdır. Mənim bu məsələdə şəxsi mövqeyim yoxdur, bu, onların qərarıdır və bunu əsaslandırmaq məcburiyyətindədirlər".

İyulun 28-də Stiven van de Velde və onun ortağı Metyu İmmers Eyfel qülləsinin yanında yerləşən çimərlik voleybolu meydançasında ilk oyunlarını keçiriblər və bütün dünya adi insanların Stivenlə necə davrandığını görüb, belə ki, matç başlamazdan əvvəl oyunçuların təqdimat mərasimində tribunalar voleybolçunu uğultu ilə qarşılayıblar və o, alçaldılıb. Oyundan sonra isə hətta holland azarkeşlər də rəqib İtaliya voleybolçularını alqışlayıblar.

Media təmsilçilərinə qarşı isə qanunsuz hərəkətlər səngimir. Bu dəfə Təşkilat Komitəsinin "qurbanları" rusiyalı jurnalistlər olub. Belə ki, TASS informasiya agentliyinin Olimpiadanı işıqlandıran 4 əməkdaşının akkreditasiyasının ləğvinə qərar verilib. Onlardan üçü çap mediasının nümayəndəsi, biri fotomüxbirdir.

Təşkilat Komitəsi bu addımı Fransa rəhbərliyinin qərarı ilə izah edib. Media nümayəndələri "ölkənin daxili təhlükəsizlik kodeksini pozduqları üçün" akkreditasiyadan məhrum olunublar. Əslində isə, onlar açılış mərasimindəki xoşagəlməz hadisələri işıqlandırdıqları üçün Olimpiadadan kənarlaşdırılıblar.

Xatırladaq ki, Oyunların təşkilatçıları yarışdan əvvəl də bir çox media nümayəndələrinə akkreditasiya verməyiblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# *Bakı Təşəbbüs Qrupu:* Olimpiya Oyunları xalqları özünə tabe edən bir ölkədə keçirilə bilərmi?

Bakı Təşəbbüs Qrupu Olimpiya Oyunları prinsiplərinin "Paris-2024"də pozulmasına dair bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:

"Olimpiya Xartiyasında qeyd edilir ki, "Olimpiya hərəkatının məqsədi insan ləyaqətinin qorunmasına xidmət edən dinc bir cəmiyyəti təşviq etmək üçün idmanı bəşəriyyətin harmonik inkişafına yönəltməkdir".

Fransa Respublikasının Prezidenti Emmanuel Makron və onun Hökuməti hazırda Fransada keçirilən "Paris2024" Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi təqdim etsə də, Fransanın kolonial və neokolonial siyasəti bunun əksini deyir.

Polineziya, Korsika, Melaneziya, Karib və Antil adalar qrupundan olan müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkat nümayəndələrindən əldə edilmiş məlumatlara əsasən, məşğulluq sektorunda və mənzillərin əldə edilməsinə çıxışda ayrı-seçkilik, eləcə də təbii sərvətlərin istismarı və ya məsələn, Fransa Hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya halları qeydə alınıb.

Olimpiadanın ruhuna tamamilə zidd olan bir sıra halları diqqətinizə təqdim edirik:

- Müvafiq ərazilərdə fransız monopolistlərinin xeyrinə olan zəif iqtisadi inkişaf strategiyası həyata keçirilir: əhalinin həddindən artıq ərzaq asılılığı (qida məhsullarının 80 faizindən çoxu Fransadan gəlir), həyat səviyyəsinin yüksək qiyməti, yoxsulluq (Fransız Qvianasında əhalinin 50 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır) və hər cür iğtişaşlara (zorakılıq, silah və narkotik ticarəti) səbəb olan kütləvi işsizlik bu ərazilərin gələcəyini ciddi şəkildə təhlükə altına alır;

- 1989-cu il Yerli Xalqlara dair Konvensiyasının (No. 169) ratifikasiya edilməməsi (Fransız Qvianası);

- Artan təhlükə altında olan yerli dilləri arxa plana keçirən və yerli uşaqlara nə yerli tarixləri, nə coğrafiyası, nə mədəniyyətləri, nə də gələcəkləri ilə bağlı istəklərinə uyğun olmayan fransız tədris proqramlarını tətbiq edən fransız mədəniyyətinin hegemonluğunun qurulması və assimilyasiya siyasəti;

- Torpaqların zəbt edilməsi, - (Fransız Qvianası torpaqlarının 90 faizi Fransa dövlətinə məxsusdur), milyonlarla kvadratkilometr müstəsna iqtisadi zonaya (MİZ) nəzarət (Fransa sahəsi 11 milyon kvadratkilometr olan MİZ ilə dünyanın ikinci ən böyük dəniz gücüdür), on illər ərzində Fransadakı yerli xalqların gənclərinin deportasiya siyasəti Qvadelupa və Martinikdə görünməmiş demoqrafik böhrana səbəb oldu və təbii sərvətlərin talan edilməsinə böyük töhfə verdi, - təbii resurslarının talan edilməsi;

- Bütün müqaviməti cinayət hesab edən və korrupsionerləri qoruyan ikisəviyyəli müstəmləkə ədalətinin qurulması (Martinik və Qvadelupada xlordekon zəhərlənməsinə və torpaq oğurluğuna qarşı mübarizə aparan gənclərin həbsi, bu statusu və qeyri-bərabər rəftarı tanımadan siyasi məhbusları mühakimə edən korsikalılar üçün müstəsna yurisdiksiyaların tətbiqi və onların saxlanma şəraiti, Kollektiv Jistiss Matinik Assosiasiyasının prezidenti Cənab Herve Pintonun həbsi);

- Polineziyanın yenidən dekolonizasiya olunacaq ölkələr siyahısına daxil edildikdən sonra boş kreslo siyasəti;

- Yerli əhalinin Olimpiya Oyunlarında həm də öz ölkələrinin bayrağı altında çıxış etmələrindən imtina olunması;

- Müstəmləkəçi Qərb dövlətlərinin, xüsusən Hind-Sakit Okean zonasında (Polineziya, Yeni Kaledoniya), həm də Karib dənizi-Amerika zonasında və Korsikada (Solenzara bazası) müharibə hazırlığına geostrateji hərbi bazalar kimi yerli xalqların iradəsinə zidd olaraq ərazilərdən istifadə edilməsi (Qviana, Martinika, Qvadelupa);

- Numea sazişinin öhdəliyi olan dekolonizasiya prosesinə əməl edilməməsi və beləliklə, qeyri-qanuni referendumun keçirilməsi və seçicilərin genişləndirilməsi nəticəsində kanakların öz torpaqlarında azlıq halına gətirilməsi, eləcə də ölkələrindən və ailələrindən uzaqda olan CCAT (Ərazilərin Koordinasiyası Şəbəkəsi) fəallarının çoxsaylı həbsləri və deportasiyası;

Yuxarıdakıları nəzərə alaraq, ritorik və sadə suallar veririk:

XXI əsrdə "sülh və ümid anı" olan Olimpiya Oyunları xalqları özünə tabe edən bir ölkədə keçirilə bilərmi?

Olimpiya Oyunlarına evsahibliyi edən ölkə Kanakidə azadlığa qoyulan məhdudiyyətləri aradan qaldıra, həmçinin siyasi məhbusları azad edə bilməzdimi? Onların da öz evlərində azyaşlı uşaqları ilə birlikdə bu "sülh anı"nı yaşamaq hüququ var".



# Bakı Təşəbbüs Qrupu heç bir ölkənin daxili işlərinə qarışmır və fəaliyyətini beynəlxalq normalar çərçivəsində qurur

Təəssüf ki, Fransa bir sıra media orqanları kimi, TF1 telekanalı da Azərbaycana, habelə Bakı Təşəbbüs Qrupuna (BTQ) qarşı qərəzli və qeyri-obyektiv reportaj və məqalələr yayaraq izləyiciləri aldatmaqla məşğuldur.



Bu, həm də Fransanın kolonializm siyasətinə haqq qazandırmaq, eləcə də bu ölkədən müstəmləkəçilik siyasətindən əl çəkməyi tələb edən Bakı Təşəbbüs Qrupunun və digər vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətini qaralamağa hesablanıb. Sözügedən videoreportaj xarici müdaxilə bəhanəsi ilə Fransanın müstəmləkə altında saxladığı ərazilərdəki beynəlxalq hüququn və fundamental insan hüquqlarının kobud pozuntularını ört-basdır etmək cəhdidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasovun Fransanın TF1 kanalında efirə getmiş "Xarici müdaxilələr: Azərbaycan Fransada sabitliyi necə pozmağa çalışır" adlı reportaja dair şərhində yer alıb.

A.Abbasov, həmçinin bildirib: "TF1 kanalının redaksiya heyətinə yaxşı bəllidir ki, beynəlxalq qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupu (BTQ) Qoşulmama Hərəkatının 2023-cü ildə Azərbaycanda keçirilmiş nazirlər toplantısı çərçivəsində Fransanın kolonializm siyasətindən əziyyət çəkən xalqların nümayəndələri tərəfindən yaradılıb və təşkilatın İdarə Heyətində məhz Fransa müstəmləkəsindən azad olmağa çalışan xalqların seçdiyi rəsmi şəxslər yer alır.

Əsas missiyası kolonializm və neokolonializm siyasətinin fəsadlarını dünya ictimaiyyətinə çatdırmaq, müstəmləkəçilikdən əziyyət çəkən xalqlara apardıqları ədalətli mübarizədə beynəlxalq hüquq çərçivəsində dəstək göstərilməsindən ibarət olan BTQ-nin bu ay birilliyi qeyd edilir. Bir il müddətin keçməsinə rəğmən, BTQ tərəfindən BMT-nin qərargahlarında (Nyu-York (2 dəfə), Cenevrə və Vyana), habelə dünyanın müxtəlif ölkələrində 10-dan çox beynəlxalq konfrans təşkil edilib, tədbirlərin yekununda iştirakçılar tərəfindən Fransanın dövlət başçısına, beynəlxalq təşkilatların rəhbər şəxslərinə rəsmi Paris tərəfindən törədilən kolonial və neokolonial cinayətlər haqqında məlumatlar təqdim olunub, müvafiq petisiyalara start verilib.

Bu xüsusda, cari ilin mayında Yeni Kaledoniyada baş vermiş iğtişaşlarda BTQ-nin rolunun vurğulanmasının əvəzinə, Fransa hökumətinin yerli kanak xalqının 2021-ci il referendumunun nəticələrinin ləğvi və səsvermə hüququna malik olan şəxslərin sayının qeyri-qanuni, məqsədli şəkildə çoxaldılmasının dayandırılması ilə bağlı yerli xalqın tələblərinə məhəl qoyulmamasına diqqətin cəlb edilməsi yaxşı olardı.

Bizim mübarizəmiz konkret bir ölkəyə və ya hökumətə qarşı deyil, insanları öz müqəddəratını təyinetmə hüququndan və azadlığından məhrum edən müstəmləkə sisteminə qarşıdır. Biz istismar, təzyiq olmadan qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan beynəlxalq münasibətlərin mümkünlüyünə inanırıq.

BTQ-ni 14 min kilometr uzaqda iş aparmaqda ittiham edən Fransa mediası öz hökumətinə sual verə bilər ki, Fransadan 17 min kilometr uzaqda yerləşən bu ərazilərin bu ölkəyə nə aidiyyəti var?

TF1 telekanalının BTQ-nin fəaliyyətinə qarşı qərəzli mövqeyinin kökündə TF1 Qrupun Ara Aprikiyan kimi erməniəsilli şəxslər tərəfindən idarə olunması faktı durur. Qeyd edək ki, jurnalistika etikasını kobud şəkildə pozmağa vərdiş edən fransız mediası bu dəfə də reportaj hazırlayarkən BTQ ilə əlaqə saxlamayıb, mövqeyimizi sorğu etməyib.

BTQ heç bir ölkənin daxili işlərinə qarışmır və fəaliyyətini beynəlxalq normalar çərçivəsində qurur. Təşkilatımız müstəmləkəçilik siyasətindən zərər çəkən xalqların öz azadlıqlarından və hüquqlarından tam istifadə edə biləcəkləri bir dünya naminə mübarizəni bundan sonra da davam etdirəcəkdir".




# XXXIII Paris Yay Olimpiya Oyunları

AZERBAIJAN

# Fransa Azərbaycan bayrağının kölgəsində qaldı

## İlk qızıl medal



*Əvvəli 1-ci səh.*

Həlledici mərhələdə isə rəqib fransalı Joan-Benjamin Qaban idi. Çətin keçən qarşılaşmada rəqibinə ippon fəndi ilə qalib gələn Hidayət Olimpiya çempionu oldu. Bununla da, Hidayət Heydərov bir il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atmış oldu.

Final görüşündən sonra Hidayət Heydərov çempion olduğu üçün özünü çox xoşbəxt hiss etdiyini deyib: "Bütün Azərbaycan xalqına "sağ ol" deyirəm. Biz həmişə qalib gələcəyik. Çünki qalib xalqın övladlarıyıq. Yaşasın Azərbaycan!"

Hidayət Fransa paytaxtında yerli idmançı ilə final qarşılaşmasındakı qələbəsindən də danışıb: "Fransalı rəqibə zalda daha böyük dəstək var idi. Onlar qışqırdıqca, mən də rəqibə qışqırırdım, onu elə qorxudurdum. Fransada himni səsləndirəcəm.

Bir dəfə Monpelyedə Avropa çempionu olmuşam. Çox gözəl şərhlər yazmışdılar. İndi fransalılar yenə Azərbaycan himnini ayaqüstə dinləməli olacaqlar".

Hidayət Heydərov 1997-ci ildə Qazaxıstanın Karaqanda şəhərində dünyaya gəlib. Onun ailəsi əslən Göyçaydandır. Hidayətin üç yaşı olarkən ailəsi Bakıya köçüb. Balaca vaxtlarından aktivliyi ilə seçilən, idmana marağı olan qəhrəmanımız altı yaşında olarkən cüdoya başlayır. Onun ilk müəllimi Tərlan Həsənov olur.

Əzmkarlığı ilə diqqət çəkən Hidayət tezliklə cüdoda uğur qazanmağa başlayır. O, 2008-ci ildə Bakı çempionluğunu, bir il sonra isə Azərbaycan çempionluğunu qazanır. 60 kq çəki dərəcəsində iki dəfə Azərbaycan çempionluğunu əldə edən yeniyetmə idmançının ayağı bundan sonra beynəlxalq arenaya açılır.

2010-cu ildə Tbilisidə keçirilən beynəlxalq turnirdə ikinci yerə çıxan Hidayət növbəti il Ankarada keçirilən Avropa kuboku uğrunda turnirdə birinci yeri tutur. 2012-ci ildə Hidayət yeniyetmələrdən ibarət Azərbaycan yığmasına dəvət alır. Antalyada yeniyetmələrin Avropa kubokunda yarışan Hidayət turniri birinci pillədə başa vurur.

Heydərov sonradan yarışlara 73 kq çəki dərəcəsində qatılır. Hansı ki bu çəkidə Elnur Məmmədli, Rüstəm Orucov kimi idmançılar böyük uğurlar əldə edib, Olimpiya oyunlarında medal qazanıblar. Hidayət hazırda dördqat Avropa çempionudur. O, 2017-ci ildə Varşavada, 2022-ci ildə Sofiyada, 2023-cü ildə Monpelyedə, bu il isə Zaqrebdə bütün rəqiblərini üstələyib. O, qitə birinciliyində iki bürünc, bir gümüş əldə etməyi də bacarıb.





Hidayətin dünya çempionluğu arzusu isə gec reallaşdı. O, bəzən hakim haqsızlığı, bəzən xırda səhvlərdən qızıla çata bilmirdi. Daha əvvəl Bakı, Tokio və Daşkənddə qızıla iddia edən cüdoçu yekunda bürünc medalla kifayətlənib. Bu il isə o, çoxdankı arzusuna çatdı. Avropa və dünya çempionluqlarından əlavə, Heydərov Avropa Oyunlarında, Yay Universiadasında, İslam Həmrəyliyi oyunlarında medal qazanmağa müvəffəq olub.

Abu-Dabidəki dünya çempionatı boyu Hidayət gərgin mübarizədə Kosovo, Braziliya və Almaniya təmsilçiləri üzərində qələbə qazanıb. Finalda isə o, hazırkı Asiya çempionu, yaponiyalı Tatsuki İşihara ilə qarşılaşıb. Əsas vaxtın bitməsinə 40 saniyə qalmış Tatsuki vazari xalı ilə önə keçib. Lakin Hidayət təslim olmayıb. Əzmkarlıq göstərən idmançımız vaxtın bitməsinə 10 saniyə qalmış rəqibini ipponla məğlub edib və Abu-Dabidə Azərbaycan Bayrağını dalğalandırıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Üzgüçümüzün rəqibləri məlum oldu

"Paris-2024"də iştirak edəcək Azərbaycan üzgüçüsü Məryəm Şeyxəlizadəxangahın rəqibləri bəlli olub. Qadınların 50 m məsafəyə sərbəst üsulla üzmə yarışında ümumilikdə 79 idmançı mübarizə aparacaq.

Avqustun 3-də keçiriləcək təsnifat mərhələsinə Bakı vaxtı ilə saat 13:00-da start veriləcək. Məryəm 6-cı qrupda yer alacaq. O, 5-ci zolaqda üzəcək. Olimpiyaçımızın rəqibləri Adaku Nvandu (Nigeriya), Anahira Makkutçeon (Fici), Joselle Mensa (Qana), Apsara Katarina Sakbum (Kamboca), Hana Beiqi (Kosovo), Yelizaveta Peçerskix (Qırğızıstan), Antsa Rabejaona (Madaqaskar) olacaq. İdmançımız həmin gün keçiriləcək yarımfinala adlamaq üçün ümumi sıralamada 16 üzgüçü sırasına düşməlidir. Dünya rekordçusu isveçli Sara Syoestryom 10-cu "səkkizlik"də mübarizə aparacaq.

Qeyd edək ki, bu növdə final mərhələsi avqustun 4-də keçiriləcək.



## Dominqes hədəfi açıqladı

**"Çox çətin döyüş oldu. Bu yarışa çox yaxşı hazırlaşmışdım. Yaxşı məşq keçmişəm". Bunu Azərbaycan boksçusu Alfonso Dominqes deyib.**

"Paris-2024"ün 1/8 finalında Xulio Sesar la Krusu (Kuba) məğlub edən dünya çempionumuz qələbəsini şərh edib: "Bilirəm ki, bütün Azərbaycan məni dəstəkləyir, buna görə də təşəkkürümü bildirirəm. Məşqçilərimə və bütün komanda üzvlərinə dəstəyə görə minnətdaram. Bu son deyil, qarşıda döyüşlər var. Daha da irəli getmək lazımdır. Bu gün mənim günüm idi. Qələbə qazanmağı bacardım. Hər şey qaydasındadır".

Qeyd edək ki, Dominqes 1/4 finalda qazaxıstanlı Aybek Oralbayla üz-üzə gələcək. Döyüş avqustun 1-də keçiriləcək.



## Badmintonçumuz üçün Olimpiada başa çatdı

Paris Yay Olimpiya Oyunlarının badminton yarışları davam edir. Qadınların fərdi mübarizəsində qrup mərhələsinin növbəti oyunları keçirilib.

Azərbaycan idmançısı Keişa Fatimə Zəhra N qrupunda ikinci turun matçına çıxıb. O, böyük britaniyalı Kirsti Gilmorla üz-üzə gəlib. Badmintonçumuz iki qeymdə uduzub. İlk turda da məğlub olan Keişa Olimpiadada çıxışını yekunlaşdırıb.

Qeyd edək ki, yalnız qrup qalibləri 1/8 finala adlayacaq.

## "Ay-ulduzlular"dan möhtəşəm geridönüş

"Ay-ulduzlu"lar qrup mərhələsinin ilk turunda Niderlandla üz-üzə gəlib və əzmkar qələbə qazanıb.

İlk iki setdə uduzan (19:25, 19:25) türklər növbəti setləri qələbə ilə (25:22, 25:22) başa vurublar. Taybrekdə isə Türkiyə millisi rəqibini (15:13) üstələyərək ümumi hesabda 3:2 qələbə qazanıb.

Qeyd edək ki, Türkiyə millisi avqustun 1-də Dominiklə, avqustun 4-də isə İtaliya ilə üz-üzə gələcək.






## Növbəti qurbanlar jurnalistlər oldular

"Paris-2024" Olimpiadasında xoşagəlməz hadisələrin ardı-arası kəsilmir. Təşkilat Komitəsinin növbəti "qurbanları" jurnalistlər olublar. Fransalılar Rusiyanın TASS informasiya agentliyinin 4 əməkdaşının qeydiyyatının ləğvinə qərar verib. Onlardan üçü çap mediasının nümayəndəsi, biri fotomüxbirdir.

Təşkilat Komitəsi bu addımı Fransa rəhbərliyinin qərarı ilə izah edib. Media nümayəndələri ölkənin daxili təhlükəsizlik kodeksini pozduqları üçün akkreditasiyadan məhrum olunublar. Onlar açılış mərasimindəki xoşagəlməz hadisələri işıqlandırdıqları üçün Olimpiadadan kənarlaşdırılıblar.

Qeyd edək ki, təşkilatçılar yarışdan əvvəl də bəzi media nümayəndələrinə akkreditasiya verməməklə Olimpiadaya buraxmayıblar.

## Boksçumuz mübarizəni dayandırdı

Dünən Azərbaycan millisinin daha bir boksçusu yarışa start verib. Yığmamızın açılış mərasimindəki bayraqdarı Məhəmməd Abdullayev +92 kq çəkidə ilk döyüşünü keçirib.

O, 1/8 finalda Nelvi Tiafak (Almaniya) ilə qarşılaşıb. Rəqibinə 0:5 (27:30, 28:29, 28:29, 27:30, 28:29) hesabı ilə uduzan Abdullayev Olimpiadada çıxışını başa vurub.

Qeyd edək ki, boks yığmamız "Paris-2024"ə beş idmançı ilə yollanıb.



# Universitet-sənaye əməkdaşlığı kadr hazırlığının vacib istiqamətidir

**Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır.**

Ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir. Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artmışdır.

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti peşəkar insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil və innovasiyaları təşviq edən münbit şəraitin olması əsas şərtdir. Məhz keyfiyyətli təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə ola bilər.

Strateji dövrdə kompetensiya, vərdiş və bacarıqların harmoniyada inkişafına əsaslanan ali təhsilə xüsusi önəm verilərək insanların yüksəkkeyfiyyətli təhsil alması, kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, beynəlxalq sertifikatlara malik mütəxəssislərin hazırlanması mühüm hədəflərdən olmalıdır. Bu və digər tapşırıqlar dövlət başçısının uzaqgörən siyasəti sayəsində onun tərəfindən 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş və həmin dövrdə yaxın on il üçün əsas prioritetləri müəyyən edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə öz əksini tapmışdır. Bununla yanaşı müvafiq vəzifələr Azərbaycan Respublikası Prezidenti tərəfindən 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da müəyyən edilmişdir. Göründüyü kimi, uzaq və yaxın perspektiv üçün sənayenin və texnologiyanın inkişafı ilə ayaqlaşmaq, peşəkar kadr hazırlığını bu tendensiyaya uyğun həyata keçirmək müasir dövrdə universitetlərin başlıca vəzifələri olmalıdır.

Gəncə şəhərində yerləşən, əsası 1970-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulan Azərbaycan Texnologiya Universiteti (ATU) sadalanan hədəflərə çatmaq üçün öz intibah dövrünü yaşayır desək, yəqin ki, yanılmarıq. Son iki ildə universitetdə görülən işlərin və aparılan islahatların nəticələri bunu deməyə əsas verir.

Xatırladaq ki, Azərbaycan Texnologiya Universiteti sənayenin müxtəlif sahələri üçün yüksəkixtisaslı mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisəsi kimi yaradılmışdır. Məlum olduğu kimi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsi sənaye müəssisələrinin iştirakı olmadan mümkün deyil. Bunu nəzərə alaraq, ATU texnika və texnologiya təmayüllü ali təhsil ocağı kimi universitet-sənaye əlaqələrini son iki ildə olduqca effektiv şəkildə qurub. Bu zaman kəsiyində əldə olunan müxtəlif müqavilələr və memorandumlar 27 ixtisas üzrə kadr hazırlayan ATU-nun hədəfinin böyük zavodlar, müəssisələr və dövlət qurumları ilə əməkdaşlığın gücləndirilməsi olduğunu göstərir. Buna ölkənin aparıcı və nəhəng müəssisələrindən olan "Azəralüminium" MMC-ni misal göstərmək olar.

Müəssisə ilə qurulan əlaqələr universitet-sənaye əməkdaşlığının ən yaxşı nümunələrindən biridir və bu əməkdaşlıq bir çox istiqamətlərdə reallaşdırılır. Belə ki, zavodun ehtiyaclarına uyğun kadr hazırlığını təmin etmək üçün təhsil ocağının "Metallurgiya mühəndisliyi" ixtisasının tədris planına müvafiq fənlər daxil etməklə onun yenilənməsi məqsədilə ATU və "Azəralüminium" tərəfindən birgə işçi qrup yaradılıb. Bununla yanaşı, universitet bu qabaqcıl müəssisə ilə sıx elmi əməkdaşlıq da həyata keçirir. Əməkdaşlıq çərçivəsində "Azəralüminium" müəssisəsinin sifarişinə uyğun olaraq ATU-nun təcrübəli və gənc tədqiqatçıları elmi araşdırmalar aparır və universitet-sənaye əməkdaşlığına öz töhfələrini



verirlər. İllik 54 min ton alüminium istehsalı gücünə malik zavodda ATU-nun Kimya və metallurgiya mühəndisliyi kafedrasının filialı fəaliyyət göstərir, bir sözlə müəssisədə universitetin tədqiqatçıları və tələbələri üçün xüsusi şərait yaradılıb.

Səmərəli əməkdaşlığın göstəricilərindən biri kimi ATU-nun rektoru v.m.i.e. dosent Yaşar Ömərov və "Azəralüminium" MMC-nin direktoru Maksim Cavadov tərəfindən 15 dekabr 2023-cü il tarixində imzalanmış sazişlə ATU-nun istedadlı tələbələri üçün xüsusi təqaüdün təsis edilməsini göstərmək olar. 2024-cü ilin 14 mart tarixində "Azəralüminium" təqaüdü ilk sahiblərinə, texniki və texnoloji ixtisaslarda təhsil alan, yüksək akademik göstəricilərə malik 2 tələbəyə təqdim edilib. Ötən ilin dekabrında əldə edilən digər razılığa uyğun olaraq ölkənin ən iri alüminium ixracatçısı və istehsalçısı olan "Azəralüminium" tərəfindən ATU-da iki ixtisaslaşmış auditoriya qurulub. Müasir tələblərə cavab verən bu auditoriyalar yeni tədris ilində tələbələrin istifadəsinə veriləcək.

Son iki ili universitetin "Nəqliyyat mühəndisliyi" və "Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi" ixtisasları üzrə təhsil alan tələbələr üçün də məhsuldar hesab etmək olar. 140 illik təcrübəsi olan "Azərbaycan Dəmir Yolları" (ADY) QSC ATU ilə sıx əməkdaşlıq edir və sözügedən ixtisasların keyfiyyətinin yüksəldilməsinə töhfə verir. 2022-ci ilin sentyabrında ADY-nin bir qrup rəhbər heyət ilə ATU-nun rektoru v.m.i.e. dosent Yaşar Ömərov arasında ilk görüş keçirilib. Həmin görüşdə əldə edilən razılıq əsasında hər iki ixtisas üzrə bakalavriat və magistratura səviyyələrində tədris planlarına dəmir yolu sahəsi ilə bağlı müvafiq dəyişikliklər edilərək yeni fənlər əlavə edilib. Ötən ilin avqustunda ADY öz rəsmi sosial şəbəkə hesablarında abituriyentlər üçün çağırışlar və elanlar edib. Xüsusi vurğulanmalıdır ki, son illərdə universitetin həmin ixtisasları üzrə plan yerləri demək olar ki, tam dolur.



Universitet sifarişlər əsasında ixtisaslaşmış təlimlər də həyata keçirir. Belə ki, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) ilə əməkdaşlıq çərçivəsində qərb bölgəsində taksi sürücüləri üçün təlimlər Azərbaycan Texnologiya Universitetində təşkil olunur. Bu proses 2023-cü ilin sentyabrından start götürüb və bu günədək 400-dən çox müdavim taksi sürücüləri üçün təlim kursunu uğurla bitirərək müvafiq sertifikat əldə edib. Gələcəkdə həmin təlimlərin daha da genişləndirilməsi nəzərdə tutulur.

Universitet sənaye ilə əməkdaşlıq əlaqələri qurduqda bütün ixtisasları əhatə etməyə səy göstərir, xidmət sektoru da diqqətdən kənarda qalmır. Məsələn, "Turizm bələdçiliyi", "Turizm işinin təşkili" ixtisasları üzrə kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə dünyaşöhrətli kurort şəhərinə çevrilən Naftalanın 5 ulduzlu otelləri ilə əməkdaşlığa başlanılıb. Bu ilin yanvarında rektor v.m.i.e. dosent Yaşar Ömərovla "Garabagh Resort & Spa Naftalan Hotel"in direktoru Safi Orhan Kutluay, "Chinar Hotel & Spa Naftalan"ın direktoru Murat Gözütok, "Gashalti Health Hotel Naftalan"ın direktoru Rəşad Veyisov arasında 3 memorandum imzalanıb. ATU tələbələrinin dünyanın 65-ə yaxın ölkəsindən qonaqlar qəbul edən və ən müasir standartlara cavab verən Qarabağ, Çinar və Qaşaltı hotellərində təcrübə keçməsi kadr hazırlığının daha yüksək səviyyədə aparılmasına imkan verəcəkdir.



ATU-nun ölkənin aparıcı bankları ilə olan mövcud aktiv əməkdaşlığını da qeyd etmək yerinə düşərdi. Ölkənin ən böyük filial şəbəkəsinə malik olan Kapital Bankın maliyyə dəstəyi ilə universitetin İqtisadiyyat və idarəetmə fakültəsində "Kapital Bank Auditoriyası" qurularaq ötən ilin oktyabrında tələbələrin istifadəsinə verilib. 28 nəfərlik bu innovativ tədris otağı PAŞA Holding-ə daxil olan, 117 filialı və 31 şöbəsi ilə müştərilərin xidmətində olan Kapital Bankın konseptinə uyğun dizaynda təmir edilərək, ağıllı lövhə, müvafiq sayda noutbuk və digər zəruri ofis avadanlıqları ilə də tam təchiz edilib. Bununla yanaşı, ölkənin digər iri bankı olan Azərbaycan Beynəlxalq Bankı (ABB) ilə əməkdaşlığa da start verilib. Aktivlərinin həcminə, müştəri bazasına və beynəlxalq əməliyyat portfelinə görə hazırda Cənubi Qafqaz regionunun ən aparıcı banklarından biri hesab edilən ABB ilə yeni qurulmuş əməkdaşlıq çərçivəsində bankın bir neçə rəhbər şəxsi cari ilin 24 may tarixində universitet tələbələri üçün fərdi və karyera inkişafına yönəlmiş bir sıra mövzularda seminarlar təşkil ediblər. Yaxın gələcəkdə həmin bankla əməkdaşlığın genişləndirilməsi planlaşdırılır.



Bildiyimiz kimi qida sektoru ölkə iqtisadiyyatının əsas hissələrindən birini təşkil edir və Azərbaycan Texnologiya Universiteti də ölkədə bu sahədə baza universitetlərdən biri hesab olunur. Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2019-cu il tarixli 1143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"na, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 3 may 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında şərabçılığın inkişaf etdirilməsinə dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"na əsaslanan universitetin son iki ildə sənaye müəssisələri ilə əldə etdiyi memorandumlar siyahısında qida istehsalı, kənd təsərrüfatı, qablaşdırma və logistika sənayesi sektorunda ölkənin 30-dan artıq aparıcı şirkətini birləşdirən "Azersun" Holdinq, Cənubi Qafqazın ən böyük və ən müasir şirə və şərab istehsalçılarından olan "AzGranata" MMC, çörək və un məmulatlarının istehsalı üzrə ixtisaslaşan "ATS Food" MMC, alman texnologiyası əsasında fəaliyyət göstərən "N1" Çörək Zavodu, Cənubi Qafqazın ən inkişaf etmiş konserv zavodu olan Qəbələ Konserv zavodu uzun müddətdir ki Azərbaycan iqtisadiyyatına yeni investisiyalar qoyan, sosial, ekoloji və iqtisadi cəhətdən dayanıqlılığa kompleks yanaşma tətbiq edən "Azərbaycan Coca-Cola Bottlers" MMC, ölkənin şərabçılıq sənayesi üzrə aparıcı müəssisələri olan "Şirvan şərabları" MMC, "Aspi Winery" Üzüm Emalı Zavodu, "Şəki Şərab" zavodu, 8 fabrikdən ibarət olmaqla Cənubi Qafqaz regionunda vertikal inteqrasiya sistemi ilə qurulmuş yeganə yüngül sənaye müəssisəsi olan GİLTEX MMC, "Qalaksi" şirkətini və s. görə bilərik.

Yuxarıda qeyd olunan şirkətlərdən biri olan "ATS Food" şirkəti, "Azəralüminium" MMC-dən sonra, universitetlə əməkdaşlıq edən ikinci şirkətdir ki, ali məktəbin istedadlı tələbələrinə xüsusi təqaüdün təsis edilməsi qərarını vermişdir. Həmin şirkət 2024-cü ilin fevralından başlayaraq ATU-nun "qida mühəndisliyi", "şərabçılıq" və "ekologiya mühəndisliyi" ixtisaslarında təhsil alan tələbələri üçün xüsusi təqaüdün verilməsinə başlamışdır.

Ümumiyyətlə, ATU tədqiqat, inkişaf və innovasiya sahələrində nəticə yönümlülüyün artırılması, biliyin istehsalı, ötürülməsi və istifadəsi mühitini institusional əsaslarla yaxşılaşdırmaq üçün effektiv kanalları formalaşdıracaq idarəetməni təmin etməyə çalışır. Bunun üçün ali təhsil ocağı son 2 ildə bir sıra dövlət qurumları ilə də əməkdaşlıq memorandumları imzalayıb. Universitetlə aktiv əməkdaşlıq edən dövlət qurumlarına Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyini, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyini, Dövlət Məşğulluq Agentliyini, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyini (İRİA), Azərbaycan Dəmir Yollarını, Təhsilin İnkişafı Fondunu (TİF), Gəncə Regional Turizm İdarəsini və s. misal göstərmək olar. İRİA-nın vasitəçiliyi ilə ötən ilin avqustunda ATU və "Huawei Technologies" şirkəti arasında memorandum imzalanıb. Telekommunikasiya sahəsində əmək bazarının tələblərinə uyğun kadrların hazırlanması məqsədilə hazırda 2.2 milyon abunəçiyə xidmət göstərən, ölkənin lider operatorlarından olan "Nar mobile" ilə əldə edilən əməkdaşlığı da xüsusi qeyd etmək lazımdır. Belə ki, cari ilin fevralında ATU-nun və "Nar"ın rəhbərləri arasında imzalanan memoranduma əsasən, "Nar"ın peşəkar texniki heyəti öz nəzəri və praktiki biliklərini universitetin tələbələri ilə bölüşəcək, tələbələr isə "Nar"ın ixtisaslarına uyğun departamentlərində təcrübə keçərək gələcək karyeraları üçün əvəzsiz üstünlük əldə edəcəklər.

Universitet-sənaye əməkdaşlığı tələbələr üçün istehsalat təcrübəsinin təşkilində xüsusi yer tutur. Belə ki, 2024-cü ildə bağlanmış müqavilələrə əsasən, 628 tələbə üçün 42 müəssisə və təşkilatda istehsalat təcrübəsi təşkil olunub. Həmin müəssisələrə 1 və 2 saylı Gəncə "Asan xidmət" mərkəzlərini, ADY-ni, AYNA-nın Gəncə Regional bölməsini, "AzerGold" QSC-ni, "Azəralüminium", Gəncə Cihazqayırma zavodu, Qəbələ Konserv zavodu, AzGranata, Göygöl Şərab Zavodu, Gəncə Şərab 2, Şirvan Şərabları, Qərb Ulduzu kimi müəssisələri, Gəncə Tekstil, Gəncə Dəyirman, Neon fabriklərini, 10 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsini, Regional Turizm İdarəsini, Telekommunikasiya İdarələrini, Kəpəz Televiziyasını, qabaqcıl bankların filiallarını, sığorta şirkətlərini, tanınmış hotelləri və s. misal göstərə bilərik.

Göründüyü kimi, universitet əlaqələrini kortəbii şəkildə qurmur. Qabaqcıl şirkətlərlə rəhbərlik səviyyəsində görüşlər keçirilir, tələbələrin və akademik heyətin səfərləri təşkil edilir, əməkdaşlığın optimal variantları üzərində iş aparılır, elm və tədrisin inkişafına real töhfələr verəcək memorandumlar imzalanır və həmin memorandumlardan irəli gələn öhdəliklər aktiv şəkildə icra edilir. Bir sözlə, perspektiv üçün nəzərdə tutulan yeniliklər kağız üzərində qalmır, əlaqələrin təməli daha məhsuldar nəticələr verməsi istiqamətində qurulur.

Adları çəkilən dövlət qurumları, sənaye müəssisələri və şirkətlərlə elm, tədris, istehsalat təcrübəsi sahəsində aktiv əməkdaşlıq universitetin təşkil etdiyi beynəlxalq konfranslarda, forumlarda, innovasiya müsabiqələrində də diqqətdən qaçırılmır. Tərəfdaş və təşkilati dəstəkçi qismində universitetdə keçirilən tədbirlərdə iştirak edən həmin şirkət və müəssisələr, eyni zamanda öz mütəxəssislərinin yerli və xarici alimlərlə elmi platformada görüşməsinə zəmin yaradırlar.

Qarşıda ATU-nu onun 2024/2030-cu illəri əhatə edən Strateji İnkişaf Planına (SİP) uyğun olaraq daha mühüm vəzifələr gözləyir. SİP-ə uyğun olaraq təhsilin müasirləşdirilməsi ilə bağlı əməkdaşlıqları daha da genişləndirmək, özəl və dövlət müəssisələri ilə iş birliyini təkmilləşdirmək, istehsalat təcrübələrinin səmərəliliyinin və keyfiyyətinin daha da yüksəldilməsini təmin etmək elmi-texniki inkişafda bilik və bacarıqların sərhədlərini genişləndirərək sənaye və cəmiyyət üçün innovativ, rəqabətədavamlı və peşəkar mütəxəssislər hazırlamaq öhdəliyi var.

Dövlət başçısının və dövlətin siyasətinə, eləcə də regionların inkişafı və təhsil sahəsinə aid olan bütün sərəncamlarına əsaslanan, ölkədə zamanın çağırışlarına uyğun ali təhsil müəssisəsinə çevrilmək devizi ilə son iki ildə inamla irəliləyən, 3600 tələbə kontingentinə malik bölgə universitetinə bu yolda uğur diləyir, yeni nailiyyətlər arzulayırıq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# İsveçrə səfiri Azərbaycanda qadınların səlahiyyətlərinin gücləndirilməsi ilə bağlı görülən işlər barədə məlumatlandırılıb

İyulun 29-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova İsveçrənin Azərbaycandakı səfiri Tomas Ştəli ilə görüşüb.



Komitədən AZƏRTAC-a verilən məlumata görə, görüşdə B.Muradova İsveçrə ilə ikitərəfli münasibətlərin qarşılıqlı maraqlara, dostluğa və əməkdaşlığa əsaslandığını qeyd edib.

Dövlət Komitəsinin qadınların iqtisadi səlahiyyətləndirilməsi istiqamətində beynəlxalq təşkilatlarla əməkdaşlığından bəhs edən Bahar Muradova Qadın Resurs mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirib. O, resurs mərkəzlərinin fəaliyyətinin dayanıqlılığının təmin olunmasının əhəmiyyətini qeyd edərək, İsveçrənin bu layihələrdə iştirakının iki ölkə arasındakı əməkdaşlığın da inkişafına təkan verdiyini diqqətə çatdırıb. Xüsusən də işğaldan azad olunmuş ərazilərdə oxşar layihələrin davam etdirilməsi və qadınlarla müvafiq işin aparılmasının vacibliyi vurğulanıb.

Səfir Tomas Ştəli qarşılıqlı əlaqələrin bundan sonra da səmərəli şəkildə inkişaf edəcəyinə inamını bildirib. Gender bərabərliyi və qadınların səlahiyyətlərinin gücləndirilməsi ilə bağlı səylərin davam etdirilməsinin səfirliyin fəaliyyət istiqamətlərindən biri olduğunu bildirən, Dövlət Komitəsinin bu sahədə fəaliyyətini müsbət qiymətləndirən diplomat səfir deyib ki, onlar birgə əməkdaşlığa açıqdırlar.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb, mümkün əməkdaşlıq imkanları və fəaliyyət perspektivləri müzakirə edilib.

# "MEDİA Könüllü"lərinə təşəkkürnamələr təqdim edilib

İyulun 20-22-də "Yalan Məlumatların İfşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən 2-ci Şuşa Qlobal Media Forumunun təşkilində fəal iştirak edən bir qrup "MEDİA Könüllü"sü təşəkkürnaməyə layiq görülüb.



Bu barədə AZƏRTAC-a Medianın İnkişafı Agentliyindən (MEDİA) məlumat verilib.

MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov Forumun uğurla keçirilməsində könüllülərin əhəmiyyətli rolu olduğunu deyib. O, forum müddətində böyük əzm və iradə ilə çalışan könüllülərin işini yüksək qiymətləndirib, onlara peşə və karyera inkişafı ilə bağlı tövsiyələr verib, gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Könüllülər isə forumla bağlı təəssüratlarını bölüşüb, gördükləri işlər barədə məlumat veriblər. Sonda "MEDİA Könüllü"lərinə təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, 50 ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun iştirak etdiyi 2-ci Şuşa Qlobal Media Forumunda iştirakçılar üçün müxtəlif beynəlxalq layihələrin təqdimatı, sərgilər, mədəni tədbirlər baş tutub, çoxsaylı əməkdaşlıq müqavilələri imzalanıb.

# Muzeydə Neft Daşlarını əks etdirən fotoalbom qorunur

Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda "Azərbaycan SSR-də dəniz neft yataqlarının kompleks işlənməsi" adlı fotoalbom qorunur.

Muzeydən AZƏRTAC-a bildirilib ki, albomda Neft Daşlarının fəaliyyətinə dair fotoşəkillər yer alır. Fotoşəkillər arasında suyun səthində qurulan ilk buruqları, özüllər üzərində salınan estakadaları, ardınca tikilən fəhlə şəhərciyini, istehsalat binalarını, nəhəng neftçıxarma mədəni ilə əlaqə saxlamaq üçün istifadə edilən gəmiləri və onların heyətini görmək mümkündür.






# BMT-nin İnkişaf Koordinasiya Ofisinin regional direktoru ilə görüş keçirilib



Birləşmiş Millətlər Təşkilatının İnkişaf Koordinasiya Ofisinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru xanım Qvi Yeop Son ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

# İştirakçılar COP29 sədrliyinin şəffaf və bitərəf vasitəçi kimi rolunu təqdir ediblər

COP29-un gündəliyində dayanan əsas məsələlərin müzakirəsi məqsədilə Şamaxıda nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində qeyri-formal məsləhətləşmələr keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Elmi və Texnoloji Məşvərət üzrə nəzarət qurumunun sədri, UNFCCC Katibliyinin təmsilçiləri və ekspertləri, Banqladeş və Barbadosun iqlim məsələlərinə məsul nazirləri, habelə ümumilikdə 40-dan artıq olmaqla, beynəlxalq danışıq qruplarına sədrliyi həyata keçirən, eləcə də iqlim danışıqlarında fəallıq nümayiş etdirən ölkələr iştirak edib.

Açılış nitqi ilə çıxış edən COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Paris Sazişinin bütün sütunları üzrə tərəqqiyə nail olunmasında COP29 sədrliyinin qətiyyətindən söz açaraq şəffaf və məqsədyönlü danışıqların əhəmiyyətinə diqqət çəkib, cari iqlim danışıqlarında fikir ayrılığının mövcud olduğu sahələr üzrə tərəfləri konstruktivlik nümayiş etdirməyə çağırıb.

COP29-da iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) qəbulunun Paris Sazişi üçün sınaq testi olacağını vurğulayan Yalçın Rəfiyev danışıqlarda irəliləyişə nail olmaq baxımından COP29 sədrliyi tərəfindən prosesin siyasi müstəviyə qaldırıldığını, COP29-a qədərki sessiyalararası dövrdə Azərbaycan tərəfinin nazirlər, nümayəndə heyətlərinin rəhbərləri və ekspertlər səviyyəsində dialoqun aparılmasını təşviq etməyə davam edəcəyini, tərəflərlə aparılan dialoqa əlavə töhfə verilməsi məqsədilə "nazirlər cütlüyü"nün (Misir və Danimarka) müəyyən edildiyini diqqətə çatdırıb. Baş danışıqçı NCQG üzrə hazırkı mətnin daha da təkmilləşdirilməsinin vacibliyinə toxunaraq tərəfləri səylərini artırmağa çağırıb.

COP29 baş danışıqçısı Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsinin COP sədrliyimizin ikinci əsas prioriteti olduğunu qeyd edərək fikir ayrılıqlarının mövcud olduğu məsələlərdə dövlətlər və beynəlxalq danışıqlar qrupları tərəfindən konstruktivlik nümayiş etdirilməsinin vacibliyini vurğulayıb.

Çıxışda COP28-in yekun sənədinin həyata keçirilməsi, adaptasiya və mitiqasiya məsələləri üzrə açıq qalan məsələlərin yekunlaşdırılmasının əhəmiyyətinə diqqət çəkilib.

Məsləhətləşmələrdə hazırda iqlim gündəliyində əhəmiyyətli yer tutan və Tərəflər və beynəlxalq ictimaiyyətin COP29-dan əsas gözləntiləri olan məsələlər - iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG), Paris Sazişinin 6-cı maddəsi, adaptasiya və mitiqasiya mövzularında plenar və qruplar şəklində müzakirələr aparılır.

Tədbirin yekun, bağlanış mərhələsinə COP29-un müəyyən olunmuş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev də qatılıb. O, çıxışında Şamaxı məsləhətləşmələrində iştirak edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Elmi və Texnoloji Məşvərət üzrə nəzarət qurumunun sədrinə, UNFCCC Katibliyinin təmsilçiləri və ekspertlərinə, habelə Banqladeş və Barbadosun iqlim məsələləri üzrə nazirlərinə və beynəlxalq danışıq qruplarına sədrliyi həyata keçirən digər ölkələrin nümayəndələrinə COP29-un hazırlıq sessiyalararası keçirilən bu cür görüşləri təqdir etmələrinə və COP29 sədrliyinin təşəbbüs və səylərini dəstəklədiklərinə görə təşəkkürünü bildirib, irəliləyiş üçün tərəflərin həmrəylik və müsbət impuls nümayiş etdirmələrindən məmnunluğunu ifadə edib.

Tədbir zamanı çıxış edən müxtəlif qonaqlar, o cümlədən UNFCCC-nin Elmi və Texnoloji Məşvərət üzrə nəzarət qurumunun sədri Harri Vreuls, eləcə də UNFCCC Katibliyinin maliyyə məsələləri üzrə baş direktoru Danielle Violette, Banqladeşin ətraf mühit, meşə və iqlim dəyişikliyi naziri Çouduri Saber Huseyn, Barbadosun davamlı inkişaf, nəticələr üçün öhdəlik və mədəniyyət naziri Munro Şantal Maksin danışıqlarda irəliləyişin əldə edilməsi baxımından səylərin artırılmasına diqqət çəkib, tərəflər arasında dialoqun aparılması baxımından Şamaxıda keçirilən qeyri-formal məsləhətləşmələrin faydalı olacağını qeyd ediblər.

İştirakçılar COP29 sədrliyinin şəffaf və bitərəf vasitəçi kimi rolunu təqdir ediblər.



# COP29 könüllülər üçün mühüm platformadır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünyada olduqca əhəmiyyətli bir tədbir hesab olunur. Təbiətin, ətraf mühitin qorunması, yaşıllıqların salınması, biomüxtəliflik, "yaşıl enerji" və sair prioritet sahələr COP29-un əsas mövzularıdır. Bu beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi bütün avantajları ilə bərabər gənclər üçün də geniş imkanlar yaradır. Həmçinin gənclər arasında beynəlxalq miqyasda birgə təşəbbüs və əməkdaşlığın vacibliyindən xəbər verir.**

Bu gün iqlim dəyişikliyi ilə mübarizədə təkcə hökumətlər və böyük şirkətlər deyil, həm də gənclər fəallıq nümayiş etdirirlər. Odur ki, COP29 konfransının Azərbaycanda keçirilməsi gənc fəallar və liderlər üçün qlobal iqlim siyasətinə töhfə vermək üçün mühüm platformadır. Gənclərin belə qlobal tədbirdə fəal iştirak etməsinin böyük önəmi var. Onlar iqlim dəyişikliyi ilə mübarizədə müasir texnologiya və innovasiyaları təqdim etmək potensialına malikdirlər. Gənclər COP-a yaradıcı yanaşmaqla ənənəvi metodlardan kənara çıxaraq, daha effektiv strategiyaların hazırlanmasına kömək edə bilərlər. Beləliklə də, səslərinin eşidilməsi və qlobal iqlim siyasətlərinə inteqrasiya etmək üçün mükəmməl fürsət qazanmış olarlar. Bunlar COP29-un keçiriləcəyi günlərdə baş verəcək işlərin anonsudur. Bu gün isə qlobal tədbirə hazırlıqlar vüsət alıb. Hazırlıqlar çərçivəsində gənclərin, xüsusilə də könüllülərin fəallığı qabarıq hiss olunur. Onlar tapşırılan işləri, həll edə biləcəkləri məsələləri sevə-sevə yerinə yetirirlər.

Qeyd edək ki, hələ may ayında könüllülərin iştirakını təmin etmək üçün qeydiyyat prosesinə start verilmişdi. Konfransın təşkilati işləri ilə bağlı zəruri əməliyyatların icrası məqsədilə COP29 Azərbaycan Əməliyyat Şirkətinin fəaliyyəti çərçivəsində həm yerli, həm də xarici vətəndaşların, ümumilikdə isə minlərlə könüllünün prosesə cəlb olunması gözlənilirdi. Beləliklə, COP29-a öz töhfəsini vermək, eləcə də təcrübə, işgüzar vərdiş və fərdi inkişafa yiyələnmək niyyətində olan könüllü gənclər layihəyə rahat və koordinasiyalı şəkildə qoşulmağa başladılar. Bir ay ərzində platformaya müraciət edən 16 min gəncin arasından yaşı ən azı 16 olan, habelə bilik və bacarıqlara, motivasiyaya, xarici dil bilgilərinə və bu kimi müxtəlif meyarlara sahib 3000 könüllü seçilib təlimlərə cəlb edildi. Onu da bildirək ki, daha öncə ölkəmizdə keçirilən müxtəlif irimiqyaslı tədbirlərdə könüllülük proqramının iştirakçısı olmuş gənclər hazırda COP29-un peşəkar komandasının üzvləridir. Onların ötən illər ərzində ölkəmizin evsahibliyi etdiyi irimiqyaslı tədbirlərin icrasında olduğu kimi, qlobaləhəmiyyətli COP29-un təşkilində də mühüm rol oynayacağına heç bir şübhə yoxdur.

Bəs gənclər nə üçün könüllü olurlar? Onlar başqalarına kömək etmək və cəmiyyətə fayda vermək, öz bacarıqlarını yeni ortamda göstərmək, yeni dostlar taparaq əlaqələr qurmaq və özünə dəyər hissini inkişaf etdirmək üçün bu addımı atırlar. Deməli, əslində, dildə sadə səslənən "könüllü" sözü özündə bir sıra dərin mənaları ehtiva edir. Azərbaycanda könüllülük fəaliyyətinin inkişaf mərhələsində təkanverici rolu 2009-cu ildə Milli Məclisin qəbul etdiyi "Könüllü fəaliyyət haqqında" qanun təşkil edib. 10 maddədən ibarət bu geniş və əsaslı qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) yanında aktiv və konstant könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı (AKT) yaradıldı. Təsadüfi deyil ki, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilmişdi.

Tarixə nəzər salanda könüllülük prinsipinin ölkəmiz üçün heç də yeni bir termin, yeni bir yanaşma olmadığını görürük. İstər 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində, istərsə də ondan sonrakı SSRİ dövründə azərbaycanlılar könüllülük prinsipini yaymağa başlayıblar. SSRİ dövründə minlərlə Azərbaycan oğlu könüllü olaraq müharibəyə gedib, döyüşlərdə iştirak edib, şücaət göstərib və qəhrəmancasına həlak olub. Ön və arxa cəbhələrdə formalaşan briqadalarda könüllü iştirak edən, bu işə həvəslə, eyni zamanda var gücü ilə yanaşanların sayəsində insanlar faşizm üzərində qələbə sevincini yaşayıblar. Müasir Azərbaycanda isə könüllülük sahəsində real inkişaf Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Elə buna görə də könüllülük hərəkatının nəzərəçarpacaq yüksəlişi məhz Ümummilli Liderimizin adı ilə bağlıdır. Belə ki, dahi Öndərin idarəçiliyinin ilk illərindən başlayaraq, hərtərəfli və davamlı inkişaf məqsədilə dövlət və özəl sektorlar, vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanıldı. Bu prosesə insanları könüllü şəkildə cəlb etməyə, onların sahə təcrübəsindən yararlanmağa mühüm önəm verildi.

Könüllülər bu gün ölkəmizin güclü dövlətə çevrilməsində, insanların rifahının getdikcə yaxşılaşmasında mühüm rol oynayırlar. 2012-ci ildə 1 saylı "ASAN kommunal" mərkəzinin açılışında Prezident İlham Əliyev könüllülərin "ASAN xidmət"dəki rolunu yüksək qiymətləndirmişdi: "Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq: "könüllülər hərəkatı nədir?" - onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar. Hazırda bütün bu mərkəzlərdə 700-dən çox könüllü fəaliyyət göstərir". Bir sözlə, könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edib və ümummilli hərəkat kimi özünü doğruldub.

Gizli deyil ki, hazırda könüllülük gənclərimizin həyat tərzinə çevrilib. Azərbaycanda könüllülər hərəkatının geniş intişar tapmasında və cəmiyyətdə daha çox oturuşmasında könüllülərin "ASAN" xidmət sahəsinə nüfuz etməsi, burada fəaliyyət göstərməsi, vətəndaşlarımıza dəstək, dayaq olması olub.

Ölkəmizin evsahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il I Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər mötəbər, irimiqyaslı tədbirlərə on minlərlə könüllü cəlb olundu. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda təcrübəli könüllü bazası formalaşdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdə isə könüllülərin fəaliyyəti insanı duyğulandırır. 44 gündə könüllülər, ümumilikdə gənclər ön cəbhədə döyüşməklə yanaşı, informasiya savaşında düşmən yalanlarının ifşa edilməsində və arxa cəbhədə müharibədən zərər çəkənlərə qayğı göstərilməsində fəal iştirak etdilər.

Gələk COP29-un könüllülük prinsipinin əsaslarına. Proqramın əsas məqsədləri dayanıqlılıq səfirləri kimi çıxış edəcək könüllülərin unikal bacarıqlarının real həllərin dəstəklənməsinə yönəldilməsi, əməkdaşlıq mədəniyyətinin təşviqi üçün hər səsin eşidildiyi, hər töhfənin qiymətləndirildiyi inklüziv mühit təmin edilməsidir. Bu məqsədlə seçim və təlimlər prosesi zamanı yüksək motivasiyalı və müştərək öhdəliklə bir araya gələn gənclərdən ibarət komanda formalaşdırılır ki, bu da tədbirin fəaliyyət göstərdiyi günlərdə olduqca gərəkli olacaq. Təlimlər könüllülərin İqlim konfransına hazırlıq mərhələsində hərtərəfli məlumatlandırılmaları və səriştələrinin artırılmasına xidmət edir. Bu baxımdan COP29 Könüllülük proqramı ölkənin gələcək kadr potensialının formalaşmasında əhəmiyyətli rol oynayır. Könüllülərin müasir tələblərə cavab verən fərqli sahələrdə işləmək bacarıqlarının inkişaf etdirilməsində COP29 Könüllülük proqramı xüsusi əhəmiyyət kəsb edir. Proqram çərçivəsində komanda ruhunun təşviqi, kollektivdə işləmək və ünsiyyət bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müxtəlif tədbirlərin təşkili də nəzərdə tutulmuşdur.

Azərbaycan könüllüləri ölkəmizdə keçirilən bütün beynəlxalq tədbirlərdə, ölkə xaricində və daxilində həyata keçirilən sosial, mədəni, ictimai-siyasi layihələrdə yaxından iştirak edir. Könüllülərimizin dünyanın digər ölkələrində fəaliyyət göstərən könüllülərindən heç də geridə qalmaması, əksinə, bir qədər də irəli getməsi göz önündədir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



# Meksika mətbuatı Azərbaycanın evsahibliyi edəcəyi COP29 tədbirindən bəhs edib

Meksikanın tanınmış "Milenio" qəzetində ölkənin nüfuzlu ali təhsil ocaqlarından olan Meksika Milli Muxtar Universitetinin professoru Talya İşcanın müəllifliyi ilə ölkəmizin evsahibliyi edəcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dair məqalə dərc edilib.

Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, müəllif məqaləsində COP29-un bu ilin noyabrında Bakıda keçiriləcəyini xatırladaraq, bu xüsusda cari ilin iqlim dəyişikliyi ilə qlobal mübarizədə mühüm mərhələ kimi qeyd olunduğunu diqqətə çatdırıb. Avropa və Asiyanın kəsişməsində yerləşən ölkəmizin davamlılığa və azkarbonlu iqtisadiyyata keçidə güclü sadiqlik nümayiş etdirdiyini vurğulayıb.

İnklüzivliyi və multikulturalizmi ilə tanınan, Qoşulmama Hərəkatına sədrlik edən və beynəlxalq arenada bir çox məsələlərdə fəallıq göstərən Azərbaycanın bugünkü dəyişkən və təlatümlü dünyada iqlim dəyişikliyi kimi eksiztensial çağırışın öhdəsindən gəlmək istiqamətində irəli addım atmasının və beynəlxalq ictimaiyyətin böyük dəstəyini əldə etməsinin sevindirici hal olduğunu bildirib.



MILENIO

COP29 crucial: primer foro global para la administración de Sheinbaum

El año 2024 marca un hito importante en la lucha global contra el cambio climático, ya que la conferencia de las Naciones Unidas sobre el cambio climático se llevará a cabo este noviembre en Bakú, Azerbaiyán.

Este evento, conocido como COP29, es crucial para continuar los esfuerzos globales para mitigar el cambio climático y adaptarse a sus efectos.

Azerbaiyán, una nación situada en la encrucijada de Europa y Asia, ha demostrado un compromiso firme con la sostenibilidad y la transición hacia una economía baja en carbono.

En este mundo hoy tan volátil y turbulento, el tema del cambio climático es crucial para la supervivencia de la civilización. El mundo necesita unirse en torno a este asunto existencial.

Məqaləsində Azərbaycanın neft sənayesində birinciliyindən söz açan müəllif bu kimi ölkələrin iqlim dəyişikliyi probleminə ciddi yanaşmasının ümid yaratdığını deyib. O, ölkəmizin davamlılıq sahəsində mühüm irəliləyişlər əldə etdiyini, bərpaolunan enerjiyə, xüsusən də günəş və külək enerjisinə sərmayə qoyduğunu və "fossil" yanacaqlardan asılılığını azaltmaq üçün müvafiq qərarlar qəbul etdiyini, strateji yerləşməsi və mühüm təbii ehtiyatları ilə təmiz enerji sahəsində regional lider kimi yüksəldiyini diqqətə çatdırıb.

Müəllif Xəzər dənizinin külək enerjisi potensialının təxminən 157 GVt həcmində olduğunu, ölkəmizin bərpaolunan enerji mənbələri və texniki imkanları baxımından böyük potensiala malik ölkələrdən biri kimi seçildiyini, bu yaxınlarda günəş (Qaradağ, Şəfəq) və külək (Xızı-Abşeron) stansiyalarının tikildiyini, eləcə də əlavə külək və su-elektrik stansiyaları layihələrinin reallaşdırıldığını xatırladıb.

Bu təşəbbüslərin 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpaolunan enerji üzrə qoyuluş gücü payının ən azı 30 faizə çatdırılması strategiyasının bir hissəsi kimi ölkəmizin bərpaolunan elektrik enerjisi istehsalı potensialını genişləndirmək öhdəliyini əks etdirdiyini vurğulayıb.

Məqaləsində iqlim dəyişikliyi mövzusunda Meksikanın mövqeyinə toxunan müəllif ölkənin yeni seçilmiş prezidenti, ətraf mühit mövzularında fəal Klaudiya Şeynbaumun rəhbərliyi altında ölkənin iqlim dəyişikliyinə dair güclü öhdəliyə mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb. Müəllif beynəlxalq arenada mühüm aktor və G20-nin üzvü kimi Meksikanın Azərbaycanla yaxşı ikitərəfli münasibətlərini nəzərə alaraq bu mühüm məsələyə sadiqliyini və fəal iştirakını nümayiş etdirə biləcəyini, hər iki ölkənin iqlim dəyişikliyinə uyğunlaşma və bərpaolunan enerjiyə keçiddə oxşar problemlərlə üzləşdiyini bildirib.

Müəllif habelə məqaləsində, inkişaf etmiş ölkələrin iqlim dəyişikliyi təsirlərinin azaldılması və uyğunlaşma strategiyalarını həyata keçirə bilmələri üçün inkişaf etməkdə olan ölkələrə adekvat maliyyələşdirmə yardımının etməsinin vacibliyindən söz açıb. Meksikanın iqlim dəyişikliyinin nəticələrindən əhəmiyyətli dərəcədə əziyyət çəkdiyini xatırladaraq Meksika və digər inkişaf etməkdə olan ölkələrin COP29-da müzakirə olunacaq iqlim maliyyələşdirməsindən faydalana bilmə imkanından danışıb.

Bu maliyyələşmənin "yaşıl infrastruktur" layihələri, bərpaolunan enerji və iqlimə davamlılıq proqramları üçün çox vacib olduğunu, COP29-un gündəliyinə iqlim maliyyələşdirilməsi mexanizmləri, Paris Sazişinin icrası və istixana qazları emissiyalarının azaldılması naminə beynəlxalq əməkdaşlıq üzrə müzakirələrin daxil olacağını, habelə iqlim ədaləti, həssas icmaların dayanıqlılığı və iqlim dəyişikliyi ilə mübarizə üçün texnoloji yeniliklər kimi mövzulara toxunulacağının gözlənildiyini deyib.

Sonda Meksika Azərbaycan münasibətlərinə toxunan müəllif iki ölkə arasında münasibətlərin möhkəmləndiyini, təhsil, mədəniyyət və xüsusilə, ətraf mühitin mühafizəsi kimi sahələrdə ortaq maraqları bölüşdüyünü bildirib. Davamlılıq layihələri üzrə əməkdaşlığın bilik və "yaşıl texnologiya"ların mübadiləsi baxımından hər iki ölkəyə fayda verə biləcəyini qeyd edib.

Ölkəmizdə keçiriləcək COP29-un ölkələr üçün öz iqlim mövzusuna sadiqliyini gücləndirmək və innovativ həllər üzərində əməkdaşlıq etmək üçün əvəzolunmaz fürsət olduğunu bildirən müəllif K.Şeynbaumun rəhbərliyi ilə Meksikanın ətraf mühitə sadiqliyini bir daha təsdiqləmək və yeni beynəlxalq əməkdaşlıq imkanlarını araşdırmaq üçün bu konfransın platforma olacağını vurğulayıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

"Əsrin müqaviləsi"-30

# "Çıraq"dan hasilata başlanması AÇG-nin ilk qələbəsi idi

## Prezident İlham ƏLİYEV: "Bu cür nəhəng yataqdan neft çıxarmaq cəmi üç il ərzində tarixdə olmayıb"

**"Əsrin müqaviləsi"nin ilk nefti "Çıraq" platformasından əldə edildi. Bu münasibətlə 1997-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyev Xəzərin Azərbaycan sektorunda, "Azəri-Çıraq-Günəşli" (AÇG) müqavilə sahəsində quraşdırılmış həmin platformaya gəldi. Burada AÇG layihəsində tərəfdaş olan şirkətlərin rəhbərliyi, xarici ölkələrdən gəlmiş nüfuzlu qonaqların iştirakı ilə təntənəli tədbir keçirildi.**



"Çıraq"dan ilk neftin alınması sıradan bir qurğunun fəaliyyətə başlaması anlamından böyük məna daşıyırdı. Əvvəla, "Çıraq" AÇG "ailə"sinin ilkini idi. Bu platformadan neft alınması ilə çətin sınaqlardan keçmiş, "Əsrin müqaviləsi" adını almış möhtəşəm bir layihənin gerçəkliyə çevrildiyi təsdiq olundu. Bu, müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiyasının ilk böyük qələbəsi idi. Bununla təkcə neft sənayemizin deyil, ümumiyyətlə, ölkəmizin tarixinə önəmli bir səhifə yazıldı.

Ümumiyyətlə isə, neft-qaz hasilatı ilə məşğul olan istənilən ölkədə hər bir karbohidrogen yatağından hasilata başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır və mühüm hadisə sayılır. "Çıraq"dan ilkin neftin çıxarılması isə həmin vaxt iqtisadi durumu çox zəif olan ölkəmizin dirçəlişinə və böyük gələcəyinə hesablanmış strategiyanın birinci və uğurlu nəticəsi idi.

Bu il iyulun 20-də II Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev həmin hadisənin əhəmiyyətini bir daha vurğulayaraq demişdir: "Əgər dünya neft kontraktlarının tarixçəsinə nəzər yetirsəniz görərsiniz ki, belə qısa müddət ərzində bu cür nəhəng neft yatağından neft çıxarmaq cəmi üç il ərzində tarixdə olmayıb. 1994-cü ilin sentyabr ayında müqavilə imzalandı, 3-4 aydan sonra parlamentdə ratifikasiya edildi, qanun kimi qüvvəyə mindi və 1997-ci ilin noyabr ayında "Çıraq-1" platformasından ilk neft çıxarıldı. Ondan iki il sonra Bakı-Supsa kəməri tikildi, daha sonra Ulu Öndər öz əlləri ilə Bakı-Tbilisi-Ceyhanın təməlini qoydu. Yəni bütün bunlar o vaxt da, bu gün də bizim gördüyümüz işlərin nə qədər uzunmüddətli olduğunu bir daha göstərir. Təsəvvür edin, əgər o vaxt bu müqavilə imzalanmasaydı, yaxud ondan iki il keçməmiş "Şahdəniz" üzrə müqavilə imzalanmasaydı, bu gün həm biz, həm də bizim qazımızdan bəhrələnən, ondan öz enerji təhlükəsizliyində istifadə edən ölkələr hansı çətinliklərlə üzləşəcəkdilər? Yəni o, qlobal təfəkkürün və müdrikliyin təzahürü idi".

Vurğulayaq ki, ilk neft təkcə platformadan birinci quyunu qazıb neft almaq demək deyildi. Bundan əvvəl vacib olan genişmiqyaslı işlər görülmüşdü. Belə ki, həmin işlər köhnə "Çıraq-1" platformasının əsaslı təmirini, əslində, təzədən tikilməsini, Xəzərin sahilində Səngəçal və Qara dənizin sahilində Supsa terminallarının yaradılmasını, hasil olunan nefti quruya çıxarmaq üçün sualtı boru xətlərinin çəkilməsini əhatə etmişdi. Başqa sözlə, "Əsrin müqaviləsi" imzalanandan cəmi üç il sonra həmin saziş çərçivəsində hasilata başlanması dünyada misli görünməmiş nailiyyət, neftin çıxarılması və nəqli üçün belə geniş infrastrukturun yaradılması əsl rekord idi.

Xatırladaq ki, "Çıraq" platforması Xəzərdə, Bakı şəhərindən 120 kilometr şərqdə yerləşir. Onun dayaqları suyun 120 metr dərinliyində qərar tutub. Platformanın qurğularından quyuların qazılmasına 1997-ci ilin avqustunda başlanıb. Həmin ilin noyabrından, yəni ilk neftin əldə olunmasından bəri "Çıraq", təmir və profilaktika üçün ayrılmış qısa fasilələri çıxmaqla, ahəngdar işləyir.



"Çıraq"dan neft 24 düymlük sualtı kəmərlə Səngəçal terminalına nəql edilir. Bu xəttin uzunluğu 154 kilometrdir. Terminalda neft tərkibində gələn sudan təmizlənib çənlərə vurulur, sonra ixrac marşrutu ilə yola salınır. Yataqdan çıxarılan səmt qazı uzunluğu 50 kilometr olan 16 düymlük sualtı kəmərlə Neft Daşlarındakı kompressor stansiyasına ötürülür.

"Çıraq" neft platforması olmaqla yanaşı, həm də böyük uğurlar üçün platforma - özül oldu. Belə ki, ondan sonra Xəzərdə, AÇG müqavilə sahəsində daha səkkiz platforma quraşdırıldı. Onlardan dördü "Azəri" yatağında, ikisi "Dərinsulu Günəşli"də, biri "Qərbi Çıraq"da yerləşir. Bu ilin aprel ayında Xəzərdə "Çıraq"ın daha bir "qonşu"su məskən saldı. AÇG üzrə 2050-ci ilin əvvəlinə qədər uzadılmış saziş çərçivəsində "Azəri Mərkəzi Şərqi" (ACE) adlanan platforma hasilata başladı. Bu qurğuların hamısının inşasında və istismarında "Çıraq"ın təcrübəsindən geniş istifadə edilib.

AÇG-də yeni daha böyük və daha müasir platformalar istirmara verilənədək, yəni 2005-ci ilədək "Çıraq" bu yataqlar blokunda yeganə hasilat və ixrac mənbəyi olub. Başqa sözlə, "Çıraq" ilkin olaraq 7 illik istismar üçün planlaşdırılmışdı. Lakin peşəkar işçi heyətinin əla iş icrası, yüksək ixtisas bilikləri, texnoloji bacarıqları və qətiyyəti sayəsində bu qurğu hələ də AÇG layihəsinin yeni platformaları ilə yanaşı, əməyin təhlükəsizliyi üzrə beynəlxalq standartlara uyğun, həmçinin yüksək əməliyyat səmərəliliyi ilə istismardadır. "Çıraq"a aid bir önəmli fakt isə odur ki, bu gün platformada çalışan işçilərin hamısı dünyasəviyyəli yerli mütəxəssislərdir.

Xatırladaq ki, AÇG layihəsində iştirak payları belədir: BP (həm də operatordur) - 30,37 faiz, SOCAR -25 faiz, MOL -9,57 faiz, İNPEKS - 9,31 faiz, "Ekvinor" -7,27 faiz, "EksonMobil" - 6,79 faiz, TPAO - 5,73 faiz, İTOÇU - 3,65 faiz, ONGCVideş - 2,31 faiz.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Əmək, məşğulluq, sosial müdafiə sahələrində islahatlar təqdir olunur

Azərbaycanda əmək və məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatlara beynəlxalq səviyyədə də yüksək qiymət verilir. Bunun göstəricisi olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumları bu ilin 6 ayı ərzində daha 50 beynəlxalq mükafat və sertifikatla təltif olunub.




Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, o cümlədən Dövlət Sosial Müdafiə Fondunda aparılan islahatlarla bağlı 17, sosial sahədə rəqəmsal nailiyyətlərlə bağlı 11, DOST Konsepsiyası ilə bağlı 4, Dövlət Məşğulluq Agentliyində aparılan islahatlarla bağlı 1 beynəlxalq mükafat və sertifikat əldə olunub. Həmçinin Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə 9, Sosial Xidmətlər Agentliyinə 3, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyaya 5 beynəlxalq İSO sertifikatı təqdim olunub.

Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsində isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu il də 1-ci yerə layiq görülüb.

# Orta dəhliz üzrə yükdaşımaların həcmi 65 faiz artıb

2024-cü ilin ilk altı ayında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə yükdaşımaların həcmi 65 faiz artaraq 2,1 milyon tona çatıb.



AZƏRTAC bu barədə Qazaxıstan Baş nazirinin Mətbuat xidmətinə istinadla xəbər verir. Mətbuat xidmətindən verilən məlumata görə, 2024-2028-ci illər üçün dəniz infrastrukturunun inkişafına dair kompleks plan qəbul edilib. Sənəd Aktau və Kurık limanları əsasında böyük dəniz nəqliyyatı və logistika klasterinin yaradılmasını nəzərdə tutur.

Bu, konteyner tutumunun artırılmasına, yükdaşıma terminallarının və beynəlxalq nəqliyyat logistikasının inkişafına, inzibati maneələrin azaldılmasına imkan verəcək.

Kurık və Bakı dəniz limanları vasitəsilə Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan marşrutu üzrə Çindən Avropaya ilk sınaq tranzit avtomobil daşımalarının təşkili mühüm hadisə olub.

Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Xəzər dənizindən keçməklə Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələrini birləşdirir.

# Türkiyədən Azərbaycana iribuynuzlu mal-qara üçün genetik materialın ikinci partiyası tədarük edilib

Türkiyədən Azərbaycana iribuynuzlu mal-qara üçün genetik materialın ikinci partiyası tədarük edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri İbrahim Yumaklı bildirib.

Nazirin sözlərinə görə, genetik materialın tədarükü Türkiyənin Aqrar Təsərrüfatlar üzrə Baş idarəsi tərəfindən həyata keçirilib. O xatırladıb ki, azərbaycanlı heyvandarlar üçün bu materialın 7200 doza həcmində ilk partiyası 2023-cü ildə göndərilib.

Türkiyəli nazir deyib: "Bu məsələ Türkiyə və dost ölkələrimiz üçün ərzaq təhlükəsizliyi əhəmiyyətini daşıyır. Onun tədarükü sayəsində Azərbaycandakı heyvandarlar yüksəkkeyfiyyətli genetik material əldə edirlər ki, bu da məhsuldarlığı daha da artıracaq. Biz Türkiyənin aqrar sahədə əldə etdiyi təcrübəni və bilikləri bölüşməyə hazırıq".

Nazir bildirib ki, fermer təsərrüfatlarında genetik öküz materialının stimullaşdırılması Türkiyənin 2024-2028-ci illərdə heyvandarlığın inkişafı üzrə dövlət proqramının prioritetlərindən biridir. Onun sözlərinə görə, təkcə "Sultansuyu" müəssisəsində 1 milyon dozaya yaxın öküz toxumu istehsal olunur və dondurulur.

# Qazaxıstan Azərbaycana tədarük edəcəyi buğdanın həcmini artırmağı planlaşdırır

**Qazaxıstan ümumilikdə Azərbaycana 1 milyon tondan çox taxıl göndərib. AZƏRTAC Qazaxıstanın Kənd Təsərrüfatı Nazirliyinə istinadla xəbər verir ki, bunu Bakıda Qazaxıstanın Ərzaq Korporasiyasının İdarə Heyətinin sədri Asılxan Cumaşev deyib.**

O qeyd edib ki, ölkəsi Azərbaycana iri həcmdə taxıl buğdası göndərməyə hazırdır.

"Biz hazırda Qazaxıstan buğdası ilə Azərbaycan bazarında yenidən rəqabətədavamlı olmaq və əvvəlki mövqelərimizə qayıtmaq üçün mexanizmlər üzərində işləyirik", - deyə o, kənd təsərrüfatı forumunda deyib.

Asılxan Cuvaşev qeyd edib ki, aydın strukturlaşdırılmış və uğurla fəaliyyət göstərən buğdasaxlama və marketinq sistemi Azərbaycana məhsulu səmərəli tədarük etməyə imkan verir: "Xüsusən də, Hövsan limanında yerləşən Bakı taxıl terminalı ildə 600 min tona yaxın taxılyükləmə qabiliyyətinə malikdir, dəyirman kompleksi isə ildə 50 min tona qədər məhsul emal etmək gücünə malikdir. Terminal fasiləsiz işləyir və yüksəkkeyfiyyətli xidmətlərə zəmanət verən avtomatlaşdırılmış prosesə nəzarət sistemi ilə təchiz olunub".

# Bu ilin birinci yarısında dövlət büdcəsinə özəlləşdirmədən 75 milyon manat daxil olub

## Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 24 faiz çoxdur

Ölkəmizdə vətəndaşların öz mal-mülk, torpaq, nəqliyyat vasitələri və digər əmlaklarını özəlləşdirmələri üçün qanun çərçivəsində bütün imkanlar mövcuddur.

Bu proses Ümummilli Lider Heydər Əliyev tərəfindən 16 may 2000-ci ildə imzalanan "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və həmin il dekabrın 23-də qüvvəyə minmiş "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə Prezident Fərmanı ilə tənzimlənir. 13 dekabr 2021-ci ildə isə Prezident İlham Əliyevin "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" fərmanı qanunvericilik aktlarını daha da təkmilləşdirdi və günün tələblərinə uyğunlaşdırdı.

Ötən il ərzində İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi, xidmətlərin elektronlaşdırılması, şəffaflığın daha da artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətlərində də tədbirlər davam etdirilib. 2023-cü ildə dövlət xidmətləri üzrə vətəndaşlardan, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərdən, bələdiyyələrdən, dövlət qurumlarından xidmətə 1,2 milyon elektron müraciət daxil olub. Ümumilikdə isə, bu müddətdə daxil olan müraciətlərin sayı 3 milyona yaxındır. Hesabat dövrü ərzində 903 dövlət əmlakı özəlləşdirilib. İnvestisiya proqramının icrası davam edən özəlləşdirilmiş müəssisələr də daxil olmaqla, investisiya müsabiqələri vasitəsilə özəlləşdirilmiş müəssisələrə 10,4 milyon manata yaxın investisiya qoyulub, dövlət büdcəsinə 12,2 milyon manat ödənilib və həmin müəssisələrdə 221 yeni iş yeri yaradılıb. Özəlləşdirilmədən dövlət büdcəsinə 115,9 milyon manat daxil olub, büdcə proqnozunun icrası 105,4 faiz təmin edilib.



Azərbaycan Prezidentinin "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" 7 oktyabr 2021-ci il tarixli fərmanına uyğun olaraq, 45 min 589 ailəyə çıxarış verilib. Dövlət başçısının "Azərbaycan Respublikasının ərazisində baş vermiş təbii fəlakətlərin, texnogen qəzaların və hərbi əməliyyatların nəticələrinin aradan qaldırılması ilə əlaqədar dövlət vəsaiti hesabına inşa edilmiş yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzilləri üzərində hüquqların rəsmiləşdirilməsi, habelə onların yerləşdiyi torpaq sahələri ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" 7 aprel 2022-ci il tarixli fərmanının icrası istiqamətində də işlər aparılır. Belə ki, artıq 2684 daşınmaz əmlak üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınıb. Dövlət başçısının "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 14 iyun 2023-cü il tarixli fərmanının icrası davam etdirilir.

Ümumilikdə 2023-cü ildə 477 mindən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınıb ki, bu da 2022-ci illə müqayisədə 25 faiz çoxdur.

İşğaldan azad edilmiş ərazilərdə görülmüş işlər də ürəkaçandır. Ötən il ərzində 419 min hektar ərazidə yerquruluşu işləri, 452 min hektar ərazidə çöl-torpaq tədqiqatları, 212 min hektar ərazidə çöl geobotaniki tədqiqatları aparılıb.

Cari ilin birinci yarısında da bu sahədə bir sıra işlər həyata keçirilib. Dövlət Xidmətindən bildirilir ki, yanvar-iyun müddətində 29 hərrac keçirilib. 4 səhmdar cəmiyyətin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 412 nəqliyyat vasitəsi satılıb. İlk 6 ay ərzində hərraca çıxarılmış dövlət əmlakı üzrə 305 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 38 onlayn qoşulma reallaşıb. Hesabat dövrü ərzində investisiya müsabiqəsi vasitəsilə "Bakı Alüminium Profil" MMC özəlləşdirilib. Bununla yanaşı, "Bakı Mərmər Qranit" MMC-nin özəlləşdirilməsinə dair investisiya müsabiqəsi elan edilib. Hazırda komissiya tərəfindən müsabiqə təkliflərinin qiymətləndirilməsi aparılır.

Yarım ildə özəlləşdirmədən dövlət büdcəsinə 75 milyon manat vəsait daxil olub, ötən ilin eyni dövrü ilə müqayisədə 24 faiz artım qeydə alınıb.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 28 mart (Cümə günü) tarixli 145-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Bununla bərabər ümidvar oluram ki, Ermənistan hökuməti Azərbaycan hökuməti ilə mehriban münasibat saxlamaq arzusu ilə tezliklə mənim hökumətimin ədalətli tələbatına əməl edər. Hökumətinizin bu barədə olan qərarını mənə xəbər vermənizi xahiş edirəm.*

*Kamali-ehtiramla siyasi nümayəndə:*
*M[əhəmməd] xan Təkinski"*

## GƏNCƏDƏ RƏSMİ-KEÇİD

Martın 23-də Novruz bayramının ikinci günü hökumət və Parlaman əzalarından [üzvlərindən] bir qrup təşkil edilib, xüsusi trenlə Gəncəyə rəvanə oldular ki, orada bunların hüzurunda Azərbaycan qoşunlarının bayram münasibətilə rəsmi-keçidi vaqe olacaqdı. Gedənlər bunlar idi: Rəisi-vükəla Fətəli xan Xoyski, Maarif naziri Nəsib bəy Yusifbəyli, Daxiliyyə naziri Xəlil bəy Xasməmmədov, Post və Teleqraf naziri Aslan bəy Səfikürdski həzrətləri ilə Xariciyyə naziri müavini Ədil xan Ziyadxan, Ümuri-Xeyriyyə naziri müavini Rüstəm xan Xoyski, Türüq və Məabir naziri müavini Yusif xan Məhəmmədbəyov həzrətləri və Azərbaycan Hökuməti Baş katibi Talıb bəy Məhəmmədov cənabları; bədəhu [sonra] "Müsavat" fraksiyası rəisi, Parlaman əzası Məhəmməd Əmin bəy Rəsulzadə, Sosialistlər İttifaqı fraksiyası rəisi, Divani-rəyasət əzası Əhməd bəy Pepinov, Müdafieyi-milliyyə komisyonu üzvlərindən Parlaman üzvü Camo bəy Hacınski və Parlaman əzasından Ağa Əminov və Məhəmmədbağır Şeyxzamanov həzrətləri ilə "Azərbaycan" qəzetəsi müdiri Üzeyir bəy Hacıbəyov və Kırım türkləri nümayəndələrindən [Ədhəm] Feyzi əfəndi cənabları idilər.

Tren yola düşərkən Türüq və Məabir naziri Xudadad bəy Məlikaslanov həzrətləri ilə bərabər dəmiryol baş məmurları Teymur bəy Məlikaslanov, Ələsgər bəy Bəylərbəyov cənabları ilə bərabər sair sahib-mənsəblər [vəzifəli şəxslər] dəxi Bakı vağzalında hazır olub treni yola saldılar. Treni Gəncəyə qədər müşayiət edənlər içində Türüq və Məabir naziri müavinindən əlavə dəmiryol istifadə müdiri Tolstonoqov ilə bərabər, dəmiryol mühafizə müdiri Xanbaba bəy Sədrəddinbəyov dəxi mövcud idilər. Tren axşam saat 8 radələrində Gəncəyə tərəf yola düşdü.

Yevlax istasyonunda Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov həzrətləri öz xüsusi sifariş məmurları Səməd bəy Cəmillinski cənabları ilə bərabər dəxi gedənlərə qoşuldular. Həmin istasyonda Gəncə qubernatoru İbrahim ağa Vəkilov həzrətləri gələnlərin qabağına çıxıb Gəncəyə qədər müşayiət eylədi.

Tren səhər saat 9-da Gəncə istasyonuna varid oldu [çatdı]. İstasyon bayraqlarla müzəyyən edilib [bəzədilib], hər bir millətdən camaat ilə dolu idi. Hərbiyyə naziri general Səməd bəy Mehmandarov həzrətləri ilə bərabər müavini general Əliağa Şıxlı, Gəncə qubernatoru müavini Hüseyinqulu xan Xoyski, Bələdiyyə rəisi Ələsgər bəy Xasməmmədov, Bələdiyyə İdarəsi əzalarından [üzvlərindən] Cahangir bəy Əliyev, Fərəc bəy Baxşəlibəyov, S. Ter-İsrailyan, müddəiyi-ümumi [prokuror] Nəsrəddin bəy Səfi-kürdski, mahal camaatının rəisi və ağsaqqalları, başlarında qəza qaimməqamı [qəza rəisi] Mikayıl bəy İsrafilbəyov cənabları olmaq üzrə pişvaza çıxıb, xoş gəldin rəsmini əda etdilər [mərasimini yerinə yetirdilər]. Rəisi-vükəla trendən çıxarkən bir dəstə qoşun taqımı səfbəsteyi-ehtiram ilə durub [ehtiramla sıraya düzülüb] əsgəri salam verdilər. Məhəlli [yerli] mühafizə rəisi Abbasəli Həmzəyev cənabları dəxi rapor[t] təqdim etdilər.

Bədəhu [ondan sonra], gələnlər və pişvaz edənlər avtomobil və faytonlara minib şəhərə tərəf rəvanə oldular. Bunların dalınca bir dəstə atlı taqımı çapa-çapa gedirdilər. Şəhərə girilən yerdə alaqapı qurulub, şəhər küçələri milli bayraqlarla təzyin edilmişdi [bəzədilmişdi]. Tamam küçə və bazar, evlər və hətta evlərin damları dəxi camaatla dolu idi. Hər tərəfdə zurna və musiqi vurulurdu.

Gələnlər küçələrdən keçib Topçu meydanına tərəf yönəldilər. Meydan miyanında [ortasında] Parlaman sədri Həsən bəy Ağayev, Parlaman əzalarından Abuzər bəy Rzayev, Musa bəy Rəfiyev, Nəriman bəy Nərimanbəyov, məhkəmə rəisi Ələkbər bəy Xasməmmədov və Krım sabiq hökumət rəisi general [Süleyman bəy] Sulkeviç həzrətləri dəxi gələnlərlə görüşüb, birlikdə olaraq meydana daxil oldular. Meydanın hər tərəfi böyük bir izdihamla divar misalı əhatə olunub, içində rəsmi-keçidə hazır olan qoşun taqımları səf-səf kamali-nizam və intizamla durmuşdular.

Rəisi-vüzəra [Baş nazir] meydana daxil olarkən "Hazır ol!" komandası verilib, bütün qoşun əhli salama durdular. Rəis həzrətləri qoşun taqımlarını salamlayıb bədəhu meydanın ortasında dayandılar və dua oxunmağa başlandı. Ordu axundlarından Şahtaxtlı Molla Əhməd cənabları "Quran"dan bir surə oxudu. Molla Yaqub Baratzadə cənabları isə bir nitq irad edib [nitq söyləyib], xeyir-dua verdi. Dua əsnasında Ruhani Mədrəsəsi müdiri Pişnamazzadə cənabları dəxi isbati-vücut [iştirak] etməkdə idilər.

Bədəhu [sonra] rəsmi-keçid başlandı. Rəsmi [mərasimi] idarə edənlər Hərbiyyə naziri müavini general Əliağa Şıxlinski ilə bərabər ərkani-hərb [qərargah] rəisi general Həbib bəy Səlimov həzrətləri idilər. Komanda edən isə general İbrahim ağa Yusifov həzrətləri idi ki, gözəl bir at üstündə oturub əlində üryan qılınc olaraq nərəli bir səda ilə öz dilimizdə komandalar verirdi. Əsgəri musiqi orkestri çalınıb, qoşun hissələri rəsmi marş addımları ilə kamali-nizam və qayda ilə gəlib keçməyə başladılar. Rəisi-vüzəra həzrətləri yanından keçərkən əsgəri salam verib rəisin "Mərhaba!" sözlərinə bir ağızdan "Çox sağ ol!" deyib cavab verirdilər.

Qoşun taqımları bu qayda ilə keçdilər:

1) Hərbi məktəb şagirdanı [şagirdləri] ərkani-hərb zabitanı [qərargah zabitləri] ilə bərabər;

2) Birinci Gəncə piyada alayı;

3) Piyada qisminin təlim komandası;

4) Mitralyoz taqımı;

5) Topçular və top arabaları ilə bərabər;

6) Qazmaçı [istehkam] taqımı;

7) Mizraqlı süvari dəstəsi;

8) Sihhiyyə və Hilali-Əhmər [Qırmızı Aypara] dəstəsi təbiblərlə bərabər.

Rəsmi-keçiddən müqəddəm [qabaq] Rəisi-vüzəra həzrətləri Məktəbi-Hərbiyyə şagirdanından zabit vəkili olanlarını zabitlik və namizədləri vəkillik rütbəsinə tərfi edib [yüksəldib, rütbəsini artırıb] təbrikatda bulundu və əsgərlik haqqında gözəl bir nitq irad etdi.

Bədəhu Rəisi-vüzəra, Parlaman sədri və Bələdiyyə rəisi həzrətləri birər nitq söyləyib Hərbiyyə naziri general Mehmandarov həzrətlərinə izhari-təşəkkür etdilər.

Gedənlər həman gün axşam məxsusi trenlə Bakıya qayıtdılar.

## ƏLİQULU NƏCƏFOV

Əziz yoldaşım! Doğrudur, ölmək təbiidir. Amma bu tövr nahaq, xunxar qatil əlində ölməyin ciyərimi dağdar etdi [dağladı].

Artist yoldaş! Sənin o vəhşi qatilin nəinki bir tək şeir aləminə, bəlkə türk səhnəsindən səni bizim əlimizdən almaqla böyük bir zərbə vurdu.

Sevgili yoldaşım! Bu axır vaxtlarda mənə yadigar olaraq göndərdiyin əksin dalında yazdığın "Həsb-hal"dan görünürdü ki, həqiqətdə dünyadan o qədər incimişsən ki, ölməyi istərmişsən. Qoy sənin bu küskün halını mən də şeir və səhnə mühibblərinə [aşiqlərinə] xəbər verəyim. Qoy onlar da oxusunlar.

**Həsb-hal***

*Təsviri-pürməlalımı mütləq görən zəvat*
*Anlar keçirtmişəm necə əfsürdə bir həyat*
*Gəldim cahana sanki həmişə bəla çəkim*
*Könlümdə vardı min əməl ü min təhəssürat*
*Dünyada bir mərami-dilim hasil olmayır*
*Yağı olub yenə bütün əcrami-kainat*
*Bəs kim düşünmüşəm qırışıbdır üzüm-gözüm*
*Zaye edib vücudumu işbu təfəkkürat*
*Sinnim otuzda, tüklərim iştə bəyaz olub*
*Köçmək sifarişin yetirib qasidi-məmat*
*Qalmıb ümid çünki həyatın bəqasına*
*Əksim götürtmüşəm qala bəlkə bu xatirat*

Ey türk səhnəsinin mehriban artisti! Allah rəhmət eyləsin.

*Mirzəağa Əliyev*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

- Ərzaq Nəzarəti, Bələdiyyə İdarəsinə məlumat vermişdir ki, put vergisi Ərzaq Nəzarətinindir. Hökumət tərəfindən hələlik bunu ləğv etmək haqqında bir qanun verilməmişdir. Hərgah məsələ Bələdiyyə İdarəsi nəfinə [xeyrinə] həll edilərsə də, yenə bundan mənfəət aparmaq mümkün olmayacaqdır. Zira, iki ayın zərfində Ərzaq Nəzarətinin put vergisi mədaxili 1.920.501 rublə 12 qəpikdir. Halbuki Bələdiyyə İdarəsinin borcu 1.333.619 rublə 55 qəpikdir.

- Bələdiyyə İdarəsi Bakı valisinə müraciətən məlum etmişdir ki, bu vaxtlaradək hər müfəttişlikdə xüsusi bir dəftər var idi ki, şəhər məntəqələrində vəfat edənlər həman dəftərə qeyd edilirdi. Bu dəftərlər üzrə şəhər Səhiyyə şöbəsi müsri [yoluxucu] xəstəliklərə dair məlumat cəm edə bilirdi. Alınan məlumata görə, səkkizinci dairə müfəttişliyində böylə dəftər yoxmuş. Bələdiyyə İdarəsi rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunulsun [addımlar atılsın].

- Səhhəti-Ümumiyyə Nəzarəti [Səhiyyə Nazirliyi] Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, hal-hazırda şəhər üç təşkilat tərəfindən təmizlənməkdədir: Bələdiyyə İdarəsi, Mərkəzi Ev Komitəsi və Müsri xəstəliklərlə mübarizə edici komisyon. Buna baxmayaraq, şəhər təmizlənməmiş qalmışdır. Səhhəti-Ümumiyyə Nəzarəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, bugündən etibarən şəhəri təmizləmək işləri Müsri xəstəliklərlə mübarizə edici komisyona mühəvvəl edilmişdir [tapşırılmışdır].

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə məlum etmişdir ki, 1918-ci sənənin oktyabrındakı Şəhər Bələdiyyə Məclisi müsəlman əzası [üzvləri] tərəfindən göstərilən iyirmi iki namizəddən fəqət [ancaq, sadəcə] səkkiz nəfəri Məclisi-Məbusana daxil olmaq istəmişlərdi. Məzbətədə [protokolda, qərarnamədə] başqalarının əsamisi [adları] yoxdur. Binaənileyh [ona görə], Məclisi-Məbusandan çıxmış Ağa Zeynal Tağızadə və Əliağa Həsənzadənin əvəzində əza intixab etmək [seçmək] üçün xüsusi iclas dəvət edilməlidir.

**Qiraətxana**

Balaxana "Qardaş birliyi" maarif cəmiyyəti təhti-idarəsində [tabeçiliyində] olan qiraətxana təzədən açılıb hər növ qəzetə və jurnallar mövcuddur. Camaatımızın gəlmələrini arzu ediriz. Əlavə, nisan (aprel) ayının 1-dən etibarən Balaxana məktəbində məzkur [adı çəkilən] cəmiyyət tərəfindən gecə kursları açılacaqdır. Elm oxumaq arzusunda olanların Balaxana istehlak cəmiyyəti "El köməyi" mağazasında yazılmaları xahiş olunur.

**Balaxanada**

Novruz bayramının birinci günü Balaxana məktəbi zalında "Qardaş birliyi" maarif cəmiyyəti tərəfindən bayram münasibətilə görüş məclisi tərtib olunub, bayramın ikinci günündə axşam üç pərdəli bir tamaşa göstərildi. Camaatın artıq həvəslə gəlmələri müşahidə olunurdu. Böylə ki, 250 dəvətnamə verildiyi halda 350-dən ziyadə tamaşaçı qonaqlar var idi. Cəmiyyətin nəfinə [xeyrinə] 3663 manat pul yığılmışdır. Ondan məxarici çıxdıqdan sonra cəmiyyətin nəfinə xalis 14-75 manat qalmışdır. Məclisdə cəmiyyətimizə kömək edən neçə nəfər cavanlara səmimi təşəkküratımızı izhar edəriz.

**Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsində**

Cümə günü mart ayının 28-də Qafqaziya müsəlman mütəəllimlərinin [tələbələrinin] Mərkəzi Komitə və fondunun Təzəpir məscidi nəzdində olan idarə binasında iclası olacaqdır. Arxadaşlardan rica olunur ki, saat 12 tamamda zəhmət çəkib təşrif gətirsinlər.

**Müsavat konfransı**

Bu gün (cümə) martın 28-i səhər saat 11-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin konfransı təyin edilmişdir. Konfransa şəhər və ətrafından əlli nəfərə bir nümayəndə göndərməlidir. İclasda əhvali-hazirəyə aid bir çox mühüm məsələlər müzakirə ediləcəklərdir.

**Məhəllə nümayəndələrinin nəzəri-diqqətinə**

Şənbə günü saat 11-də hər məscid məhəllə nümayəndələrindən rica olunur ki, Parlaman dairəsindəki "Müsavat" fraksiyonuna təşrif gətirsinlər.

**Sənətkarların nəzəri-diqqətinə**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən bu gün martın 28-də gündüz saat 11-ə təyin edilmiş olan konfransa Bakı və ətrafında yaşayan bütün sənətkarların böylə ki, mürəttiblər, xərratlar, dəmirçilər, kantorçular, qırçılar, ərradəçilər [arabaçılar], faytonçular, hamballar, dərzilər, rəngsazlar, malakeşlər, çəkməsilənlər, çəkməçilər, başmaqçılar, çaycılar, aşbazlar, papaqçılar, zərgərlər, restoran qulluqçuları, dükançılar və qeyrilərinin hər sinfindən iki nəfər olmaq üzrə nümayəndələri (ağsaqqalları) dəxi dəvət edilirlər. Konfransda məzkur [deyilən] sənətkarlara aid məsələlər dəxi müzakirə və həll ediləcəkdir.

**Lənkəranda Makarov dəstəsinin tərk-silahı**

Axır vaxtlar Lənkəranda olan polkovnik Makarovun dəstəsi Bakıdan göndərilən bir əmrə görə tərk-silah edilmişdir. Həmin dəstə 3 minə qədər süvari və piyada nəfəratından ibarət idi. Bu dəstə Biçeraxov qoşununun bir hissəsi olub, o getdikdən sonra maddi cəhətdən çox çətinlik çəkməkdə idi. Axır günlər dəstədən ancaq min nəfərə qədər adam qalmışdı. Çox hissəsi isə məvacib almadığından evlərinə getmişdi. Bir çoxları da Muğanda olan qoşun hissələrinə mülhəq olmuşlardır [qoşulmuşdular]. Bakıdan əmr aldıqda dəstə bütün əslihəsini [silahlarını] və əşyasını Lənkəran komandanına verib, saldatlar isə hissələrlə Bakıya gətirilmişlər ki, buradan Ermənistana göndərilsinlər (Makarov dəstəsi tamamilə ermənilərdən təşkil edilmişdi). Lənkəranda qalanlar üçün "Süleyman Hüseynov" adlı paraxod göndərilib və martın 24-də Bakıya üç afiser [zabit] ilə 110 nəfər saldat gətirilmişdir. Bunlarla bərabər, Makarov başda olmaq üzrə dəstənin ərkani-hərbi [qərargahı] dəxi gətirilmişdir. Dəstəyə daxil olan saldatlara məvacib əvəzində Lənkəran Ləvazimat İdarəsi tərəfindən ərzaq verilmişdir. Tərki-silah edilmiş olan dəstənin Lənkərandan Ermənistana keçib getməsi ingilis komandanlığı tərəfindən təmin edilmişdir [qarantiya verilmişdir]. Polkovnik Makarov müxtəlif zamanlar Bakıya gəlmiş olan erməni saldatlarını cəm edib, buradan Ermənistana aparacaqdır.

**Məhkəməyə cəlb**

Azərbaycan İstinaf Məhkəməsi müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum edir ki, onun tərəfindən Bakı Okrujnoy sud məhkəməsi [nahiyə məhkəməsi] vasitəsilə sabiq 8-ci uçastok pristavı təhti-mühakiməyə [mühakimə altına] alınır.

**Səhiyyə işləri**

Bakıda müsri xəstəliklərlə mübarizə edən komitə Bakı qubernatoruna məlum edir ki, hifzüssihhəyə dair qərardad məcburiyyətini pozmaqda müttəhim edilmiş olan 17 nəfər ev sahibləri və qəssablardan bəratülqövl [ptotokol] tərtib edilib, qalabəyinin [komendantın] binagüzarlığına [sərəncamına] göndərilmişdir.

## GÜRCÜSTANDA

**Bolşevizm haqqında**

Gürcüstana pənah gətirmiş olan bolşeviklər barəsində ingilislərlə gürcülər arasında mübahisə davam edir. İngilislər təklif və tələb edirlər ki, bolşeviklər hərbi əsir sifəti ilə saxlanılıb, xərcini gürcü hökuməti versin. Jordaniya isə bu rəydədir ki, bolşeviklərə siyasi təqibatdan bitərəf bir məmləkətə pənah apardıqları nöqteyi-nəzəri ilə baxmalıdır. Ona görə də onlar tərki-silah edildikdən sonra Gürcüstanda öz hesabları ilə azad gəzə bilərlər. İngilislər İstanbuldan İngiltərə Baş ərkani-hərbindən [Baş qərargahından] bu barədə düsturüləməl [təlimatnamə] gözləyir. Hələlik min nəfər bolşeviklər buraxılıb, qalanı isə Msxeta yanında saxlanılırlar.

**Axalkələk əhvalı**

Axalkələkdə olan İngiltərə əsgəri nümayəndəsi Xariciyyə nazirinə xəbər verir ki, məzkur [adı çəkilən] uyezd əhalisi böyük ehtiyac içindədir. Hərgah bu yaxınlarda kömək olmasa, nəticəsi xeyli fəna görünür. Yerləri əkmək üçün bu il toxumluq yoxdur. Hərgah vaxtlı-vaxtında əhaliyə toxum verilməsə, çöllər əkilməmiş qalar və əhali azuqədən məhrum olar. Əkindən ötrü otuz min pud taxıl lazımdır.

**Abxaz Xalq Şurasının güşadı**

Suxumdan "Qruziya" qazetəsinə teleqraf edirlər ki, martın 18-də Aloizi teatrosunda böyük izdihamla Abxaz Xalq Şurasının təntənəli rəsmi-güşadı [açılış mərasimi] olmuşdur. Dmitri Emuxvari şura sədri intixab edilmişdir [seçilmişdir]. Gürcüstan hökuməti tərəfindən İsidor Ramişvili şuranı təbrik etmişdir. Fraksiya nümayəndələri məruzədə bulunmuşlardır. Martın 20-də məruzələr müzakirə edildiyi zaman Abxaziyanın muxtariyyət əsası ilə Gürcüstan Cümhuriyyətinə daxil olması qətnaməsi qəbul edilmişdir. Qətnamənin elan edilməsi, şura üzvləri və əhali tərəfindən sürəkli və şiddətli alqışlarla qarşılanmışdır.

**Rus Milli Şurası sədrinin təbidi**

Zaqafqaziya Rus Milli Şurası, şura sədri Lebedevin Gürcüstandan təbidi [uzaqlaşdırılması, sürgün edilməsi] münasibətilə Gürcüstan hökumətinə protesto etmişdir. Milli Şura idareyi-örfiyyə [fövqəladə vəziyyət rejimi] ləğv edildiyi bir halda Lebedevin təbidinə beynəlmiləl normanın xələldar edilməsi kimi baxır.

**Gürcüstan-İngiltərə müqavilənaməsi**

Gürcüstan hökuməti İngiltərə ilə əqd etdiyi [bağladığı] müqavilənaməsində Gürcüstanda olan neft yerlərinin altı il müddətinə inhisarla imtiyazını İngiltərəyə vermişdir.

## ERMƏNİSTANDA

- Naxçıvan dairəsində müsəlman məmurları, erməni fərarilərini [qaçqınlarını] yerlərinə qaytaran erməni məmurlarına mümaniət [maneçilik] göstərirlər. Oraya göndərilmiş olan erməni fərarilərinin nümayəndələri Naxçıvana buraxılmamışlardır. İngilis general-qubernatoru Lauton ermənilərə heç bir müavinət göstərməmişdir.

- Ermənistan hökuməti general-qubernator Lautona müraciət ilə təvəqqe edir ki, müsəlmanları erməni hökumətini təsdiq etməyə vadar eyləsin. Zira Araz Cümhuriyyətindən erməni qoşunları öz xahişləri ilə çıxdıqda, onlara yuxarıdakı mətləb vəd edilmişdi.

- Ermənistan Daxiliyyə nazirinin ikinci müavinliyinə Daşnak firqəsinə mənsub Hayk Yaxşıyan dəvət edilmişdir.

**Ermənistan Parlamanında**

İrəvandan verilən məlumati-rəsmiyyəyə [rəsmi məlumata] görə, iki həftədir ki, Ermənistan Parlamanının iclası münəqid olmayır [baş tutmayır]. Buna səbəb, məbusların əksərinin xəstəliyi və möhkəm əksərinin xələldar olduğudur.

"Znamya truda" qazetəsinin məlumatına görə, fevralın 28-də vaqe olan tarixi cələsədən sonra iclas olmayır. Bu iclas üçüncü iclasdır ki, Daxiliyyə vəziri Xatisovun Ermənistandan idareyi-örfiyyeyi-əsgəriyyənin [hərbi fövqəladə rejimin] qaldırılması, Ermənistanda general-qubernatorluq təşkil edilməsi barəsindəki layihəsini müzakirə edirdi. Bu hadisədən sonra daşnakların İrəvan komitəsi martın 4-də bir intibahnamə [bəyannamə; vərəqə] buraxaraq Parlamanın qovulduğunu əhaliyə elan etmişdir.

## İZHARİ-TƏŞƏKKÜR

Müdir əfəndi! Atidəki [aşağıdakı] şu qaç kəlmə sözümü möhtərəm qəzetənizin bir guşəsində dərc etmənizi acizanə rica edirəm.

İttifaqi-Mütəəllimin [Tələbələr İttifaqı] idarəsi tərəfindən cəşn məclisi [bayram məclisi] tərtibində idarəyə böyük yardımlar edən Pəri xanım Topçubaşzadəyə, müəllimə Mina xanım Aslanzadəyə səmimi təşəkkürümü izhar edirəm.

*Kamali-ehtiram ilə katib:*
*Əbülfəzl Babazadə*

**İtibdir**

Səlimə Məşhədi Qulam qızının öz oğlu İsmayıl Kərbəlayi Mikayıl oğluna satdığı evin kağızı itib. Etibardan saqitdir [etibarsızdır].

*5767*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski.** Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

Petroqraddan gəlmiş **doktor İshaq Avetisoviç Atayans** (professor Mixaylovun müavini) mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708*

**"Müsavat" firqəsi konfransı**

Cümə günü martın 28-də Parlaman binasında gündüz saat 11-də Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin konfransı dəvət edilir. Konfransa hər əlli nəfərə bir nəfər olmaq üzrə şəhər və ətrafından nümayəndələr dəvət olunur. Konfransda əhvali-hazirəyə dair mühüm məsələlər müzakirə və həll ediləcəkdir. Mədən dairəsi əmələ yoldaşlardan göstərilən üsul üzrə öz nümayəndələrini intixab edib [seçib] konfransa göndərmələri rica olunur. Nümayəndələrdən əlavə rayon komitəsi idarə heyətləri dəxi konfransa iştirak edəcəklər.

**Elan**

Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu tərəfindən qoşun və camaatdan ötrü buğda, arpa, düyü, krupa [yarma], lobu, noxud, saman, ot, xırda-böyük 4 ayaqlı heyvanlar, inək yağı və quyruq yağı lazımdır.

Bu yuxarıda zikr olunan şeyləri satmaq istəyənlərdən xahiş edirəm kağız vasitəsi ilə bu ünvana müraciət etsinlər: Gəncə, Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu.

Şeylərin qədərini və qiymətini dəxi əlavə etməlidir.

*Gəncə Quberniyası Ərzaq Nəzarəti məsulu: A. Brilinski*
*T-76*

**Bəhri-Xəzər İstehlak Cəmiyyətləri İttifaqı "Kooperasiya"**

Türk təbiblərini İttifaqın açılmış ambulatoriyasına cəlb etməyi türk demokratiyasının [xalqının] mənafeyi arzusundaədd [hesab] edib, bununla siyahıya yazılmış türk təbiblərinə təklif edir ki, 1919-cu il aprelin birinə qədər həyati-sabiqəsi ərzihalını [keçmiş həyatları haqqında ərizə] məlum etsinlər.

Dörd boş yer vardır:

1) Arvad xəstəliyi (bu yer üçün təbibəyə tərcih veriləcəkdir),

2) Göz xəstəliyi,

3) Dəri və əmrazi-zöhrəviyyə [zöhrəvi xəstəliklər] və

4) Əmrazi-daxiliyyə [daxili xəstəliklər].

Şərait: Gündə iki saatlıq iş üçün ayda min (1000) manat məvacib.

1914-cü ildən sonra kurs qurtarmış təbiblərin ərzihalı bisərəncam buraxılacaqdır [müraciətlərinə baxılmayacaqdır].

*5769*

**Elan**

Bakı Ərzaq Nəzarəti bununla Bakı dairəsi kənd cəmiyyətlərinə elan edir ki, Bakı Kəndçilər İttifaqı tərəfindən onlara birinci lazım olan ərzaq şeyləri paylanacaq. Kənd cəmiyyətləri həman şeyləri almaq istəsələr, Bakı Kəndçilər İttifaqına müraciət etməlidirlər.

*Ərzaq Nəzarəti məsulu: Əliyev*
*Kargüzar – imza*
*T-70*

**Elan**

Hökumətin qərardadı ilə layihə hazırlamağa müsabiqə (konkurs) elan olunur.

1) Azərbaycan Hökumətinin nişanına (gerbə) və 2) Öyləcə də möhürünə.

Layihələrin təqdimi [üçün] bu sənəsi aprel ayının 20-sində vaxt qoyulur.

Ən gözəl layihələrə mükafat olaraq müqərrər edilir [qərarlaşdırılır]:
1-cililərə: gerb üçün 1000 manat;
» » » » » möhür üçün 500 manat;
2-cililərə: gerb üçün 500 manat;
» » » » » möhür üçün 250 manat.

Müfəssəl [ətraflı] məlumat iş günlərində Posta və Teleqraf Nəzarətindən almaq olar.

*Dəftərxana baş müdiri: Blajevski*
*1-inci şöbə kargüzarı: Rəsul Rəhimli*
*T-74*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

* Bu eir, mərhum Nəcəfov tərəfindən üz əksi ilə bərabər mənə son yadigar göndə-rilmi di.

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Parlaman ətrafında***

"…uyezd naçalnikindən…": Quba qəzasının rəisi vəzifəsini 1918-ci ilin avqustundan 1919-cu ilin aprelinə qədər Əmir xan Xoyski tutmuşdur. Əmir xan Xoyski Fətəli xan Xoyskinin qardaşı oğlu idi.

"Şıxlar bəylərindən qorxaraq…": hal-hazırda Xaçmaz rayonunun kəndi olan Şıxlar nəzərdə tutulur.

***Ordumuz***

"Port-Artur mühasirəsi": Rusiya-Yaponiya müharibəsinin (1904-1905) gedişində Sarı dənizdəki Port-Artur limanının Yaponiya tərəfindən mühasirəsi nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"…əfqan əmirinin…": söhbət 1901-1919-cu illərdə hakimiyyətdə olan Həbibulla xandan (1872-1919) gedir.

"Spartaklar": Birinci Dünya müharibəsindən sonra Almaniyada fəaliyyət göstərən marksist təşkilat olan Spartak İttifaqı [Spartakusbund] üzvləri və tərəfdarları nəzərdə tutulur.

"…İtaliya kralının…": söhbət 1900-1946-cı illərdə hakimiyyətdə olan III Viktor Emmanueldən (1869-1947) gedir.

"…Aşağı Palatada…": söhbət Böyük Britaniya Parlamentinin İcmalar Palatasından gedir.

"Vedjvud": Britaniya liberal və leyborist siyasi xadimi Cozayya Klement Vedjvud nəzərdə tutulur; bu ad qəzetdə təhrif edilmiş formada verilmişdir.

"Deyli teleqraf" [The Daily Telegraph]: 1855-ci ildən etibarən nəşr olunan gündəlik ingilis qəzeti.

"Qlob" [The Globe]: 1803-1921-ci illərdə Londonda nəşr edilmiş ingilis qəzeti.

"Skapa-Flou" [Scapa Flow]: Şotlandiyada Orkney adalarında [Orkney Islands] liman. Britaniya hərbi-dəniz donanmasının əsas bazası Birinci Dünya müharibəsi (eləcə də İkinci Dünya miharibəsi) dövründə bu limanda idi. Birinci Dünya müharibəsindən sonra Almaniya hərbi-dəniz donanmasının bir hissəsi 1919-cu ilin iyun ayında bu limanda batırılmışdır.

***Qəzetələrdən***

"Ümumi iş": 1918-1934-cü illərdə Parisdə rus dilində nəşr olunan "Obşee delo / La Cause Commune" qəzeti nəzərdə tutulur.

"Tsarski meydanı": Kiyevdə indiki Avropa meydanı; Şevçenko rayonunda yerləşir.

***Nəzarətlərdə***

"Səyib, Qanıqlı, Şalaub və Xaraba Qataqlı": kəndlərin adları təhrif edilmişdir.

***"Həsb-hal" şeiri üçün lüğət***

həsb-hal: hallaşma, dərdləşmə
təsviri-pürməlal: çox kədərli şəkil
əfsürdə: solğun; hissiz; ruhsuz
əməl: arzu
mərami-dil: qəlb arzusu
əcrami-kainat: göy cisimləri, səmavi cisimlər
bəs kim: o ki var
qasidi-məmat: ölüm qasidi
təhəssürat: həsrətlər
təfəkkürat: fikirlər
bəqa: daimi, qalıcı olmaq

***Bakı xəbərləri***

"…ingilis komandanlığı tərəfindən təmin edilmişdir.": qəzetdə "təmin" yerinə səhvən "təsis" getmişdir.

***Gürcüstanda***

"Qruziya": 1918-1921-ci illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Heç bir partiyanın orqanı olmadığını elan etsə də, bu qəzet əslində gürcü millətçilərinin görüşlərini əks etdirirdi.

"Aloizi teatrosu": sənayeçi və xeyriyyəçi İoakim Aloizi tərəfindən Suxumidə açılmış teatr. Qəzetdə "Aloizi" yerinə "Aloidi" getmişdir.

***Ermənistanda***

"Znamya truda": Tiflisdə 1917-1918-ci illərdə rus dilində nəşr edilən gündəlik qəzet. Sosialist-inqilabçılar partiyasının orqanı olmuşdur.







# Mədəniyyət







● Daş yaddaşımız

# Gözəlləşən Bakının yenilənən heykəlləri

## Tariximizin bir parçası sayılan heykəllər təmizlənir, bərpa edilir və daha da cəlbedici olurlar








**Heykəllər hələ qədim zamanlardan insanların maraq dairəsində olub. Bu maraq indi əhatə dairəsini daha da genişləndirib. Heykəllər bu gün şəhərlərin, qəsəbələrin yaraşığına çevrilib. Bəzən isə şəhərlər heykəlləri ilə tanınıb, heykəlləri ilə sevilib, heykəlləri ilə yadda qalıb. Heykəllər həm də bizlərə dünənimizi, ulu keçmişimizi xatırladır. Elə heykəllər də var ki, baxdıqca baxırıq, onun gözəlliyindən gözümüz doymur.**












Heyranı olduğumuz heykəllər həm də sanki keçmişdən bizə "yazılmış" daş məktubları xatırladır. Günü-gündən gözəlləşən ölkəmizin paytaxtı Bakı şəhəri böyük sənətkarların əl işləri olan heykəllərlə, abidə kompleksləri ilə zəngindir. Bu heykəllər şəhərimizə xüsusi yaraşıq verir, tarixi keçmişimizi özündə yaşadır, xoş hisslər aşılayır, ovqatımıza ovqat qatır.

Heykəllər də haradasa insanlara bənzəyir, kim bilir, bəlkə elə onlar kimidir. Onların da zaman-zaman diqqət və qayğıya ehtiyacı var. Bunu duyan, hiss edən, keçmişimizə, tariximizə hörmətlə yanaşan insanlar daim heykəllərə diqqət və qayğı göstərirlər. On gündür ki, "Abidələrə qayğı - Bakı şəhərində heykəltaraşlıq əsərlərinin təmizlənməsi və bərpası" layihəsi çərçivəsində ölkəmizin paytaxtındakı heykəllər təmizlənir, bərpa olunur, ikinci həyat verilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə paytaxtda yerləşən heykəllərin monitorinqi keçirilmişdir. Monitorinq nəticəsində şəhərə yaraşıq verən bəzi heykəllərin bərpaya ehtiyacı olduğu müəyyən edilmişdir. Artıq verilən təkliflərə uyğun olaraq ixtisaslaşmış texniki heyət tərəfindən bərpa-təmizləmə işlərinə başlanılıb. Məqsəd bu sənət əsərlərinin orijinal vəziyyətə qaytarılması və bərpa edilməsidir.

Qeyd edək ki, layihə çərçivəsində bərpa-təmizləmə işləri görkəmli Azərbaycan mütəfəkkiri və şairi Məhəmməd Füzulinin şərəfinə ucaldılmış heykəlin üzərində də aparılıb. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının önündə Orta əsr Azərbaycan şairi Məhəmməd Füzulinin şərəfinə ucaldılmış heykəl 1958-1963-cü illərdə şairin ölümünün 400 illiyi münasibətilə hazırlanmışdır. Abidənin heykəltaraşları Tokay Məmmədov və Ömər Eldarov, memarı isə Hacı Muxtarovdur. Heykəltaraşlar bu işlərinə görə keçmiş SSRİ Rəssamlıq Akademiyasının gümüş medallarına layiq görülmüşlər. Baxdıqca hiss edirsən ki, əsər olduqca poetikdir. Belə ki, Füzulinin daş obrazı bir əlində öz "Divan"ı, digər əlini çənəsinə söykəmiş şəkildə yaradılıb. Əsər sanki "qəmin hərifi" olmuş, dünyanın qəm yükünü çiyinlərində daşıyan şair obrazının daşlaşmış əksidir.

Məhəmməd Füzulinin heykəli təbii çəhrayı qranit daşından hazırlanmış postament üzərində ucalan bürünc heykəldən və postament qarşısında yerləşən fəvvarədən ibarətdir. 12 metr hündürlüyündə olan heykəlin yuxarı hissəsində təbiətin, aqressiv mühitin yaratdığı müxtəlif rəng dəyişmələri, korroziyaların aradan qaldırılması, onun ilkin vəziyyətinə qaytarılması üçün müvafiq işlər görülüb. Heykəl yad təsirlərdən, çirklərdən təmizlənərək ilkin vəziyyətinə qaytarılıb. Heykəlin yad təsirlərdən uzun müddət qorunması məqsədilə ona qoruyucu qat çəkilib.

Bərpa-təmizləmə işləri aparılan abidələrdən biri də Milli Qəhrəman Albert Aqarunovun şərəfinə ucaldılmış heykəldir. Heykəl 2019-cu ildə Bakı şəhərinin Nərimanov rayonu ərazisində ucaldılıb. Albert Aqarunov 25 aprel 1969-cu ildə Bakının Əmircan qəsəbəsində, yəhudi ailəsində dünyaya göz açıb. 1992-ci il mayın 8-də Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub.

Abidədə əks olunan qayadan çıxmaq təsviri Dağlıq Qarabağın simvoludur. Ətraf mühitin yaratdığı müxtəlif rəng dəyişmələri, korroziyaların aradan qaldırılması və heykəlin ilkin vəziyyətinə qaytarılması üçün bütün zəruri tədbirlər görülüb. Heykələ qoruyucu qat çəkilərək xarici mühitin təsirinə davamlılığı artırılıb.

Mollanəsrəddinçi satirik şair, müəllim və maarifpərvər Mirzə Ələkbər Sabirin heykəli də təmizlənib bərpa olunaraq əvvəlki vəziyyətinə gətirilib. Xatırladaq ki, Sabirin 1922-ci ildə ucaldılan abidəsi Bakıda ilk heykəl olmuşdur. Qala divarlarının yaxınlığında qoyulmuş heykəl qəribə daş ömrü yaşayıb. Belə ki, yeri olduğu kimi qalsa da, heykəl iki dəfə dəyişib. Cəlal Qaryağdı tərəfindən hazırlanan birinci heykəldə Sabir ayaqüstə olub. Heykəltaraş xatirələrində əzəmətli təsvir edilmiş Sabiri "Bənzərəm bir qocaman dağa ki, dəryada durar" misrasından ilhamlanaraq yaratdığını qeyd edib. Sabirin ikinci "heykəl ömrü" 1958-ci ildən başlayır. Belə ki, 1958-ci ildə abidə Yakov Keylixis tərəfindən hazırlanmış və oturmuş vəziyyətdə olan heykəllə əvəzlənib. Qaryağdının müəllifi olduğu heykəl isə Sabirin Şamaxıdan ilk gəldiyi dönəmlərdə dərs dediyi Balaxanıdakı məktəbin qarşısında ucaldılıb.

Görkəmli bəstəkar Qara Qarayevin abidəsi də təmizlənərək bərpa edilib, əvvəlki görkəminə qaytarılıb. Qara Qarayevin heykəli "Nizami" kino mərkəzinin arxasında, Bakı Musiqi Akademiyasının və bəstəkarın bir vaxtlar yaşadığı evin yaxınlığındadır. Bəstəkar hər gün buradan keçib işə gedər, axşamsa evə qayıdardı. Heykəlin müəllifləri Azərbaycanın Xalq rəssamı heykəltaraş Fazil Nəcəfov və respublikanın Əməkdar memarı Rəhim Seyfullayevdir.

Heykəllərin unikallığının qorunması və təhlükəsizliyinin təmin olunması məqsədilə peşəkar heykəltaraşların nəzarəti ilə texniki heyət tərəfindən görülən işlər bütün standartlara uyğun və keyfiyyətlə həyata keçirilir. Buna görə də bərpa işlərindən sonra heykəllər daha gözəl görünür.

Yaxın günlərdə Bakının ən hündür heykəllərindən biri olan görkəmli siyasi xadim, yazıçı-dramaturq Nəriman Nərimanovun heykəlinin üzərində bərpa və təmizləmə işləri aparılacaq.

Şəhərimizi gözəlləşdirən heykəllərin təmizlənməsi və yenidən bərpa olunması sakinlər tərəfindən də böyük məmnunluqla qarşılanır. Bizimlə həmsöhbət olan Zemfira İsmayılova dedi ki, abidə və heykəllərə hörmətlə yanaşıram. Çünki onlar bizlərə keçmişdən yadigar qalıb. Biz bu yadigarları göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə çatdırmalıyıq. Abidələr üzərində aparılan bərpa-təmizləmə işləri həm də tariximizə göstərilən böyük hörmətdir.

Paytaxt sakini Bəxtiyar Əliyev də söhbətimizə qoşularaq dedi ki, hər şey təmiz və səliqəli olanda daha gözəl görünür. "Bir müddət əvvəl marşrutda gedərkən dahi şairimiz Məhəmməd Füzulinin heykəli üzərində təmizləmə-bərpa işləri aparıldığını gördüm. Buna çox sevindim. Yolum heykəlin ucaldıldığı ünvandan tez-tez düşür. Artıq abidə üzərində bərpa işləri başa çatıb".

Şəhərimizi daha da gözəlləşdirən, tariximizin bir parçası olan heykəllərin bərpa-təmizləmə işləri uğurla davam edir. Deməli, zaman keçdikcə şəhərimiz daha gözəl görünəcək, həm sakinlərimiz, həm ölkəmizin paytaxtına gələn turistlər bu gözəllikdən zövq alacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● Yadigarlar

# "Diri Baba" türbəsi abadlaşdırılır



**Dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidələrindən biri olan "Diri Baba" türbəsi Qobustan şəhərində, Bakı-Şamaxı magistral yolunun üstündə Azərbaycanın ən əsas turizm dəhlizlərindən biri olan şimal-qərb turizm marşrutunda yerləşir.**

Şirvanşah hökmdarı I İbrahimin əmri ilə türbə 1402-ci ildə inşa olunub. Sufi şeyxlərindən birinin şərəfinə tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən sayılır. İkimərtəbəli türbə, yaxınlığında yerləşən süni şəkildə yaradılmış bir neçə mağara və kaha, eləcə də üzbəüz Orta əsrlərə aid qəbiristanlıq və qədim türbə qalıqları birlikdə vahid bir kompleksdir.

Unikal abidələrdən hesab olunan "Diri Baba" türbəsi ətrafında turizm infrastrukturunun yaradılması üçün hələ iki il qabaq xeyli işlər həyata keçirilib. Türbəyə gedən yol və ətraf abadlaşdırılıb, qurbangah və inzibati bina inşa olunub. Dövlət Turizm Agentliyindən verilən məlumata görə, hazırda abidənin özünün bərpası ilə bağlı işlərə başlanılması planlaşdırılır. Bildirilib ki, bununla yanaşı, həm yaxınlıqdakı qəbiristanlıqda abadlaşdırmanın və arxeoloji qazıntıların aparılması, həm də abidənin ətrafında bir sıra abadlaşdırma işlərinin görülməsi planlaşdırılır: "İlkin mərhələdə "Diri Baba" türbəsinə turistlərin rahat gedib-gəlməsi, orada xoş istirahət keçirməsi üçün turizm infrastrukturunun qurulmasını təmin etmişdik, indi isə abidənin özünün bərpası üçün layihələndirmə işlərinə başlanılır".

Dövlət Turizm Agentliyinin məlumatında qeyd olunub ki, görüləcək işlər çərçivəsində ərazidə arxeoloji qazıntılar aparılacaq, abidəyə qalxan pilləkan, qəbiristanlıq ətrafındakı məhəccər, abidə qarşısında beton sahə, piyada yolu, abidənin üst hissəsində metal hasar, giriş hissədəki şlaqbaum təmir ediləcək.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci il avqustun 12-də Qobustan rayonunda "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olmuşdu. Yenidənqurma işləri çərçivəsində ərazidə bulaq, qurbangah və söhbətgah tikilib, meydan döşəməsi yenilənib, türbəyə qalxan pilləkənlər üzlənib, ərazi abadlaşdırılaraq oturacaqlar quraşdırılmışdı. Həmçinin türbədə gecə işıqlandırılması təmin edilib, kommunikasiya xətləri qurulub və yenilənib.

XV əsrə aid və abidənin ayrılmaz tərkib hissəsi olan tarixi qəbiristanlığın ərazisində 40 qəbir tədqiq edilib və annotasiyası hazırlanır. Qəbiristanlığın ərazisi abadlaşdırılıb, burada şeyxlərdən birinin türbəsi aşkar edilərək arxeoloji işlər aparılıb. Abidənin ətrafındakı 8 mağara tədqiq olunub, onlardan bir neçəsi turistlərin ziyarət edə bilməsi üçün təmizlənərək hazır vəziyyətə gətirilmişdi. Bu abidənin daş kitabəsi tədqiq edilərək rəqəmsal surəti çıxarılmışdı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Gəncə Dövlət Milli Dram Teatrı beynəlxalq festivalda Qran-pri mükafatına layiq görülüb

**Portuqaliyanın Braqa şəhərində III Beynəlxalq Teatr Festivalı keçirilib.**



Avrasiya Teatrlar Birliyi, Portuqaliya Mədəniyyət Nazirliyi, CTB (Comphania de Teatro de Braga) və Braqa Şəhər Bələdiyyəsinin birgə keçirdiyi festivalda 8 ölkədən teatr kollektivləri iştirak edib. Festivalda ölkəmizi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə Dövlət Milli Dram Teatrı təmsil edib. Nazirlikdən bildirilib ki, yaradıcı kollektiv rejissor Tural Vaqifoğlunun quruluşunda Ejen İoneskonun "Kral ölür" tamaşasını uğurla nümayiş etdirib. Əsərində rolları Əməkdar artistlər Elxan Yunis, İlham Hüseynov, Sevda Orucova, Kəmalə Məmmədova, aktyorlar Güntəkin Mehdiyeva və Ruslan Hüseynov canlandırıblar. Münsiflər heyətinin qərarına əsasən, Gəncə teatrı "Ən yaxşı tamaşa geyimi" nominasiyasında qalib elan edilib və festivalın Qran-pri mükafatına layiq görülüb.

# Növbəti mövsümdə Milli Teatrda dörd yeni tamaşa təqdim olunacaq

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında cari ilin sonuna qədər dörd yeni tamaşa təqdim olunacaq.**



Teatrın Mətbuat xidmətindən bildirilib ki, Vilyam Şekspirin "Maqbet" faciəsinin motivləri əsasında hazırlanacaq "Ledi Maqbet" səhnə əsəri Xalq artisti Bəsti Cəfərovanın yubileyi münasibətilə benefis tamaşadır. Yeni yaradıcılıq işinin quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımovdur.

Növbəti mövsümdə premyerası olacaq daha bir səhnə əsəri "Müharibə"dir. Tamaşa Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə və Nihad Qubadzadənin eyniadlı əsəri əsasında reallaşacaq. Teatr uzun illərdən sonra yenidən Cəfər Cabbarlının "Aydın" əsərinə müraciət edib.

Ərşad Ələkbərovun quruluşunda təqdim olunacaq yeni səhnə əsərinin rəssamı Şəki Dövlət Dram Teatrının baş rəssamı Sahib Əhmədov, musiqi tərtibatçısı Azər Hacıəsgərli, rejissor assistenti Vüqar Məmmədovdur.

Milli Teatrın növbəti yaradıcılıq işi məşhur fransız yazıçı-dramaturqu Rober Tomanın "Səkkiz qadın" pyesi əsasında qurulan eyniadlı tamaşadır. Tamaşanın quruluşçu rejissoru Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, bəstəkarı Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə, rəqslərin quruluşçusu Ceyhun Dadaşov, rejissor assistenti Nərmin Həsənovadır.

# *Türkiyə nəşri:* "Azərbaycan musiqi festivalı ilə dünyanı heyran edir"

**Türkiyənin "Sabah" qəzetinin saytında Azərbaycanda keçirilən "Dream Fest - 2024" Beynəlxalq musiqi festivalı haqqında məqalə dərc edilib.**



"Azərbaycan musiqi festivalı ilə dünyanı heyran edir" sərlövhəli məqalədə Xəzər dənizi sahilində genişmiqyaslı mədəniyyət tədbirinin təşkilinə yüksək qiymət verilir. Məqalədə mənzərəli "Sea Breeze" istirahət mərkəzində 100-dən çox məşhur artistin canlı şoularına və çıxışlarına diqqət yönəldilir.

Dünya ulduzu Riki Martinin Azərbaycanda keçiriləcək konsertinə diqqət yetirilir.

Qeyd olunur ki, "Sea Breeze" istirahət mərkəzində musiqisevərlər qarşısında digərləri ilə yanaşı, Türkiyənin populyar rep müğənniləri Zen-G və Ati242 çıxış ediblər.

# Gəncədə yağışın törətdiyi fəsadlar aradan qaldırılır







İyulun 28-də axşam saatlarında yağan və sonra da fasilələrlə davam edən güclü yağış Gəncədə bir sıra fəsadlar törətmişdir. Belə ki, şəhərin Yeni Gəncə yaşayış massivində yeni salınan məhəllədə 30-a yaxın fərdi yaşayış sahəsi su altında qalmışdır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov hadisə yerinə gələrək sakinlərlə görüşmüş, güclü yağışın törətdiyi fəsadların aradan qaldırılırması istiqamətində aparılan işlərlə yerində tanış olmuşdur.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini - Fövqəladə Hallar Komissiyasının sədri Səməd Tomuyev demişdir ki, hazırda baş vermiş hadisə ilə əlaqədar olaraq aidiyyəti qurumlar gücləndirilmiş iş rejimində çalışırlar. Belə ki, Gəncə Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin və Fövqəladə Hallar Nazirliyinin yerli regional qurumlarının əməkdaşları tərəfindən evlərə dolmuş yağış sularının ərazidən xaric edilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir. Qısa vaxt ərzində yağış sularının evlərdən tamamilə çıxarılması təmin olunmuşdur.

Qeyd edək ki, anoloji halların gələcəkdə də yaşanmaması üçün hazırda sözügedən ərazidə Azərbaycan Dövlət Su Ehtiyyatları Agentliyinin sifarişi ilə yeni suötürücü beton boruların inşası həyata keçirilir. İşlərin yaxın aylarda yekunlaşdırılması nəzərdə tutulmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Biləsuvarlı gənclərin və idmançıların yürüşü keçirilib






Biləsuvar Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaradılmasının 30 illiyinə həsr olunmuş gənclərin və idmançıların yürüşü keçirilib.

Yürüş Biləsuvar Olimpiya İdman Kompleksinin qarşısından start götürərək Heydər Əliyev Parkında yekunlaşıb.

Heydər Əliyev Parkında gənclər və idmançılarla görüşən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, sonra isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirildiyini, ölkəmizdə həyata keçirilən gənclər siyasətinin dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu vurğulayıb.

İcra başçısı bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasəti nəticəsində respublikamızın bütün bölgələrində olduğu kimi, Biləsuvarın da sosial-iqtisadi və mədəni həyatında, dövlət idarəçiliyində gənclər uğurla təmsil olunurlar. Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rəisi Aydın Yusifov və idarənin Biləsuvar sektorunun rəisi Azad Quliyev isə çıxışlarında Gənclər və İdman Nazirliyinin yaradılmasının 30 illiyi ilə əlaqədar görülən işlərdən, idmanın inkişafına təkan verən tədbirlərdən bəhs edərək, idmançılara uğurlar arzulayıblar.

Sonra rayon idmançıları nümunəvi çıxışlarını nümayiş etdiriblər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***






# "Şirin qar" yeyərkən nələrə diqqət edək?

## Əgər dondurma şəklini itiribsə, onu almaq olmaz

Qızmar yay günlərinin sərinləşdirici ləzzətlərindən biri də dondurmadır. Dondurma qəbulu orqanizmdə serotonin hormonunun yaranmasına səbəb olur, sərinləməklə birlikdə əhvali-ruhiyyəni yaxşılaşdırır.



Dondurmanın tarixinin dörd min ildən çox olduğuna dair fikirlər var. Təxminən 3000 il əvvəl Çində buz, qar və meyvə parçaları qarışığından sərinləndirici desertlər hazırlanırdı. Daha sonra onun tərkibinə süd və buz əlavə edilirdi. Tədricən İtaliya, Fransa və Yunanıstanda da təravətləndirici desertlər hazırlandı. Dondurmanın kütləvi satışına ilk dəfə ABŞ-da 10 iyun 1786-cı ildə başlanıldı.

Bu gün ictimai iaşə obyektlərində alıcılara növbənöv, rəngarəng dondurma çeşidləri təklif edilir. Bəs, dondurma seçərkən nələrə diqqət edilməlidir? Onu qəbul edərkən hansı təhlükələrlə üzləşə bilərik?

### Saxlanma temperaturu dondurmanın keyfiyyətinə təsir edir

Bununla bağlı qəzetimizə açıqlama verən qida mütəxəssisi Ağa Salamovun sözlərinə görə, dondurma süd məhsulundan hazırlandığı üçün riskli qidalara daxildir: sağlam qida zəncirində mühafizə olunub istehlakçılara təqdim olunan dondurmalar keyfiyyətli olur. Qida zəncirinin əvvəlində, yəni istehsalatda iş sonrası avadanlıqların düzgün yuyulması və dezinfeksiyası əsas şərtdir. Çünki avadanlıqda qalan qida qalığı növbəti prosesdə çarpaz çirkənmənin baş verməsinə gətirib çıxarır. Bu da qida zəncirinin sonunda zəhərlənmə ilə nəticələnir. Dondurmalar mənfi 18 dərəcə soyuducu ilə təchiz olunmuş maşınlarda daşınmalıdır. Marketlərdə də dondurmaların mənfi 18 dərəcə soyuducularda mühafizə olunması şərtdir. Diqqət etmək lazımdır ki, saxlanıldığı yerdə dondurmalar bir-birinin üstündə olmasın. Arakəsmə olmalıdır ki, sirkulyasiya yaransın. Bu olmadıqda məhsul əriyir, tam donmur".

A.Salamov deyib ki, dondurmanın tərkibində protein, karbohidrat, yağ kimi maddələrlə birlikdə A, D, E, C və B qrupu vitaminlər, həmçinin maqnezium, fosfor, sodium, potasium, dəmir və sink kimi minerallar olur ki, bunun da orqanizmə çox böyük xeyri var. Südlü dondurmalar 1 ay, meyvəli-giləmeyvəli, qaymaqlı və ətirli dondurmalar 1,5 ay, plombir dondurması 2 ay saxlanıla bilər. İstehsalında müasir texnologiyadan istifadə edildikdə, eləcə də məhsulun saxlama müddətinin artırılmasına zəmanət verən konservantlar, stabilizator-emulqatorlar və digər qida əlavələri standartlara uyğun olaraq əlavə edildikdə südlü, qaymaqlı və plombir dondurmaları mənfi 18 dərəcədən yüksək olmayan temperaturda ən çoxu 10 ay saxlanıla bilər. Saxlanma temperaturunun stabilliyi dondurmanın keyfiyyətini təmin edən əsas şərtlərdən biridir. Saxlanma temperaturunda dəyişikliklər olduqda bu məhsullarda mikrobioloji proseslər başlayır və onların istehlakı orqanizm üçün təhlükə mənbəyi hesab olunur.

### Əriyib, sonra yenidən dondurulan məhsulların fəsadları olur

Qida mütəxəssisinin sözlərinə görə, istehlakçılar dondurma alarkən onun əriyib yenidən donmuş olub-olmamasına diqqət yetirməlidirlər: "Dondurma əriməməlidir, çünki bir dəfə əriyib, sonra yenidən donan məhsulda bağırsaq çöpləri aşkarlanır. Ona görə də marketlərdə inzibatçılar soyuducuların qapağına nəzarət etməlidirlər, eyni zamanda soyuducuya çox dondurma yükləməməlidirlər. Bu zaman içəridə serkulyasiya getmir və soyuq hava kütləsi az olduğu üçün dondurmalar gec donur və yumşaq olur. Saatlar keçdikcə orada bağırsaq çöpləri əmələ gəlir. Əgər dondurma öz şəklini itiribsə, onu almaq olmaz. Həmçinin əgər yeyərkən ağızda buz kristalları hiss olunursa, bu da zərər verə bilər. Çünki bu əlamətlər dondurmanın əvvəl əriyib, sonradan yenə donduğunu göstərir".

Dondurmanın istiyə, soyuğa və digər kənar təsirlərə məruz qalaraq qabının əzilmiş olmasına, məhsulun yerləşdirildiyi soyuduculara, saxlanma şəraitinə, qablaşdırmanın üzərində qeyd olunan istehsal və son istifadə tarixlərinə diqqət etmək mütləqdir. A.Salamov vurğulayıb ki, bəzən qışda istehsal olunan dondurmalar yay aylarına qədər qalır və satılmır. Bəzən isə aylarla qalan dondurmaların yazda və ya yayda satışına başlanılır ki, bunların yararlılıq müddəti keçmiş olur.

Ümumilikdə isə ekspert evdə hazırlanan dondurmaların istehlakının tərəfdarı olduğunu vurğulayıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ölkədə hava əsasən yağmursuz keçəcək

Azərbaycanda iyulun 30-na gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 40-50 faiz, gündüz 65-75 faiz olacaq.

Abşeron çimərliklərində gözlənilən hava şəraiti: Cənub-qərb küləyi əsəcək, səhər mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 24-25° isti, cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-21° isti, gündüz 25-30° isti, dağlarda gecə 10-15° isti, gündüz 16-21° isti olacaq.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Milli Məclis Aparatının sabiq rəhbəri
**SƏFA ABBAS OĞLU MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı Oğuz Rayon Ağsaqqallar Şurasının sədri
**CUMA XƏLİL OĞLU CUMAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3484**
**Sifariş 1677**

**Qiyməti 60 qəpik**